7. *Герасимец Н. Н., Кантемирова К. В., Васильева В. В., Теневой рынок. Нелегальная торговля оружием // Журнал "Вологдинские чтения" // Выпуск № 74 / 2009 // http://cyberleninka.ru/article/n/tenevoy-rynok-nelegalnaya-torgovlya-oruzhiem*

8. *Ежегодник СИПРИ 2014: вооружения, разоружение и международная безопасность: Пер. с англ. – Институт мировой экономики и международных отношений РАН. – М.: ИМЭМО РАН, 1998 – 2014. – 2015. – 764 с. – (в пер.) // http://www.sipri.org/yearbook/2014/files/sipri-yearbook-2014-in-russian*

9. *Кондратьев А. Сетецентрический фронт // Национальная оборона // N12 декабрь 2015 // http://www.nationaldefense.ru/includes/periodics/maintheme/2011/0210/21125558/detail.shtml*

10. *Мартин ван Кревельд / Трансформация войны. Пер. с англ. — М.: Альпина Бизнес Букс, 2005. — 344 с. Стр 70.*

11. *Ткачева А.В., Хожевец О.А. Сетецентрические концепции в современных вооруженных силах // http://libeldoc.bsuir.by/bitstream/123456789/2618/1/ Сетецентрические%20концепции.PDF*

12. *Фридман Дж. "Пограничные земли": Азербайджан в стратегии блокирования России Подробности: https://regnum.ru/news/1802539.html*

13. *Что такое гибридная война? Концепция и тактика гибридной войны // http://fb.ru/article/182506/chto-takoe-gibridnaya-voyna-kontseptsiya-i-taktika-gibridnoy-voynyi*

14. *Эйвазов Дж.. Безопасность Кавказа и стабильность развития Азербайджанской Республики. Баку, издательство «Нурлан», 2004 стр.218*


## XÜLASƏ


Məqalədə hərbi-güc məkanın əsas spesifik cəhətləri təhlil edilir. Əsas diqqət hərbi-güc məkanında Azərbaycan Respublikasının yerini müəyyənləşdirən parametrlərinə göstərilir. Məkan üzərində nəzarət kontekstində Azərbaycan Respublikasının milli maraqlar və milli təhlükəsizliyə təhdidlər araşdırılır. Həmçinin müharibələrin aparılmasının müasir üslabları təhlilin nəticəsində, Azərbaycan Respublikasının milli təhlükəsizliyə yeni və qeri-ənənvi təhdidlər və çağırışlar müəyyən edilir. Hərbi-güc məkan üzərində nəzarətin saxlanması üzrə müasir geosiyasi alətlərin tətbiqi təhlil edilir.


## SUMMARY


The article is analyzes military-force space as one of the modern perceptions of the spatial category of geopolitics. In the article, the author gives a brief description of the specifics of the military-force space. Particular attention is paid to the factors that determine the place of the Republic of Azerbaijan in the military-force space. National interests and threats to the national security of the Republic of Azerbaijan are considered in the context of space control. The article also is analyzes modern geopolitical instruments for preserving control over the military-force space.

# Siyasət

## GEOSİYASİ TƏDQİQATLARDA NƏZƏRİ MÜHAKİMƏLƏRİN QURULMA METODOLOGİYASI

BƏXTİYAR NƏBİYEV
Bakı Dövlət Universiteti




Geosiyasi gerçəklikləri müəyyən edəcək və mövcud reallıqları dəyişdirəcək çoxvariantlı modellərin, metodoloji prinsiplərin, tədqiqat metodlarının və prosedurlarının məcmusu, real geosiyasi mənfəətin əldə edilməsinə doğru yönəldilmiş birbaşa reallaşa bilən proqramların, tövsiyələrin və ərazi-siyasət əlaqələri texnologiyalarının məcmusu kimi ifadə edilə bilər. Burada onu bildirmək lazımdır ki, geosiyasi analiz və qərar qəbuletmə bir sıra hallarda dərin qeyri-müəyyənlik şəraitində baş verir. Bu, mümkün gələcəklə bağlı olaraq çox sayda ssenarilərin qurula bilməsini tələb edir. Bu ehtimallar strateji qərar qəbul etmə prosesinə daxil edilməlidir (9). Geosiyasət coğrafi, iqtisadi və irqi amillərin sistemli öyrənilməsi, milli və beynəlxalq siyasət bazasının formalaşdırılmasına xidmət edən bir elmdir (8). Geosiyasət coğrafiyanın siyasətə çevirdiyi istiqaməti araşdırır və qiymətləndirir. İqtisadi, sosial, hərbi, mədəni və siyasi ünsürlər siyasi coğrafiya üzərində dəyərləndirilir; siyasi coğrafiya bu ünsürlərlə aktiv hala gətirilir. Əslində də XIX əsrin II yarısında siyasi coğrafiya üzərindəki işlər geosiyasətin bir elm kimi formalaşmasını hazırlamışdır. Ən qısa izahat ilə geosiyasət, coğrafiyanın siyasətə verdiyi istiqaməti müəyyən edir (4). Geosiyasət ərazi-siyasi hadisələrin iştirakçılarını, onların tərkiblərini müəyyən edir: Dövlətlər və digər siyasi coğrafi subyektlər və onların daxilindəki qurumları; Regional (ərazi) qrupları və onların siyasi, iqtisadi, sosial, mədəni və hərbi təmərküzləşmə səbəbləri; İdeoloji mənşəli regional, lokal, qlobal geosiyasi təsir imkanlarına malik olan qurumlar; Geosiyasi hadisələr və onların iştirakçılarının qərar qəbul edilməsi konseptologiyası; Bilavasitə geosiyasi vəziyyətin analizində ərazinin struktur modelinin tətbiq edilməsi; Siyasi coğrafi proseslərdə iştirak edən qüvvələrin hərbi, siyasi, ideoloji, mədəni və sosial rifah səviyyəsi, regional və qlobal maraqları; Hazırda mövcud olan qüvvələr nisbəti və onun yaxın və uzaq perspektivdə dəyişmə ehtimalları; Ərazilər üzrə və qlobal miqyasda proseslərin modelləşdirilməsi; Geosiyasi hadisələrin idarə olunması və risk amilinin müəyyən edilməsi; Geosiyasi araşdırmaları kompleks tədqiqatlardan ayrı təsəvvür etmək mümkün deyildir. Belə ki, geosiyasət müəyyən ərazidə baş verən və ya baş verməsi ehtimal edilən proseslərin araşdırılması ilə məşğul olduğundan istənilən geosiyasi proses və ya hadisənin fəaliyyətinin inkişaf dinamikasından çıxarışlar edə bilməlidir. Burada önəmli bir anlayış kimi dövrəyə geostrategiya daxil olur. Geostrategiyanın statik və dinamik ünsürləri vardır. Geostrategiyanın statik (coğrafi) ünsürləri: Coğrafi mövqe (qitələrarası və bölgə səviyyəsində); Sərhədlər və ərazi bütünlüyü; Strateji qaynaqlar; Coğrafi xüsusiyyətlər (ada dövləti, qitə dövləti və s.). Geostrategiyanın dinamik ünsürləri: Sosial vəziyyət; İqtisadi durum; Siyasi sistem və vəziyyət; Əsgəri potensial; Mədəniyyət dəyərləridir. Təbii ki, bu anlayışların hər birinin də müəyyən açıqlamaya ehtiyacı vardır. Geosiyasi baxımdan coğrafi mövqe hər hansısa bir geosiyasi vahidin yer səthində və regional miqyasda tutduğu mövqe, onun ətrafındakı

ərazi siyasi-coğrafi subyektlərinə və obyektlərinə nisbətən vəziyyətidir. Sərhədlər və ərazi bütünlüyü məsələsi də geosiyasi ünsürlər kateqoriyasında özünəməxsus bir yer tutur. Hər bir dövlətin beynəlxalq və milli hüquq ilə müəyyən edilmiş coğrafi məkan ilə məhdudlaşan ərazisi vardır. Bu ərazinin daxilində onun müxtəlif tərkibləri birləşərək bir bütünlük formalaşdırırlar. Geosiyasi baxımından onların qorunması üçün lazımi ətraf elementlərin formalaşdırılması hər bir dövlətin qarşısında dayanan vəzifələrdəndir. Geosiyasi proseslərin gedişatına başlıca təsir edən amillər sırasına sosial vəziyyətin analizi daxildir. İqtisadi durum ölkənin və təmas edəcəyi geosiyasi məkanın iqtisadi inkişafının təhlil edilməsidir. Son zamanlar geosiyasətdən törəmə olan bir anlayış da elmi dövriyyədədir. Bu da geoiqtisadiyyatdır. Müasir beynəlxalq münasibətlər sistemində iqtisadiyyatın getdikcə əhəmiyyət qazanma meyli özünü biruzə verir. Bu baxımdan, beynəlxalq münasibətlər leksikonunda geo-siyasət və geo-iqtisadiyyat anlayışlarının paralellik göstərməsi təsadüfi deyildir. Siyasi sistem və vəziyyət geosiyasətin dinamik ünsürləri sırasına daxildir. Siyasi sistem, cəmiyyətin siyasi həyatında rol alan siyasi qurumları və digər ictimai qurumları, bunların fəaliyyətini və qarşılıqlı münasibətləri ifadə edir. Əlbəttə ki, hər cəmiyyətin siyasi sistemi onun inkişafının qanunauyğun nəticəsi kimi formalaşır. Siyasi sistem cəmiyyətin sosial-siyasi təbiətini, mövcud siyasi münasibətləri, təsisatları, normaları və hakimiyyətin təşkili prinsiplərini ifadə edir. Siyasi vəziyyət isə müəyyən siyasi sistem daxilində proseslərin inkişafı dinamikasını ortaya qoyur. Geosiyasətin elmi qanunları siyasi və tarixi proseslərin təhlili üçün çox əlverişlidir. Geosiyasi analiz metodları ilə xalqların və ölkələrin siyasi inkişaf qanunauyğunluqlarını öyrənmək və gələcək planlaşdırmalar həyata keçirmək mümkündür. Geosiyasi analiz üsulları fəal milli maraqların təmin edilməsi məsələlərinin həllində dövlət ehtiyatlarının müəyyən edilməsinə təsir edir. Geosiyasət siyasi həyatın müxtəlif iştirakçıları vasitəsilə həyata keçirilir. Geosiyasi analizin metodologiyası əsasında məkan formaları üzərində fəaliyyət reallıqları müəyyən edilir. Hər bir dövlətin özünün gücünə müvafiq olaraq özünəməxsus geosiyasi planları və hədəfləri vardır. Geosiyasi araşdırmaların gedişində məkan və bu məkanda fəaliyyət göstərən siyasi subyektlərin fəaliyyətləri təhlil edilir. Nəticələr müvafiq dövlət qurumları tərəfindən istifadə edilir. Burada məkan anlayışı haqqında müəyyən açıqlığın gətirilməsinə ehtiyac hiss edilir. Mekan reallığı, insan və təbiət proseslərinin qarşılığı və sintezi ilə yaranan bir dəyərlər sistemidir. Yaranan bu dəyərlər sistemi coğrafiyanı təmsil edər və coğrafi şüurla dərk edilir. Bütün bu xüsusiyyətləri məkanın siyasi bir sahə olduğunu da ortaya qoyur. Məkan siyasidir, çünki güc varlığının sınandığı, əks etdirildiyi, həmrəylik və ya qarşıdurma halının yaşandığı ən konkret səhnə məkanıdır. Məkanın daşıdığı və ya yığdığı dəyərlər iqtisadi, mədəni və siyasi məzmun daşıyır və güclər arasında mübarizənin çox zaman səbəbidir. Bu xüsusiyyəti ilə məkan həm güc alınan həm də güc əks etdirilən ünsürdür (5, 24). Özünün gələcək inkişafını və ərazilər üzrə maraqlarının təminatını həyata keçirməkdə konseptual yanaşmaya malik olan dövlətlər geosiyasi proseslərin paralel izlənilməsini düzgün hesab edirlər. Bu zaman dövlətlərin geosiyasi fəaliyyətlərində əsas alınan məsələlərin başında geosiyasi təhlükəsizlik gəlir. Geosiyasət təhlükəsizlik anlayışı, müxtəlif nəzəriyyələrlə bir çox elm adamı tərəfindən fərqli bucaqlardan ələ alınmış, yorumlanmış və günümüzün beynəlxalq təhlükəsizlik siyasətinin təməl qəliblərində özünə yer almışdır (3). Günümüzdə geosiyasi tədqiqatların intensivləşməsini şərtləndirən amillər vardır. Ölkələr arasında qarşıdurma yaşanmasına səbəb olan və son zamanlarda şahid olduğumuz beynəlxalq gərginlik mövzuları bəzi ölkələrin rəhbərliklərini qarışıq seçimlər etməklə qarşı-qarşıya buraxır. Dünya nizamı davam edən bir dəyişmə prosesini keçirir, bu prosesinin birbaşa nəticələri iqtisadi, mədəni və ümumiyyətlə hərbi qarşıdurma problemlərindən mütəşəkkil siyasi qeyri-sabitlik şəklində ortaya çıxır. Tərəflər arasında əməkdaşlıq, iqtisadi inkişaf və sosial inkişaf kimi prioritet mövzular gedərək ölkələrin daha çox geosiyasət maraqlarının qorunmasına fəda edilir. Rusiya, Çin və İran kimi ölkələr, keçdiyimiz son bir neçə illik zaman ərzində, enerji təchizatı, malların tranzit daşınması, ticari fəaliyyətlərdə istifadə olunan pul vahidi, milli sərhədlərin müdafiəsi, hava sahəsinin istifadəyə açılması, digər ölkələrlə hərbi sənaye sahəsində əməkdaşlıq, terrora qarşı ortaq mübarizə və milli suverenlik prinsipinin qorunması kimi sahələrdə həyati əhəmiyyət kəsb edən geosiyasi fəallıq nümayiş etdirirlər. Dünyanın tək qütblü nizamdan çox qütblü nizama keçid prosesi beynəlxalq əlaqələr sahəsində bir çox reallığın dəyişmə keçirməsinə səbəb olur (7).

Paralel tədqiqatlar real mənzərənin düzgün və obyektiv olaraq formalaşmasına kömək edirlər. Geosiyasi hədəflərin və atılacaq addımların vaciblik dərəcələrini müəyyənləşdirmədən araşdırmanın praktiki olaraq işlək halda həyata keçirilməsi və onun əldə ediləcək nəticələr baxımından lazımı səviyyədə aparılması mümkün deyildir. Geosiyasi münasibətlər müxtəlif səviyyələrdə özünü ifadə edir: milli, regional, beynəlxalq (6). Ərazisinə, iqtisadi və hərbi qüdrətinə rəğmən, müasir dövrdə bütün dövlətlər yerləşdikləri regionun əhəmiyyətli ərazi, geostrateji və geoiqtisadi üstünlüklərindən maksimum faydalı şəkildə yararlanmağa, milli maraqlarını maksimum səmərəli realizə etməyə çalışırlar.

Geosiyasət hər bir dövlətin beynəlxalq münasibətlər sistemindəki yerini - onun yerləşdiyi coğrafi məkanı, ərazisini, təbii sərvətlərini, iqtisadi-hərbi gücünü, əhalisinin sayını, demokratik inkişaf səviyyəsini, əmək resurslarını, qonşularla münasibətlərini və digər mühüm amilləri öyrənən elm sahəsi kimi ötən əsrin birinci yarısında formalaşmışdır (2). Hər bir müstəqil dövlətin əsas geosiyasi vəzifəsi öz milli ərazisi (dövlətin məxsusi coğrafi məkanı) çərçivəsində vahid milli-dövlət strukturunu, mərkəzləşmiş dövlət idarəçilik sistemini və suveren dövlət hakimiyyətini yaratmaq, möhkəmlətmək və daimiliyini təmin etməkdən ibarətdir. Bundan başqa, dövlətin geosiyasi vəzifələri sırasına həm də cəmiyyətin artan sosial-iqtisadi, mənəvi və s. tələbatının, ölkənin xarici və daxili təhlükəsizliyinin dolğun şəkildə təmin edilməsi, əhalinin təbii fəlakətlərdən qorunması, ölkədə milli-vətəndaş həmrəyliyinin yaradılması, tolerantlığın qorunması və s. daxildir. Bütün bu vəzifələri həyata keçirmək üçün dövlət onunla həmsərhəd olan qonşu ölkələrlə, qarşılıqlı münasibətlərdə fərqli mövqeyi ilə seçilən ayrı-ayrı beynəlxalq və regional aktorlarla təmasa girməli olur. Dövlətin geosiyasi maraqları həmin aktorlarla toqquşa, kəsişə, yaxud üst-üstə düşə bilər. Lakin heç nədən asılı olmayaraq dövlətin rəsmi və qeyri-rəsmi strukturları tarixən formalaşmış beynəlxalq normalara, regional ənənələrə və praktikaya, dərk olunmuş milli və ümumi maraqların qarşılıqlı tarazlığına əsaslanaraq xarici aktorlarla bu və ya digər geosiyasi münasibətlər qurmağa borcludur. Belə münasibətlər sistemi səviyyəsinə görə beynəlxalq, regional və yerli (lokal) olmaqla dövlətin müəyyən geosiyasi kodunu (statusunu) müəyyənləşdirir və müvafiq fəaliyyət kodeksinin (məcəlləsinin) yaradılmasını tələb edir. Geosiyasi kod hər bir ölkənin siyasi fəaliyyətindən, ölkə rəhbərlərinin və əksər əhalinin ətraf aləmə münasibətindən,



geomakan təsəvvüründən, dərk olunmuş və yaxud iddia olunan milli maraq, milli mənafe dairəsi və onun təmin olunması vasitələrindən, xarici aləmlə ünsiyyət zamanı ölkənin kəsb etdiyi maddi, mənəvi, hərbi, insani dəyərlərdən, xarici aləmdən yarana biləcək geosiyasi təhlükələrə reaksiyasından, müqavimət gücündən, malik olduğu hərbi-texniki vasitələrdən və s. keyfiyyət göstəricilərindən asılı olaraq müəyyənləşir. Böyüklüyündən və kiçikliyindən asılı olmayaraq, hər bir dövlətin ya tarixən formalaşmış, zaman-zaman ətraf aləmin təsiri ilə dəyişikliklərə məruz qalmış, ya da ki, yeni yaradılmış geosiyasi kodu və buna müvafiq olaraq, xarici aləmlə geosiyasi davranış kodeksi mövcud olur. Tədqiqatçılar fəaliyyət səviyyəsinə görə, ölkələrin geosiyasi fəaliyyət kodeksini- yerli, regional və planetar olmaqla, üç qrupa ayırırlar: Yerli səviyyəli kodekslər - qonşu həmsərhəd ölkələrin geosiyasi statusu, davranışı, bəyan etdiyi, yaxud fəaliyyətindən yaranan, müşahidə olunan geosiyasi məqsəd və vəzifələrinin qiymətləndirilməsi və ona müvafiq addımların atılması haqqında dövlətlərin hazırladığı ümumi xarakterli geosiyasi tövsiyələr toplusudur. Belə kodekslər hər bir ölkənin dövlət və hökumət, müvafiq xarici siyasət, hərbi, təhlükəsizlik, sərhəd və digər strukturlarının rəhbər fəaliyyətlərinin əsasını təşkil edir. Regional fəaliyyət kodeksləri - öz geosiyasi təsirini təkcə həmsərhəd qonşu dövlətlərin deyil, həm də regionun digər ölkələrinin ərazisində yaymaq istəyən regional lider və yaxud belə statusa can atan digər dövlətlərin geosiyasi istəyinə uyğun olaraq yaradılan tövsiyələr toplusudur. Nəhayət, planetar geosiyasi fəaliyyət kodeksləri o ölkələrdə (məsələn, bu sıraya dünyanın atom silahına malik olan ölkələrini aid etmək olar) yaradılır ki, onlar bütün dünyada geosiyasi maraqlarını təmin etmək gücünə malikdir, beynəlxalq aləmin əksər hadisələrinə fəal müdaxilə edə bilir və planetin istənilən guşəsində geosiyasi fəaliyyətlərini təmin etməyə çalışırlar. Əlbəttə, hər bir ölkə özünün iqtisadi, siyasi və sosial vəziyyətindən, dövləti idarə edənlərin dünyagörüşü və xarakterindən, əhalinin ətraf aləmə baxışları və münasibətindən çıxış edərək, yerli, regional və beynəlxalq geosiyasi münasibətlərdən, qonşu ölkələrin geosiyasətindən və mövcud məkanda nümayiş etdirdiyi davranışlardan və s. asılı olaraq, özünün məxsusi geosiyasi vəzifələrini müəyyənləşdirir, fəaliyyət kodeksini hazırlayır və onun əsasında da yaxın və uzaq xarici aktorlarla geosiyasi əlaqələr yaradır (1).

Bu baxımdan tədqiqatlar aparılarkən müxtəlif dövlətlərin daxili və xarici siyasət ehtiyaclarını, onların ərazilər üzrə maraqlarını təmin etmək məqsədi ilə ortaya qoyduqları meyllərini aşkar etmək lazımdır.

Geosiyasi şərait dəyişkən olduğuna görə mövcud olan regionlarda əhalinin siyasi-psixoloji durumunun araşdırılması da vacibdir. Siyasi-psixoloji durum, ölkə daxilində cərəyan edən proseslər, eləcə də bir sıra digər tamamlayıcı məsələlər dövlətlərin geosiyasi fəaliyyətlərinə daxili əhali dəstəyini müəyyən edir.

Daxili əhali dəstəyi olduqca mühüm amillər kateqoriyasına daxildir. Məsələn, SSRİ-nin Əfqanıstanda, ABŞ-ın Vyetnamda və digər bölgələrdə qala bilməməsinin səbəblərindən biri də əhalinin dəstəyi bu siyasi kursa azaltması və hətta bəzi hallarda ona qarşı çıxması idi. Bu gün təcavüzkar Ermənistan dövlətinin daxilində baş verən proseslər də eyni ilə bunu göstərir. Artıq ciddi şəkildə Ermənistan hakimiyyətinin geosiyasi planlarına qarşı daxili etirazlar səslənir. Çünki Ermənistan rəhbərliyinin siyasəti və geosiyasi planları ölkə əhalisini iqtisadi səfalət ilə üzləşdirmişdir.

Tədqiqatlar apararkən həm dövlətlərin fəaliyyətinin və geosiyasi məkanlar üzrə davranışlarının xarakteri və tələbatı dəqiqləşdirilir, həm də bu tələbatın ödənilməsinin mexanizmlərinə baxılır.

Dövlətlər militarist, diplomatik, iqtisadi, potensial imkanlarına müvafiq olaraq geosiyasi fəaliyyət mexanizmləri müəyyən edirlər.

Bu nə deməkdir? Militarist dövlətlər özlərinin maraqlarının ödənilməsi üçün hərbi üsullara və mexanizmlərə üstünlük verirlər. Diplomatik fəaliyyət bazası güclü olan dövlətlər inandırma və çəkindirmə diplomatiyası vasitəsi ilə geosiyasi məkanlara daxil olur, orada möhkəmlənir, rəqiblərini zərərsizləşdirirlər. İqtisadi imperativləri önə çəkən dövlət öz iqtisadi imkanlarından yararlanmağa və mexanizmləri bu bazada qurmaq istəyirlər.

Ümumiyyətlə, araşdırma aşağıdakı mərhələlərdən keçmişdir:
- tədqiqatın hazırlıq mərhələsi;
- məlumatlarının toplanılması mərhələsi;
- yığılmış məlumatların sistemləşdirilməsi;
- sistemləşdirilmiş məlumatların təhlili;
- yekun hesabatların hazırlanması.

Təbii ki, geosiyasi tədqiqatların aparılması forması qarşıya qoyulan məqsədin xarakterindən və ödəniləcək maraqların əhatəliliyindən asılıdır.

Məkanın və onun xüsusiyyətinin müəyyən edilməsi olduqca böyük önəm daşıyır.

Bu, nə deməkdir? Yəni geosiyasi fəaliyyətini reallaşdırmaq istəyən dövlət bu məkanda hansı üstünlüklər əldə edir. Yeni imkanlarmı, dəniz və ya okeana çıxışmı, müttəfiq dövlətlərə çıxışmı, rəqib dövləti və ya dövlətləri zərərsizləşdirmə imkanımı? Məkanın xüsusiyyətinə gəldikdə isə, onu demək olar ki, problemin əhatə dairəsi formanın dəqiqləşdirilməsində xüsusi rol oynayır.

Metodik olaraq tədqiqatın üç əsas növündən istifadə olunur.

İlk olaraq kəşfiyyat xarakterli tədqiqatdır. Bu cür araşdırmalar yığcam xarakter daşıyır. Bu mərhələ məlumatların, müvafiq materialların toplanılması və öyrənilməsi prosesidir. Bu geniş miqyaslı tədqiqatların ilkin mərhələsi hesab olunur. Kəşfiyyat xarakterli tədqiqatın müşahidə və sorğu xüsusiyyətli tərəflərin də vardır. Bu forma xüsusi məlumatların əldə olunması prosesində istifadə olunur.

İkinci növ yazılı materialların və hesabatların ümumi təhlilidir. Bu fəaliyyət şəkli konkret təhlilin ən mühüm formasıdır. Bu tədqiqat növünün qarşısında duran əsas məqsəd əldə olunan bu məlumatların öyrənilməsidir. Yazılı tədqiqatın əhatə dairəsi daha geniş olur və əldə olunan məlumatlar obyektin bütün tərəflərini geniş şəkildə öyrənməyə istiqamətləndirir.

Məlumatların xüsusi hesabatı aparılır, onlara münasib olan təhlil metodu seçilir, tədqiqatın məqsədi, məzmunu, istiqamətləri, funksiyaları müəyyənləşdirilir.

Qeyd edilən tədqiqatlar kateqoriyası mütəxəssislər tərəfindən mükəmməl şəkildə hazırlanmış proqram əsasında yerinə yetirilir. Həmin proqrama uyğun olaraq əldə olunan materiallar qruplaşdırılır, xarakterizə edilir, qiymətləndirilir.

Nəhayət tədqiqatlar analitik tədqiqat işləri ilə bitir. Analitik tədqiqat dərin məzmunlu təhlil növü olub:

• öyrənilən geosiyasi situasiyanın bütün tərəflərinə,
• onların imkan və maraqlarına,
• habelə onların gələcəkdə ola biləcək olan fəaliyyət ehtimallarına

məntiqi təhlillərin yekununda və eləcə də diferensiasiya, habelə icmal metodlarından istifadə edərək rasional mövqedən yanaşır.

Bu, nə deməkdir? İlk öncə geosiyasi prosesdə iştirak edən tərəflər ayırılıqda öyrənilir. Onların imkanları arasında müvazinət təyin edilir, eləcə də maraqların toqquşma nöqtələri müəyyən edilir. Analitik material diferensiasiya edilərək tərkiblərə ayırlır. Sonra icmal həyata keçirilir, bundan sonra isə rasional nəticə əldə edilir. Geosiyasi toqquşma və maraq regionları əslində qlobal məkanda demək olar ki dəyişməmişdir. Tarixi müddət ərzində məkana söykənən və güclər arasında mübarizənin yaşadığı oyun sahələri sanki ənənəvilik daşıyır. Məsələn Qafqaz, Orta Asiya və Yaxın Şərq coğrafiyası ənənəviləşmiş bir oyun sahəsi olaraq xarakterizə edilə bilər. Bu xarakterizə səbəbi nümunə verilən məkanların iqtisadi siyasi dəyərində qorunur (5).

Analitik tədqiqat həmçinin məkanın və onun üzərində həyata keçiriləcək geosiyasi obyektin, həmçinin subyektlərin bütün xarakterik xüsusiyyətlərini faktlar əsasında təhlil edir, onun məqbul və qeyri-məqbul tərəflərini üzə çıxarır.

Analitik tədqiqat materialların toplanılmasına və tədqiqinə kompleks şəkildə yanaşır. Burada müxtəlif formalı təhlillərdən istifadə olunur.

Onların əsasında yaxın müddətli və uzunmüddətli qənaətlər hasil edilir, planlar qurulur.

Bir sıra hallarda yeni situasiyalar üzərində qurulduğundan analitik tədqiqat mahiyyətcə eksperiment xarakteri daşıyır. Çünki tədqiqinə müxtəlif yanaşma metodlarından istifadə etməsi müxtəlif hadisə və obyektin tədqiqində yeni yanaşma tərzləri əlavə edir.

Bunu da qeyd edək ki, tədqiqatlar zamanı eksperimentlər aparmağın bir çox problemləri də mövcuddur.

Çünki eksperimentlər bəzən nəticə etibarı ilə tamamlanmamış şəkildə özünü biruzə verir.

Bu, nə deməkdir? Aparılan araşdırmalar zamanı hər hansısa bir mərhələdə edilən səhv və ya diqqətsizlik yekunda böyük fəsadlara səbəb olur. Geosiyasi fəaliyyət məkanı oyunçularının imkanlarının düzgün müəyyən edilməməsi, maraqlar toqquşmasının düzgün müəyyən edilməməsi, materialların diqqətlə incələnməməsi problemini formalaşdırır.

Burada problemlərin qarşısının alınması zamanı istifadə ediləcək metod paralel araşdırmaların tutuşdurulmasıdır. Tədqiqatlardan, əsasən, geosiyasi layihələndirmə məqsədi üçün istifadə edir. Fəaliyyətin təşkili prosesində tədqiqatların nəticələri əsasında layihələndirmələr qurulur. Xüsusilə, müasir mərhələdə geosiyasi işlərin qurulması, dövlət maraqlarının təmin edilməsi qeyd edilənlərdən asılıdır. Çünki bu layihələrin reallaşdırılması, əsasən, real imkanlar vasitəsi ilə həyata keçirilir. Geosiyasi proqnozlaşdırma da tədqiqatlar əsasında yerinə yetirildikdə gələcək proseslərin inkişaf dinamikasını dəqiqləşdirir, dövlətlərin geosiyasi tələbatlarını əvvəlcədən müəyyənləşdirir.

## ЛИТЕРАТУРА

*1. Həsənov Ə.M. Azərbaycanın geosiyasəti. Dərslik. - Bakı, "Zərdabi LTD" MMC, 2015, s.156-157*

*2. Qasımov A. Müasir geosiyasətin mükəmməl elmi-nəzəri tədqiqi. // Azərbaycan.- 2010.- 30 noyabr.- S.5*

*3. Muhittin Demiray, İsmail Hakkı İşcan. Uluslararası sistemde güvenlik kavramının deşiþimi ekonomik ve jeopolitik arka planı. // Dumplular universitesi sosyal bilimler dergisi. Sayı 21, Ağustos 2008, s.141-170, s.142*

*4. Suat İlhan. Jeopolitik kavramı ve unsurları. // Jeopolitik Özel, K›fl 2002, Cilt: 8, Say›: 4, s. 318-322*

*5. Yaşar Hacısalihoğlu. Kuramsal ve kavramsal bir çözümleme: mekan - güç – çatışma ve jeopolitik. // Stratejik Araştırmalar Dergisi / Journal of Strategic Studies 1(2), 2008, s.22-44*

*6. Белашов Иван Иванович. Геополитические интересы в структуре современного политического процесса. Ставрополь – 2004, с.3*

*7. Елена Осельская. Возможности, проблемы и перспективы использования геополитического анализа для исследования современных интеграционных процессов. // АНАМНЕЗА, Год. X, 2015, кн. 1, с. 61-76*

*8. Miguel Ángel Ballesteros Martín. Method for the analysis of geopolitical regions (marg). // Journal of the Spanish Institute for strategic studies, p.2*

*9. Paul Ormerod and Shaun Riordan Query Sheet. A New Approach to the Analysis of Geo-Political Risk. // Diplomacy and Statecraft 15(4): 1–12, 2004, p.3*

***Açar sözlər:*** *geosiyasi tədqiqatlar, geosiyasi vəzifələr, ərazilər üzrə maraqlar, tarixi proseslər.*

***Ключевые слова:*** *геополитические исследования, геополитические цели, территориальные интересы, исторические процессы*

***Keywords:*** *geopolitical research, geopolitical goals, territorial interests, historical processes*

## РЕЗЮМЕ

Проблема в данной статье методология строения теоретических заключений в геополитических исследованиях. Последовательность вопросов в статье группируются в выработке технологий, методологических принципов исследования, методов исследования и процедур совокупности реальных геополитических выводов, которые могут быть реализованы непосредственно вовремя осуществления программ геополитического значения. Автор считает, что законы политического развития стран с методами геополитического анализа могут привлечены для изучения и осуществления планирование.

## SUMMARY

The problem in this article is the methodology of the structure of theoretical conclusions in geopolitical studies. The sequence of questions in the article are grouped in the development of technologies, methodological research principles, research methods and procedures of a set of real geopolitical conclusions that can be realized directly during the implementation of programs of geopolitical significance. The author believes that the laws of political development of countries with methods of geopolitical analysis can be attracted to study and implement planning.

# Beynəlxalq əlaqələr

## AZƏRBAYCAN-MOLDOVA ƏLAQƏLƏRİ: YÜKSƏK SƏVİYYƏLİ DOSTLUQ VƏ ƏMƏKDAŞLIQ MÜNASİBƏTLƏRİNƏ DOĞRU

ALI BALAYEV
Tarix üzrə fəlsəfə doktoru





Azərbaycan-Moldova münasibətləri tarixinin kökləri sovet dövrünə gedib çıxır, 1922-ci il SSRİ yarandığı vaxtdan hər iki respublika SSRİ tərkibində müttəfiq respublika kimi mövcud olmuşdur. O vaxtdan Azərbaycan Respublikasında Moldova diasporu yaşayır, onların sayı təxminən 500 nəfərə qədərdir. Moldova Respublikasında isə Azərbaycan diasporunun sayı 5 min nəfəri keçmişdir.

Hər iki ölkə müstəqillik qazandıqdan sonra onlar arasında ikitərəfli siyasi münasibətlər yarandı. 1940-cı ildə Bessarabiya və Şimali Bukovina Rumıniyadan alınaraq SSRİ-yə qatıldı və Moldova SSR yaradıldı. O vaxtdan Moldova və Azərbaycan arasında münasibətlər quruldu. Lakin 1996-cı ilə qədər hər iki ölkə arasında münasibətlər zəif olmuşdur.

1996-cı ilə qədər münasibətlər beynəlxalq təşkilatlar çərçivəsində davam etdirilir, bəzi rəsmi və qeyri-rəsmi qurumların arasında fərdi əlaqələr qurulurdu.

1997-ci il noyabrın 26-28-də Moldova Respublikasının Prezidenti Petru Luçinskinin Azərbaycana ilk rəsmi səfəri iki ölkə arasında əlaqələrin genişləndirilməsində böyük əhəmiyyəti olub.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Moldova Respublikasının Prezidenti Petru Luçinski ilə görüşərək ikitərəfli münasibətlər, beynəlxalq təşkilatlar çərçivəsində birgə əməkdaşlığa dair məsələlər, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında müzakirələr aparıblar. Bu görüş Azərbaycan və Moldova arasında yüksək səviyyədə keçirilən ilk görüş olub. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Moldova Respublikasının Prezidenti Petru Luçinski birgə mətbuat konfransı keçirilib. Heydər Əliyev mətbuat konfransında bəyanatla çıxış edib: "… Biz hər iki ölkə üçün çox mühüm bir məsələ-ərazi bütövlüyü, bir-birinə qarşı güc işlədilməsinin, hər hansı ölkənin ərazi və sərhədlərinin zor gücünə dəyişdirilməsinin yolverilməzliyi məsələsi barədə fikir mübadiləsi etdik. Bu məsələlərdə, xüsusən də həm Azərbaycan, həm də Moldova dövlət müstəqilliyi əldə etdikdən sonra onların qarşılaşdıqları münaqişələrin həlli məsələsində tam yekdil rəydə olduq…" [2, 585].

Moldova Respublikasının Prezidenti Retru Luçinskinin şərəfinə təşkil edilmiş rəsmi qəbulda Prezident Heydər Əliyev geniş nitq söyləyib. "… Moldova Prezidentinin Azərbaycana ilk rəsmi səfəri ölkəmizin həyatında əlamətdar hadisə və Azərbaycan-Moldova münasibətlərində mühüm mərhələdir…".

Səfər çərçivəsində iki ölkə arasında 15 sənəd imzalanıb. Azərbaycan Respublikası və Moldova Respublikası arasında Dostluq və əməkdaşlıq haqqında Müqavilə, Azərbaycan Respublikası Hökuməti ilə Moldova Respublikası Hökuməti arasında ikiqat vergiyə cəlb etməyə yol verilməməsi, gəlir və əmlak vergilərinin ödənilməsindən yayınmanın qarşısının alınması haqqında Konvensiya, vergi qanunvericiliyinə əməl edilməsi məsələləri üzrə qarışıqlıq yardım və əməkdaşlıq, elmi-texniki əməkdaşlıq, investisiyaların təşviqi və qarşılıqlı qorunması, beynəlxalq avtomobil əlaqəsi, istehsalat kooperasiyası, pensiya təminatı sahəsində vətəndaşların hüquqlarının zəmanətləri, təhsil sahəsində əməkdaşlıq, mədəniyyət sahəsində əməkdaşlıq, valyuta və ixrac nəzarəti sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında sazişlər, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Moldova Respublikası Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol və digər sənədlər imzalanıb [2, 585].

1998-ci ildə Yaltada Ukrayna Prezidenti Leonid Kuçmanın 60 illik yubileyində iştirak edən Azərbaycan Prezidenti H.Əliyev və Moldova Prezidenti P.Luçinski qarşılıqlı maraq doğuran problemləri müzakirə edirlər. 2004-cü ildə Moldova Ukraynadakı səfirinin Azərbaycanda da fəaliyyət göstərməsi üçün ona səlahiyyət verib. 2005-ci ildən isə Azərbaycan Respublikasının Moldovada səfirliyi fəaliyyətə başladı "İkitərəfli əlaqələrin inkişafı baxımından 2004-cü il oktyabrın 26-27-də Moldovanın prezidenti V.Voroninin Azərbaycana rəsmi səfəri mühüm rol oynamışdır. O, Azərbaycan Prezidenti İkham Əliyevlə danışıqlar aparmış və siyasi, iqtisadi, humanitar sahələrdə əlaqələrin inkişafı məsələlərini müzakirə etmişdir. Səfər zamanı 9 sənəd, o cümlədən "Azərbaycan Respublikası Prezidentinin və Moldova Respublikası Prezidentinin Birgə Bəyannaməsi imzalanmışdır [2, 586]. Keçən illərdə iki ölkə arasında cəmi 26 dövlətlərarası, hökumətlərarası və müəssisələrarası müxtəlif hüquqi-normativ sənəd imzalanmışdır.

2005-ci il aprelin 21-də Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin Moldovaya rəsmi səfəri də zəngin olmuşdur.

Səfər zamanı iki ölkə arasında daha 5 sənəd imzalanmışdır. 2005-ci il iyunun 16-da Azərbaycan Prezidenti İ.Əliyev Beynəlxalq investisiya forumunda iştirak etmək üçün Ukraynaya rəsmi səfəri çərçivəsində yenidən Moldova Prezidenti V.Voroninlə görüşmüş, qarşılıqlı əlaqələrin vəziyyəti və perspektivi ilə bağlı fikir mübadiləsi aparılmışdır [2, 586]. 2004-cü il oktyabrın 26-27-də Moldova Prezidenti Vladimir Voroninin Azərbaycana rəsmi səfəri onun Qafqaz regionunda ilk səfəri olub.

Dövlət başçılarının təkbətək görüşlərində aşağıdakı məsələlər ciddi müzakirə olunub:

- hər iki ölkənin təcavüzkar separatçılıq nəticəsində işğala məruz qalmalarına son qoyulması;
- ərazi bütövlüyünün beynəlxalq hüquq normaları çərçivəsində həll edilməsi. İmzalanan sənədlər aşağıdakı sahələri əhatə edirdi;
- hər iki ölkə arasında mülki, ailə cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında müqavilə;
- hökumətlərarası uzunmüddətli iqtisadi əməkdaşlıq, vətəndaşların qarşılıqlı səfərləri;
- bitkilərin karantini sahəsində;
- əmək və əhalinin müdafiəsi sahəsində;
- ədliyyə nazirlikləri arasında;
- kənd təsərrüfatı sahəsində iqtisadi və elmi-texniki əməkdaşlıq haqqında sazişlər;
- xarici işlər nazirlikləri arasında 2005-2006-cı illər üçün məsləhətləşmələr planı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2005-ci il aprelin 21-də Moldova Respublikasına səfəri zamanı Moldova Prezidenti V.Voroninlə regional və beynəlxalq xarakterli məsələlər müzakirə olunub və ərazi bütövlüyü nə qəsdin və işğalın ağır nəticələrinin aradan qaldırılması zərurəti qeyd olunub. Dövlət başçıları arasında aşağıdakı sahələrə aid sənədlər imzalanıb:

- hökumətlərarası münasibətlərə aid;
- hər iki respublikanın ərazisində müvəqqəti işləyən vətəndaşların əmək fəaliyyəti və sosial müdafiəsinə dair sənədlər;
- baytarlıq-sanitariya konvensiyası;
- hava əlaqələrinə dair;
- informasiyalaşma və informasiya texnologiyaları sahəsində əməkdaşlığa dair;
- hər iki ölkənin televiziya şirkətləri arasında əməkdaşlığa aid sənədlər imzalandı.

Dövlət başçısı Kişinyovda aparılmış danışıqların yekunlarına dair birgə mətbuat konfransı keçirdilər. Prezidentlər jurnalistlər qarşısında bəyanatlarla çıxış ediblər. Moldova Prezidenti Vladimir Voroninin bəyanatında bildirib ki, "… bizim həll etməli olduğumuz çoxlu problemimiz var. Ərazi bütövlüyü məsələsini xüsusi qeyd etmək istəyirəm. Biz ərazi bütövlüyü məsələsində Azərbaycanın mövqeyini dəstəkləyirik və bu problemin həllinə təkan verə biləcək bütün tədbirlərdə iştirak etməyə hazırıq…". Prezident İlham Əliyev də qarşılıqlı olaraq öz bəyanatında qeyd edib ki, "… Biz Moldovanın ərazi bütövlüyünün bərpa edilməsi, Dnestryanı bölgə probleminin nizama salınması sahəsində fəaliyyətini tamamilə dəstəkləyirik…". 2008-ci il martın 14-də BMT Baş Məclisinin 62-ci sessiyasında Baş Məclisin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair mövqeyini ifadə edən qətnamə layihəsinin müzakirələri zamanı Moldova qətnamənin lehinə səs verib [11].

Moldova Prezidenti Vladimir Voronin 2008-ci il aprelin 23-də növbəti səfərlə Azərbaycanda olub. İki ölkə prezidentinin təkbətək və geniş tərkibli görüşlərində Azərbaycanla Moldova arasında əlaqələrin bütün sahələrdə inkişaf etdiyi vurğulanıb. Beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri də müzakirə edilib. Moldova Prezidenti hər zaman Azərbaycanın haqlı mövqeyini dəstəkləyəcəyini bəyan edib" [11].

Təkbətək görüşləri zamanı hər iki dövlətin başçıları Azərbaycan və Moldova arasında siyasi, iqtisadi və humanitar sahələrdə əməkdaşlığın yüksək səviyyəyə çatdığını qeyd etdilər, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı yardım və dəstəkləmə mövqeyi tutmağın və regional əməkdaşlığın zəruriliyini və digər məsələləri müzakirə obyektinə çevirdilər. Geniş tərkibli görüş zamanı Azərbaycan Prezidenti İlham Əliyev Moldova Prezidentinə müraciət edərək demişdir:

"Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk və ümid edirik ki bu səfərin nəticələri dostluq əlaqələrimizin daha da möhkəmlənməsinə xidmət edəcəkdir. Ölkələrimiz arasında tərəfdaşlıq münasibətləri yaranmışdır. Biz müxtəlif sahələrdə fəal əməkdaşlıq edirik və fəal siyasi dialoqu iqtisadi sahədə ciddi irəliləyişlərlə dolğunlaşdırmaq istəyirik. Bu gün biz Sizinlə qarşılıqlı əlaqələrimizin perspektivlərini necə təsəvvür etməyimizin ümumi konturlarını müzakirə etdik. Fikrimizcə, müvafiq nazirliklərin rəhbərləri bu məqamları indiki səfər çərçivəsində konkretləşdirəcəklər və biz artıq fəal qarşılıqlı iqtisadi əlaqələrin ciddi perspektivlərini müəyyən edəcəyik. Moldova Prezidenti Vladimir Voronin təşəkkür edərək dedi ki bizim fəaliyyətimiz 50-dən çox ikitərəfli saziş əsasında formalaşır və təşkil olunur. İndi bu sazişlərin bəhrəsini görmək qalır. Düşünürəm ki, bu səfərə mənimlə gəlmiş heyət bu nəticələrə nail olmaq, ticarət-iqtisadi əməkdaşlığın yaxşılaşdırılması, investisiya layihələrinin həyata keçirilməsi yollarını axtarıb tapmaq əzmindədir" [7, 1].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Moldova Prezidenti Vladimir Voroninin geniş tərkibdə görüşü başa çatdıqdan sonra dövlət başçıları mətbuat üçün bəyanatlarla çıxış etdilər. Mətbuat üçün bəyanatında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hər iki ölkə üçün dialoqun çox uğurla davam etdiyini, getdikcə əməkdaşlığı daha da möhkəmləndirmək, yeni-yeni sahələri və istiqamətləri əhatə etdiyini bildirdi: "Bizim ölkələr dost ölkələrdir, tərəfdaş ölkələrdir və biz geniş əhatəli məsələlər üzrə fəal qarşılıqlı əlaqə saxlayırıq. Siyasi dialoq çox fəaldır. Bu gün biz ikitərəfli münasibətlərə aid məsələləri, regional məsələləri müzakirə etdik İqtisadi əlaqələrin intensivləşdirilməsinin zəruri olması xüsusi vurğulandı. Bu istiqamətdə böyük potensial imkanlar var. Biz energetika sahəsində əməkdaşlıq məsələlərini və investisiya layihələrinin mümkünlüyünün müzakirə etdik.

Bütövlükdə bizim münasibətlərimizi tərəfdaşlıq münasibətləri, çox yaxın münasibətlər kimi səciyyələndirmək olar və bu, bizi çox sevindirir. Moldova Prezidentinin Azərbaycana səfəri əlaqələrimizin inkişafına yeni impuls, yeni təkan verir. Bizim çox güclü müqavilə-hüquqi bazamız var, qarşılıqlı iqtisadi əlaqələri fəallaşdırmaq, əmtəə dövriyyəsini artırmaq və birlikdə həyata keçirən biləcəyimiz konkret layihələri çox ətraflı şəkildə nəzərdən keçirmək arzumuz var. Bir çox məsələlərdə bizim mövqelərimiz üst-üstə düşür. Bu gün mən işğal edilmiş ərazilərdə vəziyyət barədə məsələ ilə əlaqədar BMT-nin Baş Məclisində Moldova Azərbaycanın mövqeyini dəstəklədiyinə görə Vladimir Nikolayeviçə xüsusi minnətdarlığımı bildirdim. Bildiyimiz kimi, Baş Məclis Azərbaycanı dəstəkləmiş və bizim təklif etdiyimiz qətnaməni qəbul etmişdir. Bizi fəal surətdə dəstəkləyən və öz prinsipial mövqeyini ifadə edən ölkələr arasında dost Moldova da var idi. Biz bunu çox yüksək qiymətləndirir və prinsipial mövqeyin, prinsipial xarici siyasət xəttinin təzahürü, eləcə də bizi birləşdirən yaxın dostluq əlaqələrinin ifadəsi hesab edirik" [7, 2].

Mətbuat üçün bəyanat verərək Moldova Prezidenti V.Voronin dedi ki, hər iki ölkə arasında münasibətlər həqiqətən dinamik şəkildə, yüksələn xətlə inkişaf edir: "Bizim ticarət-iqtisadi sahədə, investisiya siyasətində, ölkələrimizin mövcud resurslarının



birgə mənimsənilməsində qarşılıqlı əlaqələrimizi keyfiyyətcə yeni səviyyəyə çatdırmağa imkan verən çox sanballı ikitərəfli müqavilələr və sazişlər paketimiz var. Bu gün Azərbaycan prezidenti ilə bu barədə danışmışıq. Fikrimizcə, bu layihələrin həyata keçirilməsi ölkəmizin bir-birinə daha çox yaxınlaşmasına, dostluq tellərini, qərarlaşmış tarixi münasibətlərimizi daha da möhkəmləndirməyə imkan verəcəkdir" [7, 2].

Azərbaycan Respublikasının Milli Məclisinin sədri Oqtay Əsədovla görüşündə çıxış edən Moldovanın dövlət başçısı demokratik cəmiyyət və hüquqi dövlət quruculuğu yolu ilə keçən hər iki ölkə arasında bütün sahələrdə siyasi sahənin əlaqələri genişlənməsinə və daha dərinləşməsinə yüksək dəyərləndirdi. Dost ölkəyə səfər etdiyini vurğulayan ali qonaq parlamentlərin, qəbul edilən hüquqi sənədlərin cəmiyyətdə, ictimai-siyasi proseslərdə böyük rol oynadığını bildirdi: "iki ölkənin deputatlarının beynəlxalq qurumlardakı birgə fəaliyyətinin xüsusi əhəmiyyətindən danışdı. Moldova rəhbəri bildirdi ki, onun ölkəsi beynəlxalq tədbirlərdə Azərbaycanın haqlı mövqeyini bundan sonra da dəstəkləyəcəkdir" [7, 2].

1997-ci ildən bəri Azərbaycan-Moldova arasında 50-dən artıq müqavilə bağlanıb, beynəlxalq və regional qurumlarda – BMT, Avropa Şurası, ATƏT, Qara Dəniz İqtisadi Əməkdaşlıq Şurası, GUAM, "Şərq Tərəfdaşlığı, MDB çərçivəsində hər iki dövlət bir-birinə dəstək verir. Bundan başqa iki azad, demokratik ölkə arasında yüksək olmasa da, iqtisadi və mədəni əlaqələr də inkişaf edir. Bu əlaqələr SSRİ çərçivəsində məcburi xarakter daşıyırdı. Müstəqillik illərində 2007-ci il fevralın 22-də Moldovanın Baş Naziri Vasili Tarlevin Azərbaycana səfəri çərçivəsi, bu sahədə əlaqələrin inkişafına yeni təkan verdi.

Moldova Azərbaycana kənd təsərrüfatı texnikası və kənd təsərrüfatı məhsulları satmaq, Azərbaycandan isə təbii qaz, elektrik enerjisi idxal etmək istəyir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 22-də Moldova Respublikasının Baş naziri Vasile Tarlevin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Görüş zamanı Azərbaycan Prezidenti bildirdi ki, "Potensial mövcuddur, ikitərəfli iqtisadi əlaqələr üçün imkanlar və onları inkişaf etdirmək arzusu var. Biz müttəfiq tərəfdaş ölkələrik. Ona görə də fəal əməkdaşlığa ümid bəsləyirik" [5, 1].

23 fevral 2007-ci ildə Bakıda Azərbaycan-Moldova biznes-forumu keçirilib. Forumda hər iki ölkədən 40-dan çox iş adamı iştirak edib. Tədbirdə Azərbaycanın baş nazirinin birinci müavini və Moldovanın baş naziri də iştirak ediblər. Moldovanın baş naziri ölkəsində sərmayələr və ticarət, aqrosənaye, şirniyyat yüngül sənaye, neft və qeyri-neft sənayesi, turizm sahəsində əməkdaşlıq üçün əlverişli mühitin yaradıldığını forum iştirakçılarının diqqətinə çatdırıb [7, 2].

2008-ci ildə "Moldovanın Azərbaycanda Ticarət Evi" məhdud məsuliyyəti cəmiyyəti və qurumun nizamnaməsi qeydiyyatdan keçib [7, 2].

2009-cu il martın 12-də Moldova Respublikasının maliyyə naziri Marianna Durleştyanu Bakıda işgüzar səfərdə olub. Səfərin məqsədi Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar, maliyyə-iqtisadi siyasətlə tanışlıq və s. olub [10].

2006-cı il martın 10-da Azərbaycan Respublikasının Milli Məclisində tədqiqatın "Azərbaycan Respublikası Hökuməti və Moldova Hökuməti arasında gömrük haqqında saziş gömrük sahəsində əməkdaşlığın inkişafı, idxal-ixrac zamanı tutulası gömrük rüsumlarının və digər ödənişlərinin dəqiq müəyyənləşdirilməsində mühüm rol oynadı.

Bakıda keçirilən VII İnternet İdarəçilik forumunda Moldovanın rabitə və informasiya texnologiyaları naziri Pavel Filip iştirak etmiş Azərbaycan Respubli-kasının Məhkəmə Hüquq Şurasının sədri, ədliyyə naziri Fikrət Məmmədovla görüşmüşdür.

Azərbaycan və Moldova arasında dostluq və səmərəli əməkdaşlıq münasibətlərini vurğulayan nazir geniş müqavilə bazasına söykənən hüquqi əlaqələri qeyd etmiş, ölkəmizdə aparılan hərtərəfli hüquqi islahatlardan, müasir informasiya kommunikasiya texnologiyalarının (İKT) tətbiqindən, yeni innovativ və şəffaf xidmətlərin yaradılmasından danışmış, ədliyyənin inkişafı barədə məlumat verərək, bu sahədə xarici dövlətlərin, o cümlədən Moldovanın təcrübəsindən bəhrələndiyini söyləmişdir. Ölkəmizə ilk səfərindən böyük məmnunluğunu ifadə edən P.Filip səfər zamanı respublikamızın dinamik inkişafının şahidi olduğunu vurğulamış, Bakıda yüksək səviyyədə təşkil olunmuş Forumun əhəmiyyətini qeyd edərək, ölkəsində İKT-nin tətbiqi üzrə həyata keçirilən islahatlar, o cümlədən yeni konseptual strategiyalar barədə məlumat vermiş, Azərbaycanın bu sahədə müsbət təcrübəsinə maraq göstərmiş, təcrübə mübadiləsinin hər iki tərəf üçün səmərə verəcəyini bildirmişdir.

Görüşdə qarşılıqlı fəaliyyətin perspektivləri, habelə korrupsiyanın qarşısının alınmasında İKT-nin tətbiqi, müxtəlif reyestrlərin aparılması və digər məsələlər müzakirə olunmuşdur [13].

Bundan başqa 2009-cu ildə MBD Dövlət Başçıları Şurasının iclasında Hökumətlərarası komissiyalarda GUAM Dövlət başçılarının zirvə toplanmasında, ikitərəfli hökumətlərarası komissiyalarda, müxtəlif nazirlərin qarşılıqlı səfərləri zamanı siyasi, iqtisadi sahələrdə əməkdaşlıq məsələləri müzakirə olunub. Müqavilə hüquq bazasına gəldikdə qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası ilə Moldova Respublikası arasında 53 ikitərəfli sənəd imzalanmışdır.

2014-cü il sentyabrın 8-də Azərbaycan Respublikasının Baş naziri Artur Rəsizadə Bakıda səfərdə olan Moldova Baş Nazirinin müavini, xarici işlər və Avropa inteqrasiyası naziri xanım Nataliya German ilə görüşdə iki ölkə arasındakı iqtisadi-mədəni əlaqələrin inkişafına diqqət yetirilib. Nazirlər Kabinetində "Bütün beynəlxalq tədbirlərdə hər iki ölkənin eyni mövqedən çıxış edərək regional münaqişələrin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipləri əsasında həllinə dəstək verdiyi məmnunluqla xatırlanıb. Azərbaycan-Moldova iqtisadi əlaqələrinin inkişaf dinamikası qeyd edilməklə yüksək səviyyəli qarşılıqlı səfərlərin ikitərəfli faydalı əməkdaşlığın dərinləşməsinə xidmət etdiyi vurğulanıb" [9, 1].

Beləliklə, hər iki ölkə arasında sosial-iqtisadi sahəsi siyasətdə mədəniyyətə qədər bütün sahələri tənzimləyən hüquqi baza yaradılmışdır. Lakin Moldovada baş verən qeyri-stabillik münasibətlərə mənfi təsir göstərir. GUAM çərçivəsində münasibətlər sürətlə davam edir. Burada Moldova və Azərbaycanın maraqları üst-üstə düşür. "Artıq iqtisadi sahələrə,

hüquq-mühafizə orqanları və turizm agentlikləri xəttinə dair bir çox layihələr işlənib hazırlanmışdır. GUAM çərçivəsində azad ticarət zonalarının enerji əməkdaşlığının inteqrasiyası üçün yeni nəqliyyat dəhlizlərinin yaradılması insanlar və portativləri var" [10, 8].

Moldova enerji ehtiyatlarının daşınması üçün marşrutlardan kənarda qalsa da, Xəzərdən Avropaya gedən nəqliyyat dəhlizində iştirak etmək istəyir. Burada Dünya üzərində tikilən Qara Dənizə çıxışı olan curcul neft terminalından tankerlər və dəmiryolu vasitəsilə neft məhsulları daşınır. Azərbaycan "Şahdəniz-2" qaz ehtiyatlarının Avropaya, xüsusilə Rumıniyaya çatdırılmasında Moldovanın perspektiv imkanları mövcuddur, Moldova eyni zamanda "Nabukko" layihəsinə də ciddi əhəmiyyət verir. Azərbaycan-Moldova arasında humanitar mədəni sahələrdə də əlaqələr genişlənir. Moldovada Azərbaycan, Azərbaycanda isə Moldova mədəniyyəti günləri keçirilir. Kişinyovda dahi Azərbaycan mütəfəkkir şairi Nizami Gəncəvinin abidəsi qoyulub.

"Bəli, Azərbaycan və Moldovanı yaxınlaşdıran həm də hər iki ölkənin hərbi separatçılıqla üz-üzə qalmasıdır və ərazilərində bənzər münaqişələrin mövcudlu-ğudur. Bununla belə fərqli cəhətləri də qeyd etmək lazımdır. İlk növbədə onu demək olar ki, əgər Azərbaycana qarşı Ermənistanın ərazi iddiaları əsasında etno-ərazi münaqişəsi mövcuddur, Moldovada bu bir qədər fərqli, siyasi-ərazi münaqişə kimi səciyyələnə bilər. Azərbaycan bu gün də təcavüzkara qarşı silahlı münaqişədir və bir milyon qaçqın problemi ilə üz-üzədirsə, Moldovada bu münaqişə daha çox siyasi müstəvidədir. Bununla belə, ölkələrimiz hərə zaman bu məsələlərdə bir-birini dəstəkləyir, ərazi bütövlüyünə hörmət prinsipi əsasında çıxış edir. Bu səpkidə beynəlxalq təşkilatlar çərçivəsində dövlətlərimizin müvəffəqiyyətli qarşılıqlı fəaliyyəti, ümumi təhlükəsizlik məkanının yaradılması, iqtisadi və humanitar sahələrdə əməkdaşlığın genişləndirilməsi və münaqişələrin həll edilməsi üçün qarşılıqlı fəaliyyətin dərinləşməsi daim diqqət mərkəzindədir və əməkdaşlığımızın zəruri şərtlərindəndir. Bu qarşılıqlı dəstək beynəlxalq səviyyədə hər zaman nümayiş etdirilir. Bundan əlavə, beynəlxalq təşkilatlarda mühüm məsələlər üzrə səsvermələr öncəsi iki ölkənin nümayəndələri mütəmadi olaraq görüşür, sıx əməkdaşlıq edir və bir-birinə qarşılıqlı dəstək verirlər" [8, 4].

Beləliklə, müstəqillik illərində Azərbaycan-Moldova münasibətləri dövrün tələblərinə uyğun olan yüksək inkişaf səviyyəsinə çatmışdı.

## ƏDƏBİYYAT


1. *Azərbaycan-Moldova əlaqələrinin inkişafında yeni mərhələ. Azərbaycan Prezidenti İlham Əliyevin Moldavaya rəsmi səfəri // Azərbaycan, 24 aprel 2005-ci il, №92 (4011), s.1-3.*
2. *Azərbaycan-Moldova əlaqələri daha da inkişaf edəcəkdir // Respublika, 24 aprel, 2008, №086 (3121), s.1-2.*
3. *Azərbaycan-Moldova münasibətlərinin inkişafında mühüm mərhələ. Moldova Respublikasının prezidentinin Vladimir Voroninin Azərbaycana səfəri // Azərbaycan, 27 oktyabr 2004-cü il, №250 (3865), c.1-3.*
4. *Azərbaycan Prezidenti Heydər Əliyev Ukrayna, Gürcüstan və Moldova XİN-lərinin nümayəndələrini qəbul edir // Respublika 27 noyabr 1997, s. 2 (№141 (190).*
5. *Azərbaycan Prezidenti İlham Əliyev Moldovanın Baş naziri Vasile Tarlebi qəbul etmişdir // Respublika, 23 fevral, 2007, №40 (2880), s.1.*
6. *Azərbaycan Respublikasına rəsmi səfər münasibətilə Moldava Respublikasının Prezidenti Petru Luçinski. Bioqrafik məlumat // Respublika. 27 noyabr 1997-ci il, № 141 (190), s.2.*
7. *Azərbaycan və Moldova dost, tərəfdaş ölkələrdir. Moldova Prezidenti Vladimir Voroninin Azərbaycana rəsmi səfəri // 24 aprel 2005-ci il, №92 (4011), s.1-2.*
8. *"Görüləcək işlər çoxdur" Azərbaycanın Moldovadakı səfiri Namiq Əliyevin APA-ya müsahibəsi // "Xalq cəbhəsi" qəzeti, 2015-ci il, 4 dekabr, №30 (145) s.4.*
9. *Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, Azərbaycan, 2005, 752 s.*
10. *Мусабекова И. "Политический диалог между Баку и Кишиневом станет более интенсивным" // Зеркало. 2011, 10 сентября, №35 (401), с.8.*
11. *Azərbaycan-Moldova münasibətləri //http:www.aliev-heritage.org*
12. *Azərbaycan-Moldova münasibətləri qısa tarixi məlumat // http://www/ azembassy. md.*
13. *Bakıda VII İnternet İdarəçilik forumu işə başlanıb // http:www.data.center.az /9ndex. Php menyu. 138 id 498. dl28.*


**Key Words:** *Azerbaijan, Moldova, interstate and intergovernmental relations, friendship and cooperation, political, economic and cultural ties.*

**Ключевые слова:** *Азербайджан, Молдова, межгосударственные и межправительственные отношения, дружба и сотрудничество, политические, экономические, культурные связи.*

## РЕЗЮМЕ

В статье освещается история взаимоотношений между Азербайджаном и Молдовой в рамках Советского государства, акцентируется внимание на развитии политических, экономических и культурных связей между этими странами после обретения ими независимости. Подробно рассматривается взаимные официальные визиты глав государств, заключенные между странами договоры. Отмечается, что взаимная поддержка в международных и региональных структурах, общая борьба против сепаратизма и внешней угрозы являются мощным импульсом в развитии взаимовыгодных отношений.

## SUMMARY

The article highlights the history of relations between Azerbaijan and Mol-dova within the Soviet state, draws attention on the development of political, economic and cultural ties between the two countries after their independence. Considered in detail the mutual official visits of heads of these states, agreements concluded between the countries. It is noted that the mutual support in interna-tional and regional structures, common struggle against separatism and external threats are the powerful impetus in the development of mutually beneficial rela-tions.

# OSMANLI, PORTUQALİYA VƏ SƏFƏVİ MÜNASİBƏTLƏRİNDƏ HÖRMÜZ MƏSƏLƏSİ

ANAR ÖMƏROV
Bakı Dövlət Universiteti




XVI əsrin əvvəllərində meydana gəlmiş Səfəvilər imperiyası çətin vəziyyətlə üzləşmişdi. Hind okeanı və Anadolu üzrə strateji planlarını həyata keçirmək istəyən Şah I İsmayıl hər iki istiqamətdə döyüşlər aparmaq fikrində deyildi. Çünki həm Portuqaliya, həm də Osmanlı imperiyaları özlərinin ən qüdrətli dönəmlərini yaşayırdılar. D.Əzimlinin fikrincə, avropalıların Hindistana dəniz yolu açması Asiya- Avropa ticarətinə ciddi zərbə vurmadı. Ədviyyat Avropaya iki istiqamətdən daşınmağa başlandı. Beynəlxalq münasibətlərdə baş vermiş proseslər Aralıq dənizi limanlarında ticarətin inkişafına təkan verdi. Çünki Avropa dövlətləri iki cəbhəyə parçalandı. Kapitalizmin ilkin rüşeymlərinin yarandığı bəzi Avropa dövlətləri sənaye xammalına olan tələbatını ödəmək üçün Aralıq dənizi sahillərinə üz tutmuşdular. Osmanlı sultanlarının bu istiqamətdə həmin dövlətlərə verdiyi ticarət güzəştləri də həmin ticarətin inkişafında rol oynayırdı. Digər tərəfdən, Portuqaliya da Hindistandan daşıdığı ədviyyatın böyük bir qismini Aralıq dəniz sahillərinə göndərirdi(13, s.151). Portuqaliya kralları XVI əsr boyunca benyləxlaq ticarətə nəzarət uğrunda Hind okeanında, Asiya istiqamətində Osmanlı-Səfəvi qarşıdurmasını izləyirdi. Hörmüzün portuqallar tərəfindən işğal edilməsi və Səfəvilərin Moskva dövləti ərazisi vasitəsilə Avropa ilə ticarət əlaqələri saxlaması Osmanlı iqtisadi maraqlarına ağır zərbə idi. Hörmüzün portuqallar tərəfindən işğalı beynəlxalq ticarət sistemində ciddi dəyişikliklərlə müşayiət olunurdu. Strateji baxımdan çox mühüm əhəmiyyət daşıyan Hörmüzü ələ keçirib orada əsgərləri yerləşdirmiş Albukerki Qırmızı dəniz vasitəsilə ticarətə əsaslı zərbə vurmuşdu(13,s.139-140).

Məhz buna görə də Şah I Ismayıl Portuqaliyanın Hörmüzdə möhkəmlənməsinə mane ola bilmədi. Hörmüz portuqallar tərəfindən işğal edildi, portuqallar orada qala qurdular (10, 183-184;12,334). Lakin Şah I İsmayıl portuqalların Bəhreyn adalarında tamamilə möhkəmlənməsinə imkan vermədi. Hind okeanında Osmanlı imperiyası ilə toqquşan Portuqaliya Səfəvi dövləti ilə ziddiyyətlərinin dərinləşməsində maraqlı deyildi. Portuqaliya üçün qüdrətli Səfəvi imperiyasının mövcudluğu əslində sərfəli idi. Bunun əsas səbəbləri sırasında Osmanlı imperiyasına qarşı Portuqaliyanın güclü müttəfiqi ola bilməsi kimi güclü amil nəzərə alınmalıdır (1, 32; 12, 211). “Portuqaliya ilə əlaqələri nizama salmaq istəyən Şah I İsmayıl onun Hörmüzdə möhkəmlənməsi nəticəsində zəifləmiş İran körfəzi vasitəsilə ticarətini qaydaya salmağa çalışırdı. Çünki Səfəvi imperiyasının Hind okeanı hövzəsindəki ölkələrlə ticarət əlaqələrinin məhdudlaşdırılması Hörmüz-Təbriz-Şamaxı-Xəzər-Volqa ticarət yolu vasitəsilə Moskva dövləti, Avropa ölkələri ilə saxlanılan iqtisadi əlaqələrə ağır zərbə vurdu. Bu, Azərbaycanın xarici ticarət əlaqələrini xeyli zəiflətdi”(12,130;2).

Beləliklə, XVI əsrin əvvəllərində bir tərəfdən Osmanlı imperiyası, digər tərəfdən Portuqaliya işğalları Azərbaycan Səfəvi dövlətini tam iqtisadi mühasirəyə salaraq çox çətin vəziyyət yaratdı. Buna görə də şah I Ismayıl Çaldıran döyüşü ərəfəsində Osmanlı imperiyasına qarşı Portuqaliya ilə hərbi ittifaq bağlamağa və İran körfəzi vasitəsilə bu dövlətin odlu silahlarını, artilleriya mütəxəssislərini almağa da cəhd göstərdi (3, 149-150).

1514–cü ildə Albukerki ilə aparlmış danışıqlar nəticəsində

Hörmüzdə müttəfiqlik müqaviləsi imzalandı. Portuqaliyalıların İran körfəzinin digər məntəqələrində işğalları genişləndi. Bütün danışıqlara, hədiyyələrə, cəhdlərə baxmayaraq, bu müqavilənin ciddi bir nəticəsi olmadı. "Çünki vitse-kralın – Albukerkinin əsas məqsədi Səfəvilərə yardım etmək deyildi. Osmanlı imperiyası ilə toqquşmaq istəməyən Səfəvi Şahının portuqallara ərazi güzəştlərinə getməsinə yönəlmişdi. Albukerkinin səyləri bəhrəsini verdi. Şah I Ismayıl portuqallar tərəfindən göstəriləcək yardım müqabilində Hörmüzü müvəqqəti olaraq onlara güzəştə getdi. İran körfəzində portuqalların yüzillik hökmranlığı dövründə Hörmüz onların inzibati-siyasi, ticari və hərbi bazasına çevrildi" (12, 131-132).

Albukerkinin Şah İsmayılla əlaqə yaratmaq məqsədilə II dəfə, "Miquel Fereira" adlı keşişlə birlikdə Mir Əbu İshaqı onun sarayına yola saldı və nümayəndə heyəti 1513-cü ildə Təbrizə yola düşdü. Hələ Miquel Ferreira Səfəvi dövlətində olduğu günlərdə Şah I İsmayıl "Xacə Əlixan" adlı başqa bir nümayəndəni Portuqaliya kralına yazdığı dostluq məktubu ilə Albukerkinin yanına göndərdi və onunla müttəfiqlik və dostluq etmək istədiyini bildirdi. Ə.Ə.Vilayəti məktubun surətini "Məcəlləye-bərrəsihaye tarix – 9-cu cild, № 3, s. 154 olaraq Cahangir Qaemməqami. Məsəlleye – Hörmüz dər rəvabete – İran və Portuqan" adlı I cilddən əldə etdiyini yazmışdı (12,236-237). Aparılmış danışıqlar nəticəsində Albukerki və Şah İsmayıl arasında Hörmüz boğazı haqqında yeni müddəaları aşağıdakılardan ibarətdir:

-Portuqaliyanın dəniz qüvvələri Bəhreyn və Qətifə həmlə etməkdə Səfəvi dövlətinə kömək etsin;

-Portuqaliyalılar Şah İsmayıla Mikran və Belucistan qiyamlarını yatırmaqda kömək etsin;

-Səfəvi dövləti Hörmüzü istila etmək fikrindən daşınsın və turanşah Portuqaliya kralı Don Emmanuel tərəfindən keçmişdəki kimi Hörmüz əmirlərinə təyin olunsun; (12, 60).

Albukerki Frumao Qomesdellemos başda olmaqla növbəti nümayəndə heyətini 5 may 1515-ci ilin 5 may tarixində Şah I İsmayılın sarayına göndərdi və onlara belə göstəriş verdi: "Mənim adımdan Şah İsmayıla deyəcəksiniz ki, mən onun əzəmətli məqamı, şöhrəti xatirinə və saysız –hesabsız səylərinə görə bu elçilər heytəini onun görüşünə göndərirəm. Şah İsmayılın osmanlılarla müharibəyə aid təklifi haqqında Portuqaliya dövləti bir qədər gəmi, əsgər və artilleriya göndərməklə ona kömək edir və bizim məzhəb firqəmizdən olub sizin sarayınızda yaşayan məsihilər bizim vasitəçilərimiz olacaqlar. Portuqaliya yolu ilə onların vasitəsilə Rum (osmanlı-A.Ö.) sarayından da istifadə etmək mümkündür" (12, 258). Ə.Ə.Vilayəti qeyd edir ki, bu elçi heyəti ilə Albukerki tərəfindən Şah I Ismayıla yaqut, zümrüd, almaz, mirvari, qızıl və müxtəlif cəvahirlərdən ibarət çoxlu qiymətli hədiyyələrlə bərabər, xeyli miqdarda qızıl sikkə, qılınc, qızılla işlənmiş nizə, 3 at, 6 tüfəng, 2 top, 4 mancanaq, çoxlu başqa vəsait göndərildi (12, 239).

1534-cü ilin dekabrında osmanlılar Bağdadı tutdular. Sultan I Süleyman bir neçə ay Təbrizdə oldu və İbrahim paşa ilə birgə Ərəb İranının idarəçiliyi ilə məşğul oldu. İşğal edilmiş yeni torpaqlar əyalətlərə bölüşdürüldü. 1535-ci ildə sultan Bağdadı tərk etdi. Burada onun 32 minlik qoşunu qaldı. Osmanlıların Fars körfəzinə çıxması portuqaliyalılarla münaqşəyə səbəb oldu. Qucarat sultanı Portuqaliyanın buradan çıxarılması üçün sultan I Süleymanın müttəfiqi kimi çıxış etdi. Sultanın əmri ilə Süveyş sahilində 76 gəmidən ibarət olan donanma yarandı. Gəmilərində 7 min nəfər olan bu donanma 1538-ci ilin yayında Hindistan sahillərinə yola düşdü. Yolüstü qəfil hücumla Ədən tutuldu. Ədəndən sonra Portuqaliyanın Diu adası arasındakı hərbi bazasına 20 gün davam edən hücum başlandı. Lakin bütün hücumların qarşısı alındı. Donanma Süveyşə qayıtdı. Geriyə üzərkən ordu Yəmən şəhəri Makkanı və Yəmənin sahillərini işğal etdi. Portuqaliya ilə Osmanlılar arasında müharibə davam edirdi. 1552-ci ildə Osmanlı donanması (30 gəmidə 16 min nəfərlik dəniz piyadası vardı) Oman sahillərinə yaxınlaşdı və 2 həftəlik top atəşi nəticəsində maskat tutuldu.1554-cü ilin avqustunda dənizdə portuqallarla osmanlılar arasında baş vermiş növbəti döyüşdə osmanlılar qalib gəldilər. ( 8; 9)

1548-ci ildə Osmanlı -Səfəvi müharibəsi yenidən başlandı. Osmanlıların qoşunları Təbrizi işğal etdilər, bir neçə gündən sonra Van qalasını tutdular. 1553-cü ildə müharibə yeni müstəviyə keçdi. Osmanlılar Gürcüstana və qərbi Azərbaycana hücum etdilər. Bundan başqa, Kaşan və Qumu, İsfahanı işğal etdilər. Səfəvilər İraqı, Gürcüstanın qərbini və Azərbaycanın bəzi qərb torpaqlarını osmanlıların idarəsinə verməli oldular. 1551-ci ildə osmanlılar Liviyanın Tripoli şəhərini Malta sərkərdələrindən azad etdilər. Tezliklə bütün Tripolitaniya osmanlı imperiyasının tərkibinə daxil oldu. Osmanlılar Sudanın işğalına başladılar və 2 illik müharibə nəticəsində osmanlılar qalib gəldilər. Bundan sonra osmanlılar Afrikanın Qırmızı dəniz sahillərini işğal edib, 1558-ci ildə şimali Eritreyanı tutdular. Afrikanın şimalı uğrunda osmanlıların müharibəsində əsas rəqib İspaniyanın köməyi ilə döyüşən Malta sərkərdələri ordeni idi. Osmanlı sultanı I Süleyman (1520-1566) Belqradı, Rodosu, Macarıstanı, Mesopotamiyanı, Əlcəzairi işğal etməklə sərhədləri bütün istiqamətlərdə xeyli genişləndirmişdi. Portuqaliya Ədəni (1598) və Kamaran adasını (1526) tutmağa xüsusi əhəmiyyət verirdi. Bununla da osmanlılar əslində portuqallara Qırmızı dəniz sahillərini tam işğal etməyə maneçilik törədirdilər. Portuqallardan fərqli olaraq, osmanlılar işğal etdikləri ərazilərin yerli əhalisini dilini və dinlərini dəyişməyə məcbur etmişdilər. Osmanlılarla Portuqaliyanın ilk toqquşması 1517-ci ildə Misirin türklər tərəfindən tutulması zamanında baş vermişdi. Bundan sonra portuqalların Hörmüzdəki hakimiyyəti üçün ciddi təhlükələr yarandı. 1546-cı ildə osmanlıların Bəsrəni tutması ilə Hind okeanına həm Hörmüz-Fars körfəzi, həm də Qırmızı dəniz vasitəsilə yol açıldı. Həmin illərdə Avropanın hakim dairələri Hörmüzdə yarana biləcək narahatlığı yalnız Portuqaliya ilə əlaqələndirirdilər, yəni Sultan Süleymanın daha uzaq məsafəyə və məqsədə yönəlmiş məqsədini dərk edə bilmirdilər. Əslində onun yaxın planında Misirdən və Bəsrədən sonra Hörmüzü, oradan isə Qucəratı , qalan Hindistanı tutmaq olmuşdu. Bu işlərdən sonra Hind racələrinə aid olan milyonlarla insan və zəngin varidat osmanlılara çatmalı idi (8;9).



1538-ci ildə Bahadur şah Sultan I Süleymana yardım üçün müraciət etdiyi zaman o razılığını vermişdi. Sultan Suveyş kanalından Qırmızı dəniz vasitəsilə tərkibində 70 gəmi və 7 min əsgər, matros, yaxşı silahlanmış yeniçərilər olan hərbi eskadranı köməyə göndərdi. Donanmaya rəhbərlik "Xədim" ləqəbli Süleyman paşaya tapşırılmışdı. Ədən limanına çatdıqda bu insan əvvəlcə şəhərin şeyxini öz gəmisinin burnunda asdırdı, sona şəhəri yeniçərilərə talan etməyə verdi. Bununla da, səhər Osmanlı sancağına çevrildi. Beləliklə, Qırmızı dənizə giriş Osmanlı bürclərinin əlinə keçdi. Bahadur şah artıq sağ olmadığı üçün Xədim Süleyman paşa İstanbula onun Məkkədə gizlədilən varidatını sultana hədiyyə göndərdi. Bundan sonra o, Sultan Süleyman ona verdiyi əmri, yəni Portuqaliyanın gəmilərini tapıb, məhv etmək barədə olan fərmanını yerinə yetirmək əvəzinə o, Hind okeanını üzüb keçdilər və Hindistanın qərb sahillərinə çatdılar. Bu hərəkətin əsas səbəbini onun yanında gəmi kapitanı qismində çalışan macar Xuçi belə izah edir: "O, portuqallardan çox qorxurdu. Onlarla dənizlərdə döyüşməmək üçün, gizlənmək üçün yer axtarırdı" (11,456-478;6, 67-69).1538-ci ilin sentyabrın əvvllərində o, Diu sahillərinə 600 yeniçəri döyüşçüsünü düşürdü. Onlara bir neçə top da həvalə edildi. Onlar Diuda portuqalların tikdiyi qalanı mühasirəyə aldılar. Qalanın müdafiəsinə portuqallardan Antoniu da Silveyrə tapşırıldı. Qəfildən dənizdə fırtına başlayanda Süleyman paşa gəmilərini Maxuva limanına apardı və 20 gün orada yerləşdi. 28 sentyabrda yenidən Dirya qayıtdı və qalanın divarlarını xüsusilə də istehkamını top atəşinə tutdu(11, 234).




Qala bürclərinə rəhbərlik edən Fransisku Paseku təslim olmağa razılıq verdi. O, silahları təhvil verib qalanın içərisinə çəkilməyə icazə istədilər. Amma Osmanlı ordusu onların silahlarını alıb, şəxsən Süleyman paşanın gəmisində qrebesi-matros kimi işlətdi. Bundan sonra Süleyman paşa qalanın müdafiəçilərinin başçısı Antoniu da Silveyrə təslim olmağı təklif etdi. Razılıq olmadığından yenidən qalanın hücumu başlandı. Oktyabrın 4-də başlayan hücum fasiləsiz olaraq 20 gün davam etdi. 600 nəfərlik müdafiəçidən əlində silah tutmağı bacaran 250 nəfər qaldı. Düşməni aldatmaq üçün Süleyman paşa limandan gəmilərini geri çəkdi və 14 minlik silahlılarla yenidən hücuma keçdi. Bir neçə gündə qalanın divarları bir neçə yerdən uçulurdu və qala təslim oldu. Bu zaman Xədim Süleyman paşa Bahadur şahın varisi Qucarat hakimindən onun ordusunu ərzaqla təmin etməyi və özünün şəxsən onun hüzuruna gəlməyi tələb etdi. Amma o heç bir tələbi yerinə yetirmədi. Ədən şeyxinin faciəli taleyindən xəbəri olan Qucarat hakimi, portuqallardan daha çox Osmanlı türklərindən qorxurdu. Bu zaman türklər portuqalların Qoadan böyük hərbi qarnizonla Diuya gəldikləri barədə məlumat aldılar. Bu hadisənin şahidi macar Xuçi yazırdı: "İki aydan sonra portuqalların eskadrası şəhərə yaxınlaşdıqda, paşa qorxmağa başladı. Buna səbəb portuqalların sayının çoxluğu və daha güclü silahlanması olmuşdu. Hər iki tərəfdən toplar ataş açırdı. Paşa gəmilərə topları yerləşdirməyi və su ehtiyatı gətirməyi tələb etdi. Biz bu döyüşlərdə 50 hərbi gəmi və 4 iri qalerlərlə düz bir il 1538-ci ildən 1539-cu ilə qədər vuruşduq. Sonda döyüşdən imtina edib, qaçdıq"(11, 434-356;4,569-570).

6 noyabr 1538-ci ildə Qoadan Diu şəhərinə Qarsiya da Noronyanın rəhbərliyi ilə donanma gəlir və qalanın uçmuş divarlarını təmir etməyə başlayırlar. Hörmüz boğazında bundan sonra Sultan Süleymanın Hindistana hücumları olmasa da, portuqallarla münaqişəsi qaçılmaz idi. Belə ki, bura Portuqaliyanın əlində idi. Nəticədə, Hörmüz boğazına girişdən məhrum olan sultan Bağdadın və Bəsrə limanının itşğalından əl çəkməli idi. Bu isə öz növbəsində hərbi dəniz qüvvələrinin hərəkətinə, həmçinin ticarət əlaqələrinin güclənməsinə böyük maneçilik yaradırdı. Bu həm də Dəclə çayında yan keçmək demək idi. 1550-ci ildə Bəsrənin türk paşası Fars körfəzindəki El Katif və Bussor limanlarını zəbt etdikdən sonra portuqalların Hörmüzdən çıxarılmasına Osmanlı imperatorluğunda şərait yaratdı. Yalnız bundan sonra Osmanlılar Ərəbistan və Səfəvilərin dənizlərindəki kommunikasiyasına sahib çıxa bilərdi. Bu məqsədə çatmaq üçün sultan əvvəlcə El Katif qalasını möhkəmləndirməyə, orada ağır artilleriya toplarını yerləşdirməyə və limanı hərbi gəmilərlə qorumağa başlayır. Qeyd etmək lazımdır ki, El-Katif sonradan osmanlılara aid "El-Xasa" adlı əyalətin mərkəzi olmuşdu. Bu hazırlıqlardan Portuqaliyanın Hörmüzdəki müttəfiqi xəbər tutmuşdu. Buradakı hakim qüvvələr nisbətən müstəqilliklərini qorumuş, bəzi vergilərdən azad edilmiş, həmçinin yerlərdə öz məmurları idarəsini davam etdirirdilər. Bu vəziyyət həm də portuqalları qane edirdi. Belə ki, portuqallar səfəvi-osmanlı münasibətlərində şiyə-sünnü qarşıdurmasını həmişə gərgin saxlamaqla öz nailiyyətlərini də qoruyurdular. Bu isə katolik portuqallarla müsəlman şiyə səfəviləri ümumi məqsəddə – yəni osmanlı sünnülərinə qarşı birləşdirən əsas amillərindən birinə çevrilmişdi. Beləliklə, Osmanlı türklərinin Hörmüz haqqında planlarından xəbər tutan Səfəvi hakimi Qoaya karavella adlı sürətli gəmi ilə xəbər göndərərək portuqallardan yardım istəmişdi. Eynilə Qoaya Osmanlıların işğal etdiyi adaların şeyxləri türkləri qovmaq üçün kömək istəyirdilər. Vitse kral Alfonsu de Noronya (1551-1554) şura çağırıb, məktubları oxuyur və elçiləri dinləyir. Hörmüzə kömək üçün 7 qalxan, 12 hərbi qaler və 1200 silahlılardan ibarət eskadra Hörmüz boğazına göndərmək qərarı verilir. Əsgərlər və hərbi rəhbərlik xüsusi olaraq döyüşmək qabiliyyəti güclü olanlar içərisindən seçilir, onlara yüksək əmək haqqı, yaxşı işlək silahlar verilir. 1551-ci ilin aprelin 1-də Antoniu da Noronyanın başçılığı ilə eskadra Qaodan Hörmüzə yollarınır və aprel ayının axırında ora çatırlar. Hörmüzdə hərbi şurada yerli hakimlərə kömək üçün daha 3 min əsgər və gəmilər vermək məsələsi müsbət həllini tapır. Bu qoşun dəstələrinə Ras Şərəfə adlı insan rəhbərlik edirdi. Noronya hər ehtimala qarşı El-Katif limanını mühasirəyə alaraq, Bəsrədən gələ biləcək köməyin qarşısını almaq üçün 10 gəmini buranın sahil sularına yerləşdirmişdi. İyun ayının sonlarında portuqal-səfəvi gəmi donanması Hörmüz boğazından çıxaraq, El-Katifdəki mühasirədəki gəmilərin sıralarına qatıldılar. Qayıqlarla sahilə çıxan müttəfiqlərin əsgər qüvvələrinin bəzi hissələri Osmanlı türkləri ilə əlbəyaxa döyüşə başladılar. Osmanlılar məğlub olub, geriyə qalaya qayıtdılar. 9 gün davam edən döyüşlərdən sonra Osmanlı türkləri gizli yollarla qalanı tərk etmək məcburiyyətində qaldılar. Portuqaliyalı tarixçi-

Xronistin yazdıqlarına görə, Antoniy da Noronya qalanı Pas Şərəfənin ixtiyarına verdi. Amma Şərəfə buranın qorunmasının mühafizəsinin dəyərinin, onun özündən çox bahalı olmasını dedikdən sonra qalanı partlatmaq qərarına gəlirlər. Hazırlıq işləri zamanı barıt çəlləyinə təsadüfən düşən qığılcım böyük partlayışa səbəb olur və nəticədə 40 nəfər portuqaliyalı məhv olur. Bir neçə gündən sonra Osmanlı türkləri 80 nəfər ərəblə geri qayıtdıqda, yenidən məğlub olurlar. Bu hadisədən sonra Antonia da Noronya 18 gəmi ilə Hörmüz boğazından Fars körfəzinə daxil olur və Fərat çayının mənsəbinə doğru üzərək, oradan osmanlıları çıxarmaq məqsədilə hərəkət edirlər. Amma hərəkətin başlandığı ilk gecə fırtına qalxır və 9 gəmi sıradan çıxır. Qalan 9 gəmi hərəkəti davam etdirir. Portuqalların admiralı Osmanlı türklərindən canını qurtarıb qaçan Bəsrə sultanın məktub göndərir (11, 567-587).

1556-cı ildə portuqalların Bəsrəyə hücumu məğlubiyyətlə sona çatdı. Buna baxmayaraq, onların bir neçə gəmisi ilə şəxsən feytor (vali – A.Ö.) osmanlıların xahişi ilə 1557-ci ilə qədər orada qalmışdı. Yəni müharibə ticarət əlaqələrinin inkişafına mane olmadı. 1561-ci ildə Portuqaliyanın 20 gəmidən ibarət daha güclü eskadrası yenidən Bəsrəni tutmağa cəhd göstərdi və yenə də məğlub oldu. 1559-cu ildə 1200 əsgər, o cümlədən yeniçərlilərdən ibarət Osmanlı eskadrası Bəhreyn qalasını mühasirəyə aldı. Lakin bu döyüşdə osmanlılar məğlub oldular. (8;10;11).

Buna baxmayaraq, osmanlılar Hind okeanı sahillərində, Qırmızı dənizdə, körfəzlərdə, o cümlədən Hörmüz boğazında hakimiyyəti portuqalların əlindən çıxarmağı bacardılar. Artıq Qırmızı dənizə üzən müsəlman gəmiləri portuqallar tərəfindən tutulmurdu. Qırmızı dənizdən Osmanlı türklərinə aid gəmilər Hörmüzlə Hindistan arasında üzən portuqal gəmilərinə hücum edirdilər. 1561-ci ildən etibarən Hörmüzdən üzən gəmilər hərbi gəmilərlə müşayiət olunurdular. Görünür, bu səbəbdən Səfəvi hökmdarı Fras körfəzində, Hörmüz boğazında Osmanlı hökmdarları ilə siyasi danışıqlara başlamaq məcburiyyətində qaldı. 1580-ci ildə Portuqaliyanın taxt-tacına ispaniyalı Filipp sahib çıxdıqdan sonra bu münasibətlər daha da gücləndi. Hörmüz şəhəri 1560-cı ildən çiçəklənən ticarət şəhəri idi. Burada portuqallar hakimiyyətdə olmaqlarına baxmayaraq, bura dünyanın bütün dinlərinin və dinlərinə aid olan tacirlərinin rahatlıqla toplandığı məkana çevrildi. Portuqallar burada yerləşən insanları xristianlığa təlqin etməyi əsas işlərindən sayırdılar(11).

İrqindən və milliyyətindən asılı olmayaraq, xristian dinini qəbul edən zəngin insanları, hətta Portuqaliyanın paytaxtı Lissabonda kral xüsusi təmtəraqla qəbul edirdi. Tarixi kitablarında həmin illərdə Hörmüzün baş hind kahini xristianlığı qəbul etdikdən, adını dəyişib "Paulu de Santa" adını götürdükdən sonra paytaxtda onu "krallar" kimi qəbul etmişdilər. Portuqaliya zəiflədikdən sonra Hörmüz 1580-ci ildə İspaniyanın hakimiyyətinə tabe oldu(11, 345).

Bütün bunlara baxmayaraq, Hörmüz boğazının Səfəvilərə qaytarılması işi Səfəvi şahından asılı idi. Buna görə də Şah I Abbas hakimiyyətinin ilk illərindən bu mühüm staretiji məkan uğrunda mübarizəyə başladı və həmin mübarizədə qalib gəldi.

## ƏDƏBİYYAT


1. *Бодянский В.А. Бахрейн. К истории Персидского залива. М.: Наука, 1962, 161 с.,*

2. *Berchet C. La republica di Venezia e la Persia. – Torino: 1865, 289 s.*

3. *Bulut Mehmet. XVII yüzyılın Osmanlı bölgelerindeki faaliyetleri. Osmanlı, 12 cilt, 3 c. İktisat Editor: Güler Eren. Ankara: Yeni Türkiye yayınları 1999, s. 210-220.*

4. *Ekinçi İlhan. Kızıl dənizin güneyində rekabet – Şeyx Said Fersan adaları meselesi // Türk tarihi kurumu, cilt LXIX, La, 255. Aqustos, 2009, s. 567-569.*

5. *Sarıtaş Mehmet. Osmanlıdan Cümhuriyyete Ceçişin Sosyo-ekonomik dinamikleri // Türk Yurdu, Aralık, 1999-Ocaq, 2000, cilt 19-20// sayı, s. 148-149.*

6. *Özbaran Salih. Osmanlı imparatorluğu ve Hindistan yolu. On altıncı yüzyılda ticaret yolları üzerinde türk-Portegiz Rekabet ve ilişkileri// Tarih Dergisi, İstanbul Universiteti Edebiyyat Fakültesi, sayı, 31: Mart, 1977, İstanbul Edebiyyat Fakültesi Matbaası, 1978, s. 66-146.*

7. *İnalçık N. Capital formation on the Ottoman Empire // Journal of Economic history, XXIX, 1969, p. 109-110.*

8. *Hees Andrew C. The Ottoman conguest of Egypt of the sixtenth century (1517) World WAR // International journal of Middle east studies, Cambridge Universitety press, 1973, № 1, Vol, 4, January, 1973.*

9. *Османская империя и страны Центральной, Восточной и Юго-Восточной Европы в XV-XVI вв. (И.Б.Греков, С.Ф.Орешкова, Г.Г.Литаврин и др.). Отв. ред. И.Б.Греков. М.: Наука, 1984, 301 с.*

10. *Жуан Р.Л. Ъоле. Ривал Емпирес оф траде анд имами shiism in Eastern Arabia. 1300-1800 may // International Journal of Middle East, Cambridge Universitety press, 1987, № 2 vol, 19, p.177-203.*

11. *The Oxford history of İndia. From the Earliest times to the end of 1911 by Vincent A.Smith CİE Second edition revised and contunied to 1921: Oxford; At the Clarindon press, 814 p.*

12. *Vilayəti Ə.Ə. Şah İsmayıl Səfəvi dövründə İranın xarici əlaqələr tarixi. Bakı: Əlhuda, 1998, 421 s.*

13. *Əzimli D. Azərbaycanın Qərbi Avropa ölkələri ilə ticarət əlaqələri və Türkiyə (XV əsrin II yarısı – XVII əsrin I yarısı). Bakı:Turxan, 2014, 290 s.*



**Açar sözlər:** *Hind okeanı, Anadolu, Albukerki, Şah I İsmayıl, Sultan I Süleyman, dəniz döyüşləri.*

**Ключевые слова:** *Индийский океан, Анатолия, Албукерки, Шах Исмаил I, Султан Сулейман I , морские сражения.*

**Keywords:** *The Indian ocean, Anatoly, Albukerki, Shah Ismail I, Sultan I Suleyman, fights in the seas.*


## РЕЗЮМЕ


В статье рассматривается Ормузская проблема, возникшая во взаимоотношениях азербайджанского государства Сефевидов, Португалии и Османской империи за владение Ормузским проливом. Накануне португальского завоевания этот пролив находился в составе Сефевидского государства. Однако в период Великих Географических открытий стал яблоком раздора между государствами – соперниками и разгоралась ожесточенная борьба за Ормузский пролив. В это же время Османская империя вела борьбу за контроль над торговыми путями через Индию. Наконец этот пролив был захвачен Испанией.


## SUMMARY


In article the problem between the countries of the Azerbaijani state Sefevidov, Portugal and the Ottoman Empire for ownership of the Strait of Hormuz is considered. The specified passage in front of zavoyevaniy Portugal was in jurisdiction of the Sefevidsky state. However in time of Great Geographical discoveries among the first won territogriiya there was this passage. In the same time Osmasky Turkey conducted a broba for trade ways through India to Evrou. And therefore not only fight between these countries, but also long wars were conducted. At the end of the passage it was taken by Spain.

# Region

## TACİKİSTAN RESPUBLİKASININ DAĞLIQ BƏDƏXŞAN MUXTAR VİLAYƏTİ

ELMAN CƏFƏRLİ
Tarix üzrə fəlsəfə doktoru, dosent




Orta Asiyanın unitar dövlətlərindən Tacikistan Respublikasının tərkibində muxtar inzibati-ərazi vahidi Dağlıq Bədəxşan Muxtar Vilayəti (DBMV; tacik dilində "Viloyati Muhtori Kuhistoni Badahşan") mövcuddur. DBMV-nin yaranma tarixi maraq doğurur. Mənbələrin məlumatına görə, Pamir və Bədəxşan ərazilərində hələ daş dövründə insanlar yaşamış, tunc dövrünün sonlarında isə bölgədə əvvəlcə proto-hind qəbilələri, daha sonra isə qədim irandilli tayfalarla məskunlama prosesi getmişdir. Gəlmələrin dilləri və dini inancları hind-Avropa dil qrupuna daxil olmayan yerli substrat dillə qaynayıb qarışmış, nəticədə Bədəxşanda Şərqi İran dil qrupu meydana çıxmışdır. E.ə. VII-II əsrlərdə isə burada sak tayfaları və toharlar məskunlaşmışlar. Dağlıq Bədəxşan miladdan əvvəl Əhəmənilər imperiyasının, yunan Baktriya çarlığının, eramızın I əsrindən etibarən Kuşan çarlığının, Ağ hun imperatorluğunun, Qərbi Göytürk xaqanlığının, Ərəb xilafətinin, Tahirilər, Samanilər, Qəznəvilər feodal dövlətlərinin, habelə Buxara və Kokand xanlıqlarının tərkib hissəsi olmuşdur. 1895-ci il rus-ingilis razılaşması ilə Pənc çayının sol sahil ərazisi Əfqanıstana, sağ sahil əraziləri Rusiyanın vassalı olan Buxara xanlığına verildi [3, s. 256]. 1920-ci ilin iyununda Dağlıq Bədəxşan ərazisində sovet hakimiyyəti elan olundu və 1923-cü ilin iyulunda o, müstəqil vilayət hüququnda Türküstan MSSR-in tərkibinə daxil edildi. 1925-ci il yanvarın 2-də SSRİ MİK-in qərarı ilə Tacikistan MSSR-in tərkibində DBMV yaradıldı [13]. Qeyd edək ki, Tacikistan 1924-cü ildə Özbəkistan SSR-ə "Muxtar Sovet Sosialist Respublikası" kimi daxil edilmiş, 1929-cu ildə isə ayrılaraq "Sovet Sosialist Respublikası" elan edilmişdi [2, s. 246; 8, s. 79].

Yarandığı gündən Dağlıq Bədəxşan muxtar siyasi-inzibati vilayət statusunda olmuşdur. Doğrudur, 1992-ci il aprelin 11-də DBMV-nin Xalq deputatları məclisi birtərəfli qaydada muxtar vilayətin Bədəxşan Muxtar Respublikası elan edilməsi haqqında qərar qəbul edərək faktiki inzibati muxtariyyətdən siyasi muxtariyyətə keçilməsinə təşəbbüs göstərdi. Lakin Tacikistan Respublikasının Ali Məclisi həmin qərarı tanımaqdan imtina etdi.

1994-cü il noyabrın 6-da referendumla qəbul edilən Tacikistan Respublikasının 10 fəsil, 100 maddədən ibarət Konstitusiyasının [6] ilk maddəsi ölkəni unitar dövlət elan edir: "Tacikistan Respublikası – suveren, demokratik, hüquqi, dünyəvi və unitar dövlətdir. Tacikistan, sosial dövlət olaraq, hər bir insanın layiqli həyatını və sərbəst inkişafını təmin edən şərait yaradır. Tacikistan Respublikası və Tacikistan – eynihüquqlu anlayışlardır". "Tacikistan ərazisi bölünməzdir və toxunulmazdır. Tacikistan DBMV-dən, vilayətlərdən, şəhərlərdən, rayonlardan, qəsəbələrdən və kəndlərdən ibarətdir. Dövlət Tacikistanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü təmin edir. Dövlətin vahidliyinin pozulmasına yönəlmiş təbliğat və hərəkətlər qadağandır. İnzibati-ərazi vahidlərinin yaradılması və dəyişdirilməsi Konstitusiya qanunu ilə tənzimlənir" (maddə 7). Beləliklə, Konstitusiya Tacikistanı birmənalı şəkildə unitar dövlət elan edir və sərt konstitusion norma ilə bu unitarizmi möhkəmləndirir.

Konstitusiyada DBMV ilə bağlı müddəalar ayrı-ayrı hüquqi normaların tərkib hissəsi kimi əks olunmuşdur. Əsas Qanunun 48-ci maddəsində Tacikistan parlamenti olan Ali Məclisin ("Məclisi Oli") iki palatadan – Milli məclis və Nümayəndələr məclisindən ("Məclisi namoyandaqon") ibarət olduğu bildirilir. Daimi və peşəkar əsaslarla fəaliyyət göstərən Nümayəndələr məclisinə yaşı 25-ə çatmış, ali təhsili olan hər bir ölkə vətəndaşı seçilə bilər. Milli məclis üzvlərinin isə dörddə üçü paritet əsaslarla DBMV-nin və onun şəhər və rayonlarının, digər vilayətlərin və onların şəhər və rayonlarının, Düşənbə şəhərinin və onun rayonlarının, respublika tabeli şəhərlərin və rayonların xalq deputatları sovetlərinin birgə iclaslarında seçilir. Milli məclis üzvlərinin qalan dörddə bir hissəsi isə Tacikistan Prezidenti tərəfindən təyin edilir. Səlahiyyət müddəti 5 il olan Milli məclis çağırış əsasında fəaliyyət göstərir, ölkənin yaşı 35-ə çatmış, ali təhsilli hər bir vətəndaşı Milli məclisə üzv seçilə və ya təyin edilə bilər. Hər bir keçmiş prezident, özü bu hüquqdan imtina etmədikdə, Milli məclisin ömürlük üzvü olur (maddə 49). Qeyd edək ki, Tacikistan Ali Məclisinə seçilən nümayəndələr palatalar üzrə fərqli adlandırılır: Nümayəndələr məclisinin deputatı və Milli məclisin üzvü.

Milli məclis sədrinin müavinlərindən biri DBMV-nin təmsilçisi olmalıdır (maddə 53). Qanunvericilik təşəbbüsü hüququ Milli məclis üzvünə, Nümayəndələr məclisinin deputatına, Tacikistan

Prezidentinə, Tacikistan Hökumətinə və DBMV-nin Xalq deputatları məclisinə məxsusdur (maddə 58; həmçinin maddə 82). DBMV, Xoroq şəhəri və vilayətin rayonlarının sədrlərinin, Ədliyyə şurasının təqdimatı ilə DBMV hərbi məhkəməsinin, məhkəməsinin və iqtisad məhkəməsinin hakimlərinin vəzifəyə təyin və vəzifədən azad olunması Tacikistan Prezidentinin səlahiyyətləri sırasına daxil edilmişdir (maddə 69-5, 69-13). 78-ci maddədə göstərilir ki, "DBMV-nin, vilayətlərin, Düşənbə şəhərinin, şəhərlərin və rayonların sədrlərini vəzifəyə təyin və vəzifədən azad edən Prezident onları müvafiq xalq deputatları məclislərinin təsdiqinə verir". DBMV Xalq deputatları məclisi Konstitusiya və qanunları sistematik olaraq yerinə yetirmədikdə Milli məclis onu buraxmaq hüququna malikdir (maddə 80).

DBMV-nin Məhkəməsi və İqtisad məhkəməsi ölkənin ümumi məhkəmə quruluşuna daxildir (maddə 84). Muxtar vilayətin Məhkəməsinin hakimi vəzifəsinə yaşı 30-dan aşağı, 65-dən yuxarı olmayan, 5 illik hakimlik təcrübəsinə malik hüquqşünaslar seçilir və təyin edilir, İqtisad məhkəməsinin hakimliyinə isə yaşı 25-dan aşağı, 65-dən yuxarı olmayan, 3 illik hakimlik fəaliyyəti təcrübəsinə malik hüquqşünaslar təyin edilir. Hər iki məhkəmə orqanının hakimləri Ədliyyə şurasının təqdimatı ilə ölkə Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir. 7 nəfər üzvdən ibarət Konstitusiya məhkəməsinin üzvlərindən biri DBMV-nin təmsilçisidir (maddə 89).

Konstitusiyanın 7-ci fəsli (maddə 81-83) bilavasitə DBMV-nin səlahiyyətlərinə həsr edilmişdir. Əsas Qanuna görə, DBMV Tacikistan Respublikasının ayrılmaz tərkib hissəsidir. DBMV Xalq deputatları məclisinin razılığı olmadan muxtar vilayətin ərazi hüdudlarını dəyişmək qadağandır. DBMV-nin sosial, iqtisadi, mədəni sahələrdəki və digər səlahiyyətləri konstitusiya qanunu ilə müəyyən edilir.

Tacikistan Konstitusiyasının qəbul edilməsindən bir il sonra, 1995-ci il noyabrın 4-də Prezident İ.Rahmon tərəfindən "Dağlıq Bədəxşan Muxtar Vilayəti haqqında" Konstitusiya Qanunu [12] imzalandı və qüvvəyə mindi. 6 fəsil, 30 maddədədən ibarət olan Qanunun preambula hissəsində qeyd edilirdi ki, "DBMV-nin statusunun tarixən təşəkkül tapdığını, Dağlıq Bədəxşanın xüsusi coğrafi şəraitə malik olduğunu, vilayət əhalisini təşkil edən xalqların unikal mədəniyyətə və dillərə sahib olduğunu, DBMV-nin Tacikistan Respublikasının ayrılmaz tərkib hissəsi olduğunu, onun öz sosial-iqtisadi və mədəni problemlərini Tacikistan Respublikasının Konstitusiyasına uyğun olaraq həll etdiyini nəzərə alaraq Tacikistan Respublikasının Ali Məclisi "Dağlıq Bədəxşan Muxtar Vilayəti haqqında" Tacikistan Respublikasının Konstitusiya Qanununu qəbul edir".

Konstitusiya Qanunu "Ümumi müddəalar", "DBMV-nin nümayəndəli və icra hakimiyyəti", "DBMV-nin iqtisadi fəaliyyətinin əsasları", DBMV-nin maliyyə fəaliyyətinin əsasları", "DBMV-nin sosial-mədəni fəaliyyətinin əsasları" və "DBMV-də məhkəmə hakimiyyəti" adlı fəsillərdən ibarət olub, ölkənin unitar quruluşunu möhkəmləndirirdi. Qanunda hakimiyyətlərin bölünməsi prinsipi əks olunsa da, əslində daha çox maliyyə-iqtisadi və sosial-mədəni sahələrdə məhdud səlahiyyətlərə malik olan DBMV konstitusion səviyyədə siyasi deyil, inzibati muxtariyyət hüquqları almış olurdu.

Bununla belə, on iki il sonra 4 noyabr 1995-ci il Konstitusiya Qanununun ləğvi və yeni qanunun qəbul edilməsi ilə muxtar vilayətin hüquq və səlahiyyətləri daha da məhdudlaşdırıldı. "Dağlıq Bədəxşan Muxtar Vilayəti haqqında" Tacikistanın yeni Konstitusiya Qanunu [10] parlamentin Nümayəndələr məclisinin 6 iyun 2007-ci il tarixli qərarı (№ 605) ilə qəbul edildi [4] və iyulun 19-da Tacikistan Respublikası Ali Məclisinin Milli məclisinin qərarı (№ 373) ilə təsdiq edildikdən [5] sonra 2007-ci il iyulun 30-da Tacikistan Prezidenti tərəfindən imzalanaraq qüvvəyə mindi.

Yeni Qanun cəmi 5 fəsil, 20 maddədən ibarət olub preambula hissəsi daha lakonik idi: "DBMV Tacikistan Respublikasının ayrılmaz tərkib hissəsi olub, xüsusi coğrafi şəraitə, unikal mədəni, mənəvi və dil sərvətlərinə malikdir. Bu Konstitusiya Qanunu Tacikistan Respublikasının Konstitusiyasına uyğun olaraq DBMV-nin sosial, iqtisadi, mədəni sahələrdə və digər səlahiyyətlərini tənzimləyir". Yəni vilayətə muxtariyyət "tarixən təşəkkül tapması"na görə yox, yalnız xüsusi coğrafi və mədəni xüsusiyyətlərinə görə verilir. Başqa sözlə, Dağlıq Bədəxşanın hüquqi statusu daha da məhdudlaşdırılır.

Qanunun ilk maddəsində qeyd edilir ki, "DBMV Tacikistan Respublikasının ayrılmaz tərkib hissəsidir. DBMV-nin hüquqi vəziyyəti Tacikistan Respublikasının Konstitusiyası, bu Konstitusiya Qanunu və Tacikistan Respublikasının digər qanunları ilə müəyyən edilir". DBMV inzibati mərkəz olan Xoroq şəhərindən, rayonlardan, qəsəbələrdən və dexotlardan ibarətdir. DBMV Xalq deputatları məclisinin razılığı olmadan vilayət ərazisinin sərhədlərini dəyişmək qadağandır (maddə 2). Tacikistan Respublikası Ali Məclisinin Milli məclisində DBMV, əhalisinin sayından asılı olmayaraq, digər vilayətlərlə, Düşənbə şəhəri ilə, respublika tabeli şəhərlər və rayonlarla eyni sayda təmsilçilik hüququna malikdir; Milli məclisin sədr müavinlərindən biri DBMV-nin nümayəndəsidir; ölkənin Konstitusiya məhkəməsinin hakimlərindən biri DBMV-nin təmsilçisidir. DBMV-nin Xalq deputatları məclisi qanunvericilik təşəbbüsü hüququna malikdir (maddə 3-4).

5-ci maddəyə görə, DBMV-də yerli dövlət hakimiyyəti orqanlarının fəaliyyəti, qəsəbələrin və dexotların (camaatlıqların) özünüidarə orqanlarının fəaliyyəti və məhkəmələrin fəaliyyəti Tacikistanın müvafiq olaraq "Yerli dövlət hakimiyyəti orqanları haqqında", "Qəsəbə və kəndlərin özünüidarə orqanları haqqında", "Tacikistan Respublikasının məhkəmələri haqqında" konstitusiya qanunları ilə tənzimlənir.

Əvvəlki Konstitusiya Qanununda əks olunmuş tacik dilinin dövlət dili, rus dilinin isə millətlərarası ünsiyyət dili olması, həmçinin muxtar vilayətin ərazisində dövlətin qırğız, şuqnan, ruşan, vaxan və yazqulam dillərinin məktəblərdə və kütləvi informasiya vasitələrində sərbəst istifadə edilməsinə və inkişafına şərait yaratması barədə müddəa yeni konstitusion aktda yoxdur.

"DBMV-nin fəaliyyətinin iqtisadi əsasları" adlanan ikinci fəsildə göstərilir ki, muxtar vilayətin mülkiyyətinə, əgər Tacikistan qanunları və normativ-hüquqi aktlarında başqa qayda nəzərdə tutulmayıbsa, vilayətin iqtisadi və sosial inkişafı üçün zəruri olan hakimiyyət və idarəçilik orqanlarının əmlakı, əhalinin mədəni-tarixi sərvətləri, vilayətin büdcə vəsaitləri, mənzil fondu və mənzil-kommunal təsərrüfatı, kənd təsərrüfatı, ticarət, məişət xidməti, nəqliyyat müəssisələrinin, sənaye və tikinti komplekslərinin digər müəssisələrinin, səhiyyə, təhsil, mədəniyyət müəssisələrinin əmlakı daxildir. Eyni qayda muxtar vilayətin inzibati-ərazi vahidlərinə də şamil olunur. DBMV-nin Xalq deputatları məclisi, vilayətin, Xoroq şəhərinin və rayonların sədrləri öz səlahiyyətləri daxilində ölkə qanunvericiliyinə uyğun şəkildə müvafiq olaraq muxtar vilayətin, Xoroq şəhərinin və rayonların mülkiyyətinə daxil olan kommunal obyektlərin idarəçiliyini həyata keçirir. Belə obyektlər müvafiq ərazinin əhalisinin iqtisadi və sosial inkişafı üçün səmərəli xidmət



məqsədi ilə istifadə olunur. Kommunal mülkiyyətin özəlləşdirilməsi qaydası ölkənin normativ-hüquqi aktları ilə, mülkiyyətin respublika mülkiyyətinə və ya əksinə keçirilməsi qaydaları Tacikistan Hökuməti tərəfindən müəyyənləşdirilir. Muxtar vilayətin, Xoroq şəhərinin və rayonların kommunal mülkiyyəti başqa mülkiyyətə dövlət hakimiyyətinin müvafiq yerli təmsilçilik orqanının qərarına əsasən keçirilir.

Tacikistan Respublikasının normativ-hüquqi aktlarına uyğun olaraq dövlət hakimiyyətinin yerli orqanları müvafiq inzibati-ərazi vahidində yerləşən müəssisə, idarə, təşkilat və onların birliklərinin xarici iqtisadi fəaliyyətinin genişləndirilməsinə, ixrac gücünün inkişafına, rəqabət qabiliyyətli məhsulun, işlərin və xidmətlərin istehsalına və yerinə yetirilməsinə səbəb olan xarici iqtisadi fəaliyyət göstərir (maddə 9). Bu məqsədlə birgə müəssisələr təsis edilir, xarici investisiyaların cəlb olunması üçün şərait yaradılır, ölkə qanunvericiliyinə uyğun olaraq sərhədyanı ticarət təşkil olunur və s.

DBMV-nin Xalq deputatları məclisi, vilayətin, Xoroq şəhərinin və rayonların sədrləri, ölkənin normativ-hüquqi aktlarına uyğun olaraq, respublikanın mülkiyyətində olan istehsal və sosial obyektlərin məqsədəmüvafiq paylanması, müvafiq infrastrukturun yaradılması, təbiət və əmək resurslarının, ətraf mühitin və digər sahələrin səmərəli istifadəsi üzərində nəzarət həyata keçirir.

Əvvəllər muxtar vilayətə tanınmış iqtisadi fəaliyyət səlahiyyətlərinin bu Qanunda ciddi məhdudlaşdırılması müşahidə olunur. Bu, ilk növbədə özünü 2007-ci ildən vilayətin bütün sosial-iqtisadi fəaliyyəti yalnız respublika qanunvericiliyinə tabe edilməsində göstərir (əvvəllər muxtar ölkə qanunvericiliyi ilə yanaşı, Konstitusiya Qanununa da istinad edilirdi – E.C.). Bundan başqa, qanundan "DBMV-nin iqtisadiyyatının əsasını mülkiyyətin müxtəlif formaları təşkil edir. Dövlət mülkiyyətin bütün növlərinin, o cümlədən şəxsi mülkiyyətin bərabərhüquqluluğuna və hüquqi müdafiəsinə təminat verir" müddəası çıxarılmışdır. Həmçinin Xalq deputatları məclisinin dövlət mülkiyyətinin bölünməsi nəticəsində və ya ölkə qanunvericiliyindən irəli gələn obyektlər, büdcə vəsaitləri, büdcədənkənar və məqsədli fondların vəsaitləri, muxtar vilayətin öz imkanlarına hesabına yaradılan müəssisələr üzərində mülkiyyətçi səlahiyyətləri, habelə iqtisadi inkişafın prioritetlərinin müəyyənləşdirilməsi, təbii ehtiyatların hasilatı və istifadə edilməsi üzərində nəzarət funksiyası ləğv edilmişdir və s.

Konstitusiya Qanununun 3-cü fəsli muxtar vilayətin fəaliyyətinin maliyyə əsaslarını müəyyən edir. Vilayətin maliyyə mənbələrinə yerli büdcə vəsaitləri, dövlət məqsədli fondları, ölkə büdcəsindən ayrılan dotasiya, yuxarı orqanın büdcəsindən verilən subvensiya və büdcə krediti, qiymətli və uduşlu kağızlar və yerli auksionlar, kütləvi, idman və mədəniyyət tədbirlərindən əldə olunan gəlirlər, xarici sərmayə və ölkə qanunvericiliyi ilə qadağan olunmayan digər mənbələr daxildir. Muxtar vilayətin, onun mərkəzi şəhərinin və rayonlarının maliyyə mənbələri müqavilə əsasında birgə proqramların, o cümlədən regionlararası inkişaf proqramlarının maliyyələşdirilməsi məqsədi ilə digər vilayət, şəhər və rayonların, fiziki və hüquqi şəxslərin maliyyə mənbələri ilə birləşdirilə bilər.

DBMV-nin, Xoroq şəhərinin və rayonlarının büdcəsinin gəlir hissəsi mənbələr və ayrılan vəsaitlər, vergi və qeyri-vergi gəlirləri, həmçinin tənzimlənən vergilərdən və yığımlardan daxil olan gəlirlər təşkil edir. Vergilərdən daxilolmalara ölkənin normativ-hüquqi aktları ilə müəyyən edilən yerli vergilər, ölkənin növbəti maliyyə ili üçün dövlət büdcəsi haqqında qanunla tənzimlənən vergi və yığımlar, respublika büdcəsinə daxil edilməyən dövlət rüsumları, büdcəyə digər məcburi ödənişlərdən daxil olan gəlirlər, ölkə qanunvericiliyi ilə qadağan olunmayan digər mənbələr aiddir. Qeyri-vergi gəlirlərinə isə respublika büdcəsindən dotasiya, subvensiya, büdcə krediti və ya başqa formada ayrılan vəsait, yerli dövlət hakimiyyəti və büdcədən maliyyələşən idarəetmə orqanlarının ödənişli xidmətlərindən daxilolmalar, cərimələr, öhdəliklərin vaxtında yerinə yetirilməməsinə görə ödənişlər, dəbbə pulu, kompensasiyalar və digər formalar da daxil olmaqla dövlətin maliyyə işlərinə dair ölkə qanunvericiliyini pozmuş şəxslərə qarşı məcburi ölçü tədbirlərindən daxilolmalar, fiziki və hüquqi şəxslərin xeyriyyə ödəmələri, yerli auksionlarda qiymətli və uduşlu kağızlardan əldə edilən gəlirlər, şəhərin və rayonun kommunal mülkiyyəti olan və ya onların təsərrüfat idarəçiliyində olan əmlakdan daxilolmalar təşkil edir.

Şəhər və rayonların xalq deputatları məclisi ölkə qaunvericiliyi ilə müvafiq yerli büdcəyə daxil olan vergi, rüsum və yerli ödəniş verənlərin ayrı-ayrı kateqoriyalarına güzəştlər müəyyən etmək hüququna malikdir.

Qanun yerli büdcədən istifadə çərçivəsini də aydın şəkildə

müəyyənləşdirir: yerli dövlət hakimiyyəti orqanlarının fəaliyyətinin təminatı; müvafiq inzibati-ərazi vahidinin kommunal və ya onun idarəçiliyində olan mülkiyyətinin formalaşdırılması; yerli dövlət hakimiyyəti orqanlarının kommunal mülkiyyətində və ya onun sərəncamında olan təhsil, səhiyyə, mədəniyyət, idman və bədən tərbiyəsi, KİV və nəşrlər, həmçinin digər müəssisələrin yaradılması, fəaliyyətinin təmin edilməsi və inkişafı; mənzil-kommunal təsərrüfatının inkişafı; tikinti və yerli əhəmiyyətli yolların saxlanılması; abadlıq və yaşıllaşdırma; məişət tullantılarının istifadəsi və yenidən emalı; əhalinin və yerli dövlət hakimiyyəti orqanlarının kommunal mülkiyyətində və ya onun sərəncamında olan müəssisələrin nəqliyyat xidməti ilə təminatı; yerlərdə ətraf mühitin mühafizəsi; yerli dövlət hakimiyyəti orqanlarının məqsədli proqramlarının həyata keçirilməsi; yerli dövlət hakimiyyəti orqanlarının kredit xidmətləri və onların ödənişləri; əhaliyə əvəzsiz maliyyə yardımı və yerli dövlət hakimiyyəti orqanlarına seçkilərin keçirilməsi. Digər maliyyələşdirmə məsələləri ölkə büdcəsinin təsnifat sisteminə uyğun aparıla bilər.

DBMV-nin, Xoroq şəhərinin və rayonların sədrləri sessiyalar arasında təsdiq olunmuş büdcənin 10 faizindən artıq olmayan sərbəst maliyyə resursları üzərində sərəncam verə bilər. Bu zaman o, öz qərarını Xalq deputatları məclisinin sessiyasının təsdiqinə verməlidir. Sərbəst maliyyə resursları 10 faizdən artıq olduqda, sədr yerli büdcəyə dəyişiklik və əlavələri məclisin müzakirəsinə çıxarır. DBMV-nin, Xoroq şəhərinin və rayonların birgə xərcləri növbəti maliyyə ili üçün Dövlət büdcəsi haqqında və ölkənin digər qanunları ilə həyata keçirilir.

DBMV-nin, Xoroq şəhərinin və rayonların məclisləri təsdiq olunmuş büdcə çərçivəsində müvafiq yerli büdcənin ümumi gəlirlərinin 0,5 faizindən çox olmayan həcmdə müvafiq məclisin sədrinin ehtiyat fondunu yarada bilər. Həmin fond büdcənin xərclər hissəsinə daxil edilir. Sədr Tacikistan Hökumətinin müəyyən etdiyi qaydada ehtiyat fondu üzərində sərəncam verir və fondun ehtiyatların xərclənməsi ilə bağlı müvafiq xalq deputatları məclisi qarşısında hesabat verir.

Büdcə layihəsini müvafiq xalq deputatları məclisinin sədri işləyib hazırlayır və ölkənin normativ-hüquqi aktlarına uyğun qaydada məclisə təqdim edir. Məclis büdcəni qərar formasında qəbul edir. Büdcə profisitlə işlənib hazırlana və təsdiq edilə bilər. Yerli dövlət hakimiyyəti orqanlarının maliyyələşdirilməsi yerli və respublika büdcəsi ilə müəyyən olunan həcmdə həyata keçirilir. Yerli nümayəndəli orqanların saxlanılma xərcləri müvafiq xalq deputatları məclisi tərəfindən müəyyən edilir. DBMV-nin, Xoroq şəhərinin və rayonların xalq deputatları məclisləri və onların sədrləri büdcənin icrası zamanı öz səlahiyyətləri daxilində balanslaşdırmanın təmin edilməsinə cavabdehdirlər. Müvafiq xalq deputatları məclisi büdcənin icrasını təsdiq edir.

Muxtar vilayətin maliyyə fəaliyyətinin əsasları ilə bağlı məsələdə də əvvəlki qanunla hazırda qüvvədə olan konstitusiya qanunu arasında fərqlər vardır. Belə ki, büdcə ilə bağlı daxilolmalar və xərclərin əhatə dairəsi bir qədər genişləndirilsə də, maliyyə vəsaitlərinin ölkə qanunvericiliyinə uyğun idarə edilməsi yeni qanunda daha sərt şəkildə təsbit edilmişdir. Bundan başqa, DBMV-nin, Xoroq şəhərinin və rayonların sədrlərinin sərəncam vermək hüququna malik olduqları büdcə vəsaitinin dəqiq həcmi müəyyənləşdirilmişdir. Əvvəlki qanunda mövcud olmuş DBMV Xalq deputatları məclisinin muxtar vilayətin valyuta fondunu yaratmaq səlahiyyəti yeni qanunda yoxdur.

Qanunun son fəsli muxtar vilayətin sosial və mədəni fəaliyyətinin əsaslarına dair hüquqi müddəaları ehtiva edir. DBMV-nin yerli dövlət hakimiyyəti orqanları təhsilə dair dövlət siyasətini həyata keçirir, milli, sosial, mədəni, demoqrafik və digər xüsusiyyətləri nəzərə almaqla, təhsil sahəsində regional inkişaf proqramları hazırlayır və reallaşdırır, dövlət təhsil sisteminin inkişafını təmin edir, vilayətin ərazisində yerləşən məktəbəqədər, ümumtəhsil, ibtidai, orta, peşə və ali təhsil, elmi-tədqiqat müəssisələrinin işinə nəzarət edir, elmin inkişafına kömək edir.

DBMV-nin yerli dövlət hakimiyyəti orqanları mədəniyyət sahəsində dövlət siyasətini həyata keçirir, ölkə qanunvericiliyinə uyğun olaraq, vətəndaşların mədəni və dini sahədə hüquq və azadlıqlarını qoruyur, vilayətin ərazisində əhalinin mədəni, mənəvi sərvətlərini, tarixi ənənələrini nəzərə almaqla dövlət proqramları hazırlayıb həyata keçirir, vilayət ərazisində və ondan kənarda mədəniyyət mərkəzləri, xalq tətbiqi sənətinin öyrənilməsi üçün tədris mərkəzləri yaradır, vilayətin şəhər və kəndlərində vətəndaşların ictimai birliklərdə və mədəni həyatda sərbəst şəkildə iştirakı, bədii yaradıcılığın, elm və texnikanın inkişafı üçün şərait yaradır, ətraf mühitlə, tarix və mədəniyyət abidələrindən istifadə ilə bağlı məsələləri həll edir, mədəniyyət müəssisələri şəbəkəsini, televiziya və radionu inkişaf etdirir.

Yerli dövlət hakimiyyəti orqanları əhalinin sağlamlığının qorunması sahəsində vahid dövlət siyasətini həyata keçirir, bu sahədə qanunlara riayət olunmasına nəzarət edir, vətəndaşların sağlamlığının qorunması ilə bağlı hüquq və azadlıqlarını müdafiə edir, səhiyyə sisteminin və əhalinin sağlamlığının müdafiəsinə dair ərazi proqramları hazırlayıb icra edir, idarəetmə orqanları yaradır, səhiyyə sistemini inkişaf etdirir və maddi-texniki bazanı möhkəmləndirir, dövlət səhiyyə müəssisələrini dərmanlarla, tibbi texnika və avadanlıqla təchiz edir, ilkin tibbi və sanitar köməyi və digər tibbi yardım formalarını təşkil edir və onların əhali üçün əlçatan olmasını təmin edir, özəl tibbi fəaliyyətin inkişafına kömək edir, əhalinin sanitar-epidemioloji təhlükəsizliyini təmin edir, səhiyyə müəssisə, təsisat və təşkilatlarının fəaliyyətini əlaqələndirir və ona nəzarət edir, ətraf mühitin mühafizəsini təşkil edir, ekoloji və radiasiya təhlükəsizliyini təmin edir, ölkə qanunvericiliyinə uyğun olaraq səhiyyə sisteminin idarə edilməsi və əhalinin sağlamlığının mühafizəsi üzrə digər vəzifələri həll edir.

Digər sahələrdən fərqli olaraq muxtar vilayətin sosial, mədəni, təhsil və səhiyyə sahəsində fəaliyyətinə dair hüquqi normalar yeni konstitusion qanunda daha geniş şəkildə əks olunsa da, səlahiyyətlərin məhdudlaşdırılması baxımından bu sahə xali deyildir. DBMV Xalq deputatları məclisi sədrinin vilayətdə özəl təhsil və səhiyyə müəssisələrinin fəaliyyətə başlaması və fəaliyyətinin dayandırılması üçün (müvafiq olaraq respublika təhsil və səhiyyə nazirliyi ilə razılaşdırılmaqla) lisenziya vermək, vilayətin torpaq, su hövzələri və atmosfer sahəsi üzərində nəzarət, hər hansı bir ərazinin kurort, qoruq, milli park kimi tanınması haqqında qərar qəbul etmək, infeksion xəstəliklər epidemiya halı aldıqda xüsusi əmək rejimi tətbiq etmək və s. hüququ artıq yoxdur.

Nəzərə alsaq ki, 2007-ci il Qanununun son iki maddəsində 1995-ci il Qanununun qüvvədən düşdüyü və yeni qanunun rəsmi şəkildə dərc olunduqdan sonra qüvvəyə minməsi barədə müddəalar əks olunmuşdur, o zaman aydın olur ki, DBMV haqqında əvvəlki 30 maddəlik Konstitusiya Qanunu faktiki 18 maddədə əks olunan hüquqlarla həm məzmunca, həm də formaca xeyli məhdudlaşdırılmışdır. Bunu aydın şəkildə göstərən əsas fakt isə



əvvəlki qanunda mövcud olan "DBMV-nin nümayəndəli və icra hakimiyyəti" və "DBMV-də məhkəmə hakimiyyəti" fəsillərinin yeni konstitusion qanunda əks olunmamasıdır. Belə ki, hakimiyyətlərin bölünməsi prinsipinin ifadəsi olan və çox məhdud şəkildə olsa da, hüquqi baxımdan vilayətə siyasi muxtariyyət mahiyyəti verən həmin fəsillərin tamamilə qanundan çıxarılması DBMV-nin statusunun məhdud inzibati muxtariyyətə qədər azaldılması məqsədinə xidmət etmişdir. Hazırda Tacikistanın inzibati-ərazi bölgüsünə Dağlıq Bədəxşanla yanaşı, daha üç vilayətin daxil olduğunu nəzərə alsaq, burada mərkəzi hakimiyyət orqanlarının muxtar vilayətin səlahiyyətlərinin digər vilayətlərə yaxınlaşdırması cəhdi aşkar sezilməkdədir. Beləliklə, 2007-ci il Konstitusiya Qanunu DBMV-nin sosial-iqtisadi və mədəni sahədə çox da geniş olmayan səlahiyyətlərə malik inzibati muxtariyyət kimi statusunu möhkəmləndirir.

Hazırda DBMV-nin ölkə əhalisinin 3,2 faizini təşkil edən sakinlərinin sayı 222 mindən artıqdır. Əhalinin 90 faizindən çoxunu taciklər, 7 faizə yaxını isə qırğızlar (sonuncular vilayətin ərazisində XVII-XVIII əsrlərdə məskunlaşmışlar) təşkil edir. Etnik taciklərin (çox zaman elmi ədəbiyyatda "pamirlilər" adlandırılır – E.C.) ölkənin əsas əhalisi ilə başlıca fərqliliyi dil və konfessial sahədədir – Pamir dilləri (paşto-ormuri və s. dillərlə yanaşı) Şərqi İran, tacik dili isə Qərbi İran dil qrupuna daxildir [7].

484 yaşayış məntəqəsindən ibarət 43 dexotu (kənd camaatlığı) əhatə edən 7 rayonun (nohiyə) tərkibinə daxil olduğu DBMV-nin ərazisi 63700 km2-dir və ölkə ərazisinin 44,5 faizini əhatə edir [11; 13]. İnzibati mərkəz Xoroq şəhəridir. Vilayət şimalda Qırğızıstanla, şərqdə Çinlə, cənubda və qərbdə Əfqanıstanla sərhədlərə malikdir.

## ƏDƏBİYYAT


*1. Cəfərli E. Postsovet məkanının unitar dövlətlərində muxtariyyətlər və Naxçıvanın muxtariyyəti // Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir (04-05 iyul 2014-cü ildə keçirilmiş beynəlxalq konfransın materialları). Naxçıvan: Əcəmi NPB, 2015, s. 116-122*

*2. Kafkasyalı M.S., Tacibayev R. Tacikistan: Kurgusal Kuruluştan Kurgusal Politikalara // Türk Dünyası İncelemeleri Dergisi / Journal of Turkish World Studies, XII/1 (Yaz 2012), s. 239-266*

*3. Moezzi M. (Çev. Ali Ertuğrul). Bedahşan İsmailîlerine Ait Elyazmaları // DEÜİFD, XXXIII/2011, s. 255-273*

*4. Ахбори Маджлиси Оли Республики Таджикистан, 2007 г., № 6, с. 476*

*5. Ахбори Маджлиси Оли Республики Таджикистан, 2007 г., № 7, с. 715*

*6. Конституция Республики Таджикистан. http://www.prezident.tj/ru/taxonomy/term/5/112*

*7. Олимов М. Об этнополитической и конфессиональной ситуации в Таджикистане и вероятности межэтнических конфликтов / http://www.analitika.org/article. php?story=20050319013518622*

*8. Usmonov Q., Sodiqov M. O'zbekiston tarixi (1917-1991-yillar). Akademik litsey va kasb-hunar kollejlari 1-bosqich o'quvchilari uchun darslik / Mas'ul muharrir: Q.Rajabov. Toshkent: Sharq, 2010, 256 b.*

*9. http://dic.academic.ru/dic.nsf/bse/80582/%D0%93%D0%BE%D1%80%D0%BD%D0%BE*

*10. http://mmk.tj/ru/legislation/legislation-base/constitutional-laws/*

*11. http://www.badakhshan.hut.ru/pages/gbao.html*

*12. http://www.mmk.tj/ru/library/zakon__respubliki_tadzhikistan_o_gbao.doc*

*13. http://ru.wikipedia.org/wiki/Горно-Бадахшанская_автономная_область*

*14. http://www.tajik-gateway.org/wp/?page_id=24932*



**Açar sözlər:** *muxtariyyət, konstitusiya, konstitusiya qanunu, Tacikistan Respublikası, Dağlıq Bədəxşan Muxtar Vilayəti, Xalq deputatları məclisi, inzibati muxtariyyət.*

**Ключевые слова:** *автономия, конституция, конституционный закон, Республика Таджикистан, Горно-Бадахшанская автономная область, Маджлис народных депутатов, административная автономия.*

**Keywords:** *autonomy, constitution, constitutional law, the Republic of Tajikistan, Gorno-Badakhshan Autonomous Region, People's Majlis deputies, administrative autonomy.*



## РЕЗЮМЕ

Горно-Бадахшанская автономная область образована 2 января 1925 года в составе Таджикской АССР (в 1929 г. переобразован в ССР) и расположена в её восточной части. После упразднения независимости Таджикистана в Конституции страны принятой в 1994 г. была включена отдельная глава о статусе Горно-Бадахшана. В 1995 году был принят Конституционный закон о Горно-Бадахшанской автономной области состоящей 6 глав и 30 статей. А в 2007 году закон заменили с новым конституционным законом состоящей из 5 глав и 20 статей. Положении Конституционного закона Горно-Бадахшанской автономной области определяет ее как административной автономии, которая не имеет широкие полномочия.



## SUMMARY

Upper-Badakhshan Autonomous Region was established on January 2, 1925 as a part of the Tajik Autonomous Sovet Socialist Republic. (1929 become in SSR) and is located in its eastern part. After the abdition of Tajikistan's Independence in the Constitition adapted in 1994 it included a seperate chapter on the status of Upper-Badakhshan. In 1995 the first constitional law of Upper-Badakhshan autonomous region included of: 5 chapters 30 articles and in 2007, that law arended with a new constitional law consist of 5 chapters and 20 articles. The propositions of thah constitute law Upper-Badakhshan Autonomous Region as an administrative Autonomous Region having wide spread states.

# Deportasiya

## GÖYÇƏ MAHALINDA YAŞAYAN AZƏRBAYCANLILARIN DİSKRİMİNASİYASI VƏ 1988-1989-CU İLLƏR DEPORTASİYASI

BƏXTİYAR ƏHMƏDOV
AMEA-nın Tarix İnstitutu



Tarixlər boyu azərbaycanlıların öz dədə-baba torpaqları olan indiki Ermənistan ərazisindən məcburən və kütləvi zorakılıqla qovulmasının sonuncu mərhələsi 1988-1989-cu illərdə baş vermişdir.

Bu dövrdə ermənilərin həyata keçirdikləri qətliamlar nəticəsində Göyçə 56 şəhid (45 nəfər Basarkeçər, 11 nəfər Çənbərək rayonu ərazisində) verdi, Göyçənin son 80 min nəfər əzəli sakini didərgin düşdü, əhaliyə şəxsi əmlak qismində 500 milyon, ictimai təsərrüfatların əmlakı qismində 1 milyard dollar həcmində ziyan dəydi.

1960-cı illərdən başlayaraq Ermənistan SSRİ-də azərbaycanlılardan rəhbər vəzifədə olanların böyük əksəriyyətini ermənilər əvəz etdilər. Göyçə mahalının Basarkeçər, Krasnoselo, həmçinin Qarabağlar, Zəngibasar, Vedi rayonlarında (əhalinin 75-90% azərbaycanlılar olmaqla) rayon partiya komitələrinin azərbaycanlı olan birinci və ikinci katibləri heç bir əsas olmadan işdən azad edildilər (3, 54).

1964-cü ildə Ermənistanın rəsmi dairələri Moskvanın razılığı ilə uydurma "Erməni genosidi"nin 50 illiyinin qeyd edilməsi haqqında qərar qəbul etmişdilər. Erməni millətçiləri 1965-ci ilin fevralında cəllad Andranik Ozanyanın anadan olması olmasının 100 illiyini təntənəli surətdə qeyd etdilər. Həmin dövrdə Ermənistanı Yenidən Birləşdirmə Komitəsi yaradılmışdır. Bu hərəkata gizli surətdə Ermənistanın KP MK-nın o zamankı birinci katibi Y.N.Zarobyan, kinci katibi H.Bağdasaryan, Elmlər Akademiyasının prezidenti V.Hambarsumyan və s. rəhbərlik edirdilər (1, 123).

Bunu Ermənistanın KP MK-nın o zamankı birinci katibi Y.N.Zarobyanın 1964-cü ildə etdiyi məruzəsindən də görmək olar: "...Vəzifə xarici ölkələrin mütərəqqi təşkilatları ilə əlaqəni bundan sonra da genişləndirməkdir... Xarici ermənilərin kütləvi surətdə Sovet Ermənistanına qayıtmasının təşkil edildiyi xəbəri həmvətənlərimiz tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanmışdır. 1962-1963-cü illərdə İrandan, Kiprdən, Yunanıstan və digər ölkələrdən bizə üç mindən artıq erməni gəlmişdir. Respublika, partiya, sovet və komsomol təşkilatlarının şərəfli işini qeyd etmək lazımdır ki, ermənilərin nümunəvi qəbulu və yerləşdirilməsində böyük işlər görmüşlər..." (7).

Bu dövrdə erməni rəhbərliyi erməni şovinizmini gənclərin beyninə yeritmək üçün ideoloji təbliğatdan geniş istifadə edirdi. Bunun məntiqi davamı olaraq siyasi qərarla İrəvan şəhərində uydurma 1915-ci il "erməni soyqırımı"na abidə də qoyulmuşdur. Ermənistan SSR Nazirlər Sovetinin 18 mart 1965-ci il qərarı ilə 1915-ci il qırğınının qurbanı olan ermənilərin xatirəsini əbədiləşdirmək üçün Yerevan şəhərində daş abidə qoyulması qərara alınmışdır (8).

1965-ci ilin aprel ayının 23-25-ində İrəvan şəhərində keçirilən tədbirlər kulminasiya nöqtəsinə çatır. İrəvan şəhərində 400 min erməni əhalisi küçələrə çıxaraq, "genosid qurbanları"nın xatirəsinə ucaldılmış memorial tikinti yerinə doğru axışırdı. Kütlənin önündə erməni katolikosu ilə birlikdə respublikanın rəhbərləri addımlayırdılar. Kütlənin başı üzərində qara parça ilə örtülmüş rəmzi tabut və "Böyük Ermənistan", "Qoparılmış ərazilər Ermənistana qaytarılmalıdır!", "İntiqam!", "İntiqam! "sözləri yazılmış şüarlar aparılırdı. Bu hadisədən sonra Ermənistan SSR-nin azərbaycanlı əhalisi sıxışdırılmağa başlanıldı, xüsusən İrəvanda, Göyçədə, Leninakanda, Kirovakanda, Qafanda avtobuslarda, bazarlarda, ictimai yerlərdə azərbaycanlılar təhqir olunur, döyülürdü (6, 113; 3, 55).

XX əsrin 60-cı illərində Ermənistanda aparılan milli ayrıseçkilik siyasəti və diskriminasiya aksiyası nəticəsində İrəvan və onun ətraf rayonlarından minlərlə ailə Azərbaycana köçməyə məcbur olmuşdur.

1961-ci ildə SSRİ hökuməti xaricdə yaşayan ermənilərin yeni dəstəsinin qəbul edilməsi haqqında qərar qəbul etmişdir. Ermənistan KP MK-nın 1961-ci il oktyabr plenumunda qərara alınmışdır ki, ermənilərin 1946-1948-ci illərdə köçürülməsi zamanı əldə edilən təcürbəyə əsaslanaraq, onlara mənzil fondu ayırmaqla, məktəblər və s. social obyektlər təşkil edilməklə onların yerləşdirilməsinə başlanılsın. 1962-ci ilin əvvəlindən başlayaraq Kiprdən, Misirdən, İrandan, ABŞ-dan, Türkiyədən, Uruqvaydan, Argentinadan ermənilərin yeni köç dalğası başladı. 1962-1965-ci illərdə Ermənistana 7 min erməni köçürülmüşdür. Ümumiyyətlə isə, 1962-1973-cü illərdə xaricdən Ermənistana 26 min nəfər erməni yerləşdirilmişdir (1, 124).

Bu dövrdə xaricdə yaşayan ermənilərin Ermənistana köçürülməsi faktını, "Sovet Ermənistanı" qəzetində çap olunan məqalələrdən də görmək olar.

Qəzetin 3 oktyabr 1964-cü ildə çap olunan nömrəsində "Misir

Ermənilərі Leninakana gəlmişlər" adlı məqalədə yazılır: "Ermənistan SSR Xarici İşlər naziri B.Martirosyan yoldaş Misirdən Sovet Ermənistanına gələn ermənilərin yeni qrupunu salamladı və təbrik etdi... Sovet Ermənistanının yeni vətəndaşları, Misirdən gələn 41 ailənin üzvləri münasib və işıqlı mənzillərdə yerləşdirildilər (7).

Bu qəzetin 10 noyabr 1964-cü ildə cap olunan 133 saylı nömrəsində "Suriyadan vətənə qayıdan ermənilərin ikinci karvanı Sovet Ermənistanına gəlmişdir" adlı məqalədə yazılır: "Suriyadan vətənə qayıdan ermənilərin ikinci karvanı noyabrın 9-da xüsusi qatarla Batumdan Sovet Ermənistanına gəlmişdir. 329 nəfər erməni doğma torpaqda əbədi məskən salmışdır... Təkcə son iki ildə Kiprdən, Birləşmiş Ərəb Respublikasından, İrandan, Suriyadan qayıtmış 1200 erməni Kirovakanda məskən salmışdır..." (7)

"Sovet Ermənistanı" qəzetinin 1965-ci il 13 mart (N31) tarixli sayında Sovet Ermənistanının yeni vətəndaşlarının respublika toplanışında çıxış edən pensiyaçı Nşan Hovhannesyan deyir: "Biz Ermənistana  qayıtdıqdan dərhal sonar həm mənzillə, həm də işlə təmin olunmuşuq. İndi təkçə Kirovakanda vətənə qayıdanlardan 682 nəfər dövlətdən pensiya alır. Son iki ildə Kirovakanda 1187 nəfər vətənə qayıdan məskən salmışdır…" (8).

Bu dövrdə də həyata keçirilən diskriminasiya siyasəti nəticəsində azərbaycanlıların  Ermənistan ərazisindən Azərbaycana kütləvi axını davam etmişdir.

1918-ci ildə Ermənistanda azərbaycanlılar respublika əhalisinin 45 faizini, 575 min nəfər təşkil etdiyi halda, əksinə, 1979-cu ildə keçirilən Ümumittifaq siyahıyalmasına görə, Ermənistanda azərbaycanlılar 160841 nəfər, yaxud Ermənistan əhalisinin (3037259 nəfər) 5,3 faizini təşkil edirdilər. 1926-cı ildə Ermənistanda türklər 84,6 min nəfər olmuşdur. Həmin dövrlə müqayisədə azərbaycanlılar cəmi 89 faiz, yaxud 1,9 dəfə artmışdır. Müqaiyisə olunan müddətdə ermənilər 743,6 min nəfərdən 2725000 nəfərə çatmışdır. Onların artımı 280 faiz yaxud 3,7 dəfə olmuşdur. Bu rəqəmlər azərbaycanlıların Ermənistanda nə dərəcədə diskriminasiya və represiyaya məruz qaldıqlarının əyani nümunəsidir  (1, 125; 3, 56).

Azərbaycanlıların öz dədə-baba torpaqları olan indiki Ermənistan ərazisindən məcburən və kütləvi zorakılıqla qovulmasının sonuncu mərhələsi 1988-1989-cı illərdə baş vermişdir.

1988-ci il fevralın 20-də keçmiş DQMV-nin Xalq deputatları Soveti "Dağlıq Qarabağın Azərbaycan SSR-nin tərkibindən çıxarılaraq, Ermənistan SSR-in inzibati-ərazi bölgüsünə daxil edilməsi haqqında" qərar qəbul etməsi millətlərarası münasibətləri daha da kəskinləşdirdi.

Bu qərardan sonra Ermənistanın siyasi dairələrində də milli münaqişəyə təhrik edən siyasi tələblər irəli sürülməyə başladı. 1988-ci il iyun ayında keçirilən on birinci çağırış Ermənistan SSR Ali Sovetinin yeddinci sessiyasında DQMV Xalq Deputatları Sovetinin bu qərarı müzakirəyə çıxarıldı. Bu sesiyada erməni deputatlar öz siyasi riyakarlığını nümayiş etdirərək bu qərarı ciddi cəhdlə müdafiə etmişlər. Sevan seçki dairəsindən deputat olan A.M.Kirakosyan öz nitqində deyirdi: "Deputat yoldaşlar! Ali Sovetin bu günkü sessiyasında müzakirə olunan məsələ-Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın tərkibinə keçməsi  barədə DQMV Sovetinin qərarı qanuni tələbdir və bu həyata keçirilməlidir..." (103). Bu sessiyada DQMV qəbul etdiyi qeyri-qanuni qərarı müdafiə olundu və Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında qərar qəbul olundu.

Dağlıq Qarabağ ermənilərinin bu əsassız qərarı erməni katalikosu Vazgen tərəfindən də birmənalı müdafiə olunmuşdur. Onun 1988-ci il iyulun 7-də Ermənistan televiziyası ilə çıxışında erməniçilik təfəkkürünə əsaslanaraq tarixi Azərbaycan torpağı olan Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi qərarını alqışlamışdır. O, öz çıxışında ermənilərə müraciət edərək deyirdi: "Mən bütün dünya ermənilərinin katalikosu müqəddəs Eçmiadzindən yenidən öz sözümlə sizə müraciət edirəm. Keçən fevralın sonlarında Qarabağın erməni əhalisinin birgə qərarla ana Ermənistana birləşmək arzusunu ifadə etdi. Sovet Ermənistanı və xarici ermənilər fəxr ediləcək birlik və intizamla qarabağlıların ədalətli arzularına tərəfdar çıxdılar... Erməni analar, bacılar qardaşlar, xüsusilə siz gənclər xalqın və vətənin ali mənafeyini unutmayın. Araratı qoruyun..." (9).

Ermənistan siyasi və dini dairələrinin bu mənfur addımlarından sonra ermənilər, hər yerdə olduğu kimi, Göyçədə də açıq hərbi təcavüzə cəhd göstərdilər. 1988-ci il mart ayının 26-sını "Sumqayıtın qisas günü" elan etmiş "Krunk" cəmiyyətinin çağırışına cavab olaraq ermənilər Basarkeçərdə də qanlı aksiyalar törətmək iddiasına düşmüşdülər. Guya bu qırğının qarşısını almaq istəyən SSRİ rəhbərliyinin hiyləgər taktikası da əslində hələ 1988-ci il martın 26-da, yəni faciəvi 1918-ci il qırğınlarının 70-ci ildönümü günlərində Ermənistanın türklərdən təmizlənməsi üçün real şərait yaratmışdı. Belə ki, guya millətlərarası toqquşmaya yol verməmək mahiyyəti daşıyan fövqaladə vəziyyətə rejimi, o vaxt cəmi 300-500 türkün yaşadığı Yerevan şəhərində, bir nəfər türkün belə yaşamadığı Leninakanda tətbiq edilmiş, türklərlə ermənilərin qarışıq yaşadığı kənd rayonları isə "unudulmuşdu". Əlverişli şəraitdən yararlanan "Krunk" əsasını Türkiyə və İrandan köçürülənlərin təşkil etdiyi Martuni və Kamo rayonlarındakı fəalların səfərbər edərək, demoqrafik üstünlük türklər tərəfdə olan Basarkeçərə yeritmişdilər və …Martın 26-da "Krunk" fəalları gözləniləninin tam əksi olan mənzərə ilə rastlaşdılar. Basarkeçər rayon mərkəzinin türk kəndlərinə yaxın qəsəbəsində – "Zod ORS" deyilən hissədə yaşayan ermənilər gecə ikən qəsəbəni tərk edərək, təhlükəsiz evlərə çəkilmişdilər. Elə həmin gün ZOD mədənlərində işləyən Nərimanlı kənd sakini Fazil bir türk oğlu onunla axınaq zarafat edən bir ermənini ağır traktorun təkərləri altında əzərək öldürmüş, cəmi 11 türk ailəsinin yaşadığı Tüstülü kəndindən isə gənc bir türk balası onu hədələyən erməni həmyaşıdını bıçaqla yaralamışdı (10, 113).

1988-ci il iyun ayının 15-də Göyçə mahalında ermənilərin yaramaz hərəkətlərinə qarşı azərbaycanlılar öz etiraz səsini qaldırmalı aldular. Krasnoselo rayonunun Şorca və Gölkənd kəndlərində on min əhalinin mitinqi keçirildi. Səhərisi gün Basarkeçər rayonunun Şişqaya və Nərimanlı məntəqələrində də azərbaycanlılar mitinqə çıxdılar. Ümumilikdə bu mitinqlərdə iyirmi mindən çox adam iştirak etmişdir (5, 22).

Nəhyət, 1988-ci ilin yazında 17 türk kəndi nümayəndələrinin iştirakı ilə Nərimanlı kəndi ərazisindəki Göy körpüdə (1919-cu ildə Şulikovun başının kəsildiyi yerdə) və Krasnoselo rayonu ərazisindəki türk kəndlərinin birləşmiş səyı ilə Şorca kəndində başlamış bu mitinqlərdə "Göyçənin Ermənistan SSR-in tərkibindən çıxarılaraq, Azərbaycan SSR-in ərazi – inzibati bölgəsinə daxil edilməsi" tələbi irəli sürülmüşdür. Təəssüflər olsun ki, Göyçə azərbaycanlılarının bu haqlı tələblərinə dəstək olaraq, noyabr ayının 17-də Bakıda "Azadlıq" meydanında yüzminlərlə insanın iştirakı ilə keçirilən mitin zamanı Ermənistanda yaşayan azərbaycanlılara muxtariyyat verilməsi tələbi ilə qətnamə qəbul olunsa da, bu tələb o zamankı Azərbaycan rəhbərliyi tərəfindən dəstəklənmədi (10, 114).

1988-ci ilin sentyabr-oktyabr aylarında erməni millətçiləri ardı-arası kəsilməyən mitinqlər keçirir, bu bölgələrdən türklərin



çıxarılmasını tələb edirdilər. Evlərə od vurulur, insanlar işgəncə ilə öldürülür, qadınların sinəsinə xaç çəkilir, uşağa, qocaya rəhm edilmirdi. Bu ərazilərdə iqtisadi blokada davam etdirilirdi. Bütün bunlara isə SSRİ rəhbərliyi laqeyidcəsinə göz yumurdu.

1988-ci il noyabr ayının 22-də Ermənistanın SSR Ali Sovetinin sessiyası öz işini yarımçıq dayandıraraq, bütün stansiya rəhbərlərinə "noyabr ayının 28-dək respublikanın türklərdən təmizlənməsini təmin etmək" tapşırığı verildi. Ermənistanın bütün rayonlarına şamil edilən bu qərarın təsir dairəsinin mərkəzinə şübhəsiz ki, Göyçə mahalı və Ağbaba bölgəsi düşürdü. Çünki 1988-ci ilin noyabr ayınadək digər rayonlardan türklərin deportasiyası, demək olar ki, başa çatdırılmışdı. Odur ki, Göyçə və Ağbabadan türklərin deportasiyasına rəhbərlik Ermənistan Respublikasının ali rəhbərliyinə həvalə edildi.

Noyabr-dekabr aylarında Ermənistandan azərbaycanlıların çıxarılması üçün son hazırlıq işlərinə başlandı. İllərdir həyata keçirilən "Türksüz Ermənistan" planının son mərhələsinə start verildi.

Bu planın həyata keçirilməsində bütün vasitələrdən istifadə olunmağa başladı. Hətta bu plana qarşı çıxan rayon rəhbərləri də işdən azad edilirdi.

Azərbaycanlıların kompakt yaşadığı Basarkeçər rayonunda birinci katibi dəyişməyə ehtiyac olmadı. Çünki Razmik Yenqoyan ikinci katib Aşot Akopyanla birlikdə həyata keçirilməkdə olan fitnəkarlıq hərəkatının başında dayanmışdır. Rayon daxili işlər şöbəsinin rəisi Bahar Boxyan, Torf İstehsalat Birliyinin rəisi Qurgen Harutyunyan, Çaxırlı sovxozunun direktoru Arkadi Petrosyan, quşçuluq fabrikinin direktoru Albert Petrosyan "Türksüz Ermənistan" uğrunda başlanan avantürist kampaniyanın aparıcı ünsürlərindən idilər (5, 26).

Bu daşnak-kommunistlərin rəhbərliyi sayəsində Göyçə əhalisi öz dədə-baba yurdlarından tamamilə qovularaq Azərbaycana "yola salındılar". Onlarla azərbaycanlı döyülərək yaraldı və qarlı-boranlı dağ yollarında həlak oldular.

Bu dövrdə ermənilərin Göyçədə törətdikləri vəhşilikləri görmüş yüzlərlə canlı şahidlər var. Göyçədə baş verən hadisələrpin tam mənzərəsini təsəvvür etmək üçün o zaman Göyçə qızıl mədənlərində çalışan, milliyyətcə rus olan L.V.Tolstyakın şahid ifadəsindən bir məqamı diqqət yetirmək kifayətdir. O, öz şahid ifadəsində deyir: "1988-ci il noyabr ayının 27-də Ermənistan SSR Nazirlər Soveti sədrinin birinci müavini, sonradan Ermənistan KP MK-nın birinci katibi olmuş V.Movsesyan Vardeniz (Basarkeçər) rayonunun Zod kəndinə gələrək, yerli əhalinin kəndi tərk etməsi üçün 3 gün vaxt verdiyini, əks halda təhlükəsizliyə təminat verilməyəcəyini bildirdi. Elə həmin gün kəndə elektrik enerjisi və ərzaq verilməsi dayandırıldı, gecələr kənd atəşə tutuldu" (1, 135).

1988-ci ilin noyabrında ermənilərin Göyçədə həyata keçirdiyi soyqırım və deportasiya siyasətinə o zamanki Azərbaycan hökuməti tam laqeydliklə yanaşdı. Ə.Vəzirov bilavasitə ermənilərin tərəfdaşı rolunda çıxış etdi. Deportasiyanı həyata keçirmək üçün erməni tərəfinə nəqliyyat yardımı göstərən Azərbaycan KP MK-nın birinci katibi qaçqınların Azərbaycanın ermənilər yaşayan bölgəsində yerləşməsinə rəsmi qadağa qoydu ki, bunun da çox ciddi nəticələri oldu.

1988-1989-cu illərdə Göyçə mahalında ermənilərin törətdiyi vəhşiliyin xronologiyasını sizə təqdim edirik:

26 noyabr 1988-ci il: Daşnak terrorçuları Sevan rayonunun Çubuqlu kəndində Nəsrəddin və Həbib Əliyevlərin şəxsi minik maşınlarını - "Jiquli" avtomobilini əllərindən alıb əzir, parça-parça edirlər. Özlərini isə vəhşicəsinə döyüb ölümcül hala salırlar;

27 noyabr - 7 dekabr 1988-ci il: Daşnak terror qrupları son məqsədə çatmaq, Qərbi Azərbaycanda türksüz Ermənistan terror dövləti yaratmaq üçün ayrı-ayrı bölgələrin şəhər və kəndlərinə kütləvi basqınlar edirlər. Aşağıda göstərilən sayaq çoxsaylı insan tələfatı ilə nəticələnən sayı yüzləri aşan terror aktları törədirlər: Allahverdi (Tumanyan) rayonunda 4 nəfər, Amasiyada 13 nəfər (5 qadın, 1 uşaq), Axtada (Razdan) 3 nəfər (1 qadın), Baranada (Noyemberyan) 3 nəfər (1 uşaq), Basarkeçərdə (Vardenis) 44 nəfər (8 qadın, 4 uşaq), Böyük Qarakilsədə (Quqark) 23 nəfər (6 qadın, 1 uşaq), Vedidə (Ararat) 6 nəfər (1 qadın), Kalininoda 12 nəfər (5 qadın), Qarakilsədə (Sisian) 5 nəfər (4 qadın), Qafanda 7 nəfər (3 qadın, 1 uşaq), Zəngibasarda (Masis) 22 nəfər (4 qadın, 3 uşaq), Karvansarayda (İcevan) 7 nəfər (1 qadm), Keşişkənddə (Yeğeqnadzor) 2 nəfər, Gorusda 2 nəfər, Mığrıda (Meqri) 1 nəfər, Soylanda (Vayk) 15 nəfər (4 qadın, 2 uşaq), Hamamlıda (Spitak) 15 nəfər (5 qadın, 1 uşaq), Çəmbərəkdə (Krasnoselski) 18 nəfər (7 qadın, 2 uşaq), Calaloğluda (Stepanovan) 8 nəfər (2 qadın) günahsız, əliyalın, köməksiz, evini tərk etmək istəməyən dinc və təhlükəsiz azərbaycanlılar müxtəlif cür vəhşiliklərlə qətlə yetirilirlər. Şəhid düşənlərdən 41 nəfər döyülməklə öldürülür, 2 nəfərin başı kəsilir, 11 nəfər diri-diri yandırılır, 1 nəfər asılır, 3 nəfər doğranır, 29 nəfər maşınların təkəri altına atılır, 1 nəfər toka verilir, 16 nəfər isə güllələnir. Ümumiyyətlə, qətlə yetirilən 216 nəfərin 57-si qadın, 23-ü isə uşaq olmuşdu. Bu amansız qətl hadisələrini törədənlərin böyük bir qisminin şəxsiyyəti məlum olsa da, onlardan heç biri nə İrəvanın, nə də Moskvanın hüquq mühafizə orqanları tərəfindən cinayət məsuliyyətinə cəlb edilməmişlər;

28 noyabr 1988-ci il: Daşnak terror qrupları Basarkeçər rayonunun Çaxırlı, Qanlı, Kərkibaş, Şişqaya, Zod kəndlərinə basqınlar edirlər. Nəqliyyat vasitəsi olmayan imkansız, əliyalın əhalidən 34 nəfər döyülərək, işgəncə verilməklə qətlə yetirilir. Sağ qalanlar Gədəbəyə, Kəlbəcərə adlamaq ςün Sarınər, Urumbasar gədiklərindən aşmalı olurlar. Qarda-çovğunda borana, şaxtaya düşən qaçqınların 12 nəfəri donvurmadan tələf olur;

29 noyabr 1988-ci il: Daşnak terror qruplarının təzyiq və təcavüzlərinə davam gətirməyən Basarkeçərin Aşağı və Yuxarı Şorca, Qayabaşı, Qoşabulaq, Subatan, Zağalı, Sarı Yaqub, Qaraqoyunlu, Nəriman, Ağkilsə, Zərkənd, İnəkdağı kəndlərinin əhalisi 44 nəfər itki verərək qarlı dağlar aşıb Kəlbəcər rayonu ərazisinə qaçmalı olurlar. Bir çox yaşlı nəslin nümayəndələri, uşaq və qadınlar isə qarlı-çovğunlu havada donvurmadan həyatlarını qeyb edirlər;

30 noyabr 1988-ci il: Sevan şəhərində yerləşən respublika ruhi xəstəxanasındakı azərbaycanlı xəstələrə rəhmi gəlməyən daşnak terrorçuları 22 nəfər Azərbaycan türkünü su ilə doldurulmuş quyuya

ataraq boğub qətlə yetirirlər (4, 179).

Təqdim olunan hadisələrin bu qısa xronologiyasından da görünür ki, erməni faşistləri bu illərdə azərbaycanlılara qarşı ağlasığmaz vəhşiliklər törətmiş, sözün əsl mənasında soyqırım siyasəti həyata keçirmişlər.

Ermənilərin bu vəhşi siyasətini 1988-1989-cu illərdə Göyçə gölü hövzəsindən deportasiya edilmiş azərbaycanlı yaşayış məntəqələrinin siyahısında da görə bilərik:

Vardenis (Basarkeçər) rayonu

1. Hüseynquluağalı (Nərimanlı, Şatavan-1991), 2. Böyük Qaraqoyunlu (Əzizli-1935, Norabak-1991), 3. Aşağı Şorca, 4. Yuxarı Şorca, 5. Daşkənd (Ayrk-1991), 6. Sarıyaqub (Çaxkadzor-1991), 7. Qayabaşı (Qeğamabak-1991), 8. Qoşabulaq (Şadcrek-1991), 9. Zərzibil (Zərkənd-1935, Kut-1991), 10. Ağkilsə (Azad -1935), 11. Zod (Cotk-1991), 12. Babacan (Qızılkənd-1978), 13. Pəmbək, 14. Dərə (Daranek-1991), 15. Şişqaya (Qukariç-1991), 17. Bala Məzrə (Pokr Masrik-1991), 18. Qaraiman (Sovetkənd-1978, Kaxank-1991), 19. Kəsəmən (Bahar-1978, Arpunk-1991), 20. İnəkdağı (Yenikənd-1978, Tretuk-1991), 21. Qanlı (Qamışlı -1946), 22. Kərkibaş (Şəfəq-1967, Vanevan-1991), 23. Subatan (Qexakar-1991), 24. Canəhməd (Günəşli-1969, Kutakan-1991), 25. Ağyoxuş, 26. Sətənəxaç (Güney-1935, Arevuni-1991)

Qarışıq yaşayış məntəqələri:

27. Yuxarı Zağalı (Ağpradzor-1978), 28. Çaxırlı (Sovetakert-1978, Kaxakn-1991), 29. Tüstülü (Lusaqeunk-1978), 30. Böyük Məzrə (Medz Masrik-1991), 31. Qızılvəng (Çiçəkli-1940, Makenis-1978), 32. Torf



Krasnoselo (Çəmbərək) rayonu

1. Cil, 2. Ardanış, 3. Şorca, 4. Toxluca (Draxtik-1991), 5. Ağbulaq (Axperek-1991), 6. Gölkənd (Ayqut -1991), 7. Çaykənd (Dprabak-1991), 8. Əmirxeyir (Kalavan-1991), 9. Bəryabad (Barepat-1991), 10. Yanıqpəyə (Meşəkənd-1978), 11. Cıvıxlı, 12. Qaraqaya (Coravank-1991),

Qarışıq yaşayış məntəqələri:

13. Çəmbərək (Krasnoselo), 14. Orconikidze (2, 113-114).

Ümumiyyətlə, 1988-ci ilin 27 noyabr 5 dekabr aralığında ermənilərin həyata keçirdikləri qətlamlar nəticəsində Göyçə 56 şəhid (45 nəfər Basarkeçər, 11 nəfər Çənbərək rayonu ərazisində) şəhid verdi, Göyçənin son 80 min nəfər əzali sakini didərgin düşdü, əhaliyə şəxsi əmlak qismində 500 milyon, ictimai təsərrüfatların əmlakı qismində 1 milyard dollar həcmində ziyan dəydi.



## ƏDƏBİYYAT


*1. Arzumanlı V. və Mustafa N. Tarixin qara səhifələri. Deportasiya, Soyqırımı, Qaçqınlıq. Bakı: Qartal, 1998, 279 s.*

*2. Azərbaycanlıların soyqırımı və deportasiyası. Bakı: PK, 2010.*

*3. Ermənistan Azərbaycanlıların tarixi coğrafiyası Tərtib edən S.Əsədov, /B.Budaqov və Q.Qeybullayevin redaktəsi ilə. Bakı: Gənclik, 1995,464 s.*

*4. Əroğul Ə. Azərbaycanda erməni-daşnak terrorunun xronologiyası (bədii, tarixi publisistika), Bakı, "Təknur", 2009, səh.200 s.*

*5. İsmayıl E. Ermənistan türklərinin 1988-ci il soyqırımı. Bakı: Qəzəl Şərq, 110 s.*

*6. Qazıyev Y. Erməni məsələsi. Yalanlar və gerçəklər. Bakı, Nurlar, 2009, 344 s.*

*7. Sovet Ermənistanı qəzeti, 1964, 3 oktyabr-N117, 10 noyabr - N133*

*8. Sovet Ermənistanı qəzeti, 1965 13 mart, N 31.*

*9. Sovet Ermənistanı qəzeti, 12 iyul 1988, N85; 23 iyun N 76.*

*10. Vilayətoğlu S. Oğuz elinin müqəddəs ocağı: Göyçə. Bakı: TS, 2006, 512 s*



**Açar sözlər:** *İrəvan quberniyası, Göyçə mahalı, 1988-1989-cu illər deportasiyası.*

**Ключевые слова:** *Иреванская губерния, магал Гейча, депортация азербайджанцев в 1988-1989 гг.*

**Keywords:** *Iravan province, Goycha mahal, deportation of the 1988-1989 years.*


## РЕЗЮМЕ


В 60-х гг. прошлого века в Армянской ССР началась очередная интенсивная антитюркская, антимусульманская прораганда. В результате дискриминационных акций тысячи азербайджанцев были вынуждены покинуть Иреван и близлежащие территории и переселиться в Азербайджанскую ССР.

В 1988-1989 гг. в результате политики дискриминации и депортации тысячи азербайджанцев были изгнани из Армянской ССР – родной очага азербайджанских тюрков и стали беженцами в своей стране. В магале Гейча было убито 56 азербайджанцев (45 человек в Басаркечарском, 11 человек в Ченбаракендском районах). Последние 80 тысяч гейцинчев – азербайджанцев были изгнаны из родных очагов.


## SUMMARY


In the 60s of the 20th century, the anti-Turkish, anti-Muslim propaganda began with all its might in Armenia again. During this period, as a result of the national discrimination policy and discrimination actions in Armenia thousands of families were forced to leave Iravan and its surrounding areas.

The last stage of mass and forcibly banishment of Azerbaijanis from present Armenia which throughout the history has been their ancestral lands took place in 1988-1989. During this period, as a result of massacres committed by Armenians 56 people were killed in Goycha (45 people in Basarkecher and 11 people in the area of Chanberek region) gave. the last 80 thousand people - old residents of Goycha were driven from their homes, and were damaged their personal property worth to total $ 500 million and as the property of public holdings $ 1 billion.

# Tarix

## BAKI XALQ KOMİSSARLARI SOVETİNİN TARİXİ XARİCİ TARİXŞÜNASLIQDA

ELŞƏN ASLANOV
Bakı Dövlət Universiteti

XX əsrin 20-ci illərindən 80-ci illərin ortalarınadək sovet tarixşünaslığından fərqli olaraq xarici ölkə tarixçiləri Bakı Xalq Komissarları Sovetinin tədqiqinə daha ədalətli yanaşmış, problemi obyektiv işıqlandırmağa əsasən müvəffəq olmuşlar. Bolşevik konsepsiyasını rəhbər tutan sovet tarixçiləri Bakı Xalq Komissarları Sovetinin siyasətini qüsursuz və ədalətlı qələmə verdikləri halda Azərbaycan Xalq Cümhuriyyətinin liderləri və ideoloqları, yaxud mart soyqırımının şahidi və ya iştirakçısı olan xarici ölkə müəlliflərin problemə münasibəti, gözlənildiyi kimi, obyektiv olmuşdur.

Bakı Xalq Komissarları Sovetinin xarici ölkə tarixşünaslığı ona görə böyük elmi əhəmiyyət kəsb edir ki, Amerika və avropalı tarixçilərin əsərlərində bu və ya digər siyasi rejimin sərt təzyiqi, ideoloji tələbləri olmadığı üçün, ayrı-ayrı tarixi şəxslərin doqmatik etalonlara çevrilməsi və bu kimi elmi obyektivlikdən uzaq neqativ hallarla sovet tarixşünaslığında olduğu kimi tez-tez rastlaşmırsan.

Doğrudur, lap yaxın keçmişdə, dünyanın kapitalizm və kommunizm kimi qarşı-qarşıya duran iki böyük sosial-iqtisadi və ictimai-siyasi cəbhəyə bölündüyü hadisələrdə tarix elmi ən güclü ideoloji mübarizə silahlarından biri və bəlkə də birincisi idi. Ən azından məhz bu səbəbdən müxtəlif ideoloji düşərgəyə malik tarixçilər tarixi gerçəkliyi təbii ki, öz maraqları baxımından əks etdirməyə cəhd göstərirdilər. Məhz bu səbəbdən xarici tarixçilər sovet dövlətinin türk-müsəlman xalqlarına qarşı yeritdiyi ikili standart, müstəmləkə xarakteri daşıyan ədalətsiz milli siyasət konsepsiyasını tənqid etməkdə, qeyri-rus xalqlara qarşı velikorus prizmasından yanaşıldığını obyektiv tarixi faktlarla tədqiq və təsdiq edərək ictimaiyyətə çatdırılması sahəsində böyük işlər görmüşdülər.

Xarici tarixşünaslıq üçün Bakı Xalq Komissarları Sovetinin yaranması, fəaliyyəti və törətdiyi mart soyqırımının öyrənilməsinə bu qədər marağın səbəbi bolşevik ideologiyasının demokratiyadan kənar olmasına hamını inandırmaq üçün belə hadisələrin tədqiqinə duyduqları kəskin ehtiyac idi. Bu ehtiyacdan qaynaqlanaraq yola çıxsalar belə son nəticədə qazanan vətən tarixi olmuşdu. Çünki bu gün həmin dövrü araşdırmaq, Bakı Xalq Komissarları Sovetinin fəaliyyətini daha yaxşı başa düşmək və dəyərləndirmək üçün xarici ölkə tarixşünaslığına müraciət çox vacibdir və xüsusi əhəmiyyətə malikdir.

İstər XX əsrin 20-30-cu illər, istərsə də 50-80-ci illərdə SSRİ-nin süqutuna qədərki sovet tarixşünaslığında Bakı Xalq Komissarları Sovetinin yaranması, fəaliyyəti, anti-azərbaycan xarakteri daşıyan mahiyyəti Azərbaycanda sosialist inqilabının qələbəsi uğrunda zəhmətkeşlərin mübarizəsi tarixi kimi qələmə verilirdi. [1; 5, 7-9; 6, 5-3; ] Həmin dövr sovet tarixçilərinin heç biri Bakı Xalq Komissarları Sovetinin Azərbaycan xalqı tərəfindən dəstəklənmədiyini, yerli camaat içərisində heç bir sosial-siyasi dayağa malik olmadığını, "Daşnaksütun" partiyası ilə sıx əməkdaşlıq etdiyini, qeyri-leqitim hökumətini sinfi mübarizə fonunda ört-basdır etmək üçün Mart soyqırımını planlaşdırılmış şəkildə həyata keçirdiyini, bu cinayətkar qurumun tərkibinin əsasən erməni millətçilərindən ibarət olması barədə bir kəlmə belə söz açmırdılar. Hadisələr Bakı Xalq Komissarları Sovetinin fəaliyyətinin mədhi və təbliği məcrasında təsvir edilirdi. Sovet tarixçilərinin fikrincə bəhs olunan dövrdə əgər Cənubi Qafqazda, o cümlədən Azərbaycanda da hər hansı bir hərəkat olmuşdursa bu sırf proletar hərəkatı, bolşeviklərin qanuni hakimiyyətə yiyələnməkdən ötrü, "xalqı fəlakətə sürükləyən milli burjua qüvvələrinə qarşı" şanlı mübarizə tarixidir. Halbuki, xarici tarixşünaslıqda mühacir tarixşünaslığındakı kimi onların əsl məqsədlərinin heç də "şanlı mübarizə" olmaması, əslində "müsəlmansız bir Azərbaycan xalqı" hədəfində olmamaları aydın olur.

Xarici tarixşünaslıqda xüsusi maraq doğuran əsərlərdən biri Henri Barbiyə məxsusdur. Henri Barbinin 1921-ci ildə Parisdə nəşr olunan "Ermənilərin ekstravaqant bolşevik epopeyası" [7] adlı əsərində 1918-ci ilin martında bolşeviklərin ermənilərlə ittifaqda 7 min müsəlmanı qətlə yetirməsi [7, 65], Şaumyanın, Fioletov, Çaparidze ilə birgə həbs olunarkən 80 milyon manat qızıl pulu da özü ilə aparması faktı qeyd olunur [7, 94]. H.Barbinin təbirincə "bolşeviklərin əsas rəhbərinin bu qədər pulu nəzarətdən hansı şəkildə "gizlətməsi" Şaumyanın müstəqillik illərində oxuduğumuz obyektiv tədqiqat əsərlərindən artıq bizə tanış olan ziddiyyətli, maraqları uğrunda hər cür ideoloji sərhədləri asanlıqla dəf etməyi bacaran, daha bir müəmmalı hərəkəti haqqında şübhələr oyadır. Tarixçinin Bakı Xalq Komissarları Soveti və onun rəhbərliyi haqqında yazdıqları problemi dərindən bildiyinə əyani sübutdur: "Bolşeviklərin əsas rəhbəri Şaumyan, Fioletov, Çaparidze həbs olundular. Gəmidə Şaumyana məxsus yüklərin içində 80 milyon manat qızıl pul tapıldı" [7, 94]. Fəhlə və kəndlilərin rifahı üçün mübarizə yolunu seçən "Bakı bolşeviklərin fədakar əməyi" bu idimi?! Vətən tarixçiləri də iddia edirlər ki, Şaumyanın göstərişi ilə aprelin 26-da Azərbaycan milli burjuaziyasının nümayəndələrindən 50 milyon manat pul hədə-qorxu və silah gücünə alındı [3, 175]. Sovet məktəbinin sapı özümüzdən olan baltalar kimi yetişdirdiyi XX əsrin 40-50-ci illərinin "vətən tarixçilərimiz" bolşevik ideologiyasının əsas mətbu orqanlarında nəşr etdirdikləri silsilə məqalələr və monoqrafiyalarda heç də bu məqama diqqət etmirdilər. Məhz onlar Şaumyanın və yaxın silahdaşlarının siyasi tərcümeyi-halındakı antiazərbaycan elementləri ustalıqla ört-basdır etməyə, Bakı Xalq Komissarları Sovetinin tarixi ilə bağlı obyektiv məlumatları əks etdirən xarici mənbələri düşmənçilik cəhdi kimi qələmə verməyə çalışmışdılar.

Azərbaycanın XX əsr tarixinə xüsusi diqqət yetirən xarici müəlliflərdən biri də Firuz Kazımzadədir. Müəllifin Nyu-Yorkdakı Fəlsəfə kitabxanası və Oksfordda Corc Ronald tərəfindən 1951-ci ildə nəşr olunmuş 345 səhifəlik tədqiqat xarakteri daşıyan əsəri mənbələrin

zənginliyi baxımından diqqəti cəlb edir. Müəllif dönə-dönə qeyd edir ki, bu əsəri yazmaqda məqsədi sovet quruluşuna olan nifrətini büruzə verməkdən ibarət deyil. Cənubi Qafqazın müəyyən mənada ona doğma olması və burada baş verən proseslər haqqında kifayət qədər məlumatlara malik olduğudan o, bu işə cəhd göstərmişdir. Firuz Kazımzadə "Zaqafqaziya uğrunda mübarizə (1917-1921-ci illər)" adlı əsərində [8] 1917-ci il inqilabı ilə bağlı hadisələrdən bəhs edərək yazırdı: "Rusiya əyalətlərində inqilabi proseslərin inkişafı ilə bağlı proseslər çox zəif öyrənildiyinə görə, hazırda Qərbdə Rusiya imperiyasında yaşayan qeyri-rus xalqlar haqqında heç bir məlumat yoxdur. Bu səbəbdən də həmin xalqlara, ələlxüsus da 1917-1920-ci illərdə beynəlxalq əhəmiyyətli hadisələrin cərəyan etdiyi, Avropa ilə Asiyanın kəsişmə nöqtəsində yerləşən Zaqafqaziyaya və orada yaşayan xalqlara maraq azdır, lazımi dəyər verilmir" [8, 7].

Məlum olduğu kimi "1917-ci ilin fevralında Rusiyada baş verən burjua inqilabından sonra ermənilər daha cəsarətlə hərəkət etməyə başladılar[4, 256]. F.Kazımzadə adı çəkilən kitabında bu "boşluğu" doldurmaq üçün zəngin mənbəşünaslıq bazasından yetərincə faydalanmışdır. "Doğrudur, Kazımzadənin əsərində azərbaycanlı müəlliflərin adı çəkilir, amma müəllif vaxtilə Cənubi Qafqaza ezam olunmuş Qırmızı Professorlar İnstitutunun məzunlarının bolşevik ideologiyası əsasında yazmış olduqları əsərlərə xüsusi münasibət bildirmiş və bolşevik konsepsiyasının zərərli cəhətlərini tənqid etməklə müəyyən məsələlərdə müsavatçılara haqq qazandırmışdır" [2, 199]. F.Kazımzadə "Müsavat və bolşeviklər" adlı yarımbaşlıqda yazırdı: "Bolşeviklərin Azərbaycanda başlıca rəqibi Müsavat partiyası idi" [8, 67]. 1917-ci ilin fevralında Rusiyada baş verən burjua inqilabından sonra bolşeviklərin apardıqları təbliğat bir çox partiyalar, o cümlədən də Cənubi Qafqazda "Müsavat" partiyası tərəfindən də müdafiə olunurdu. Lakin 1917-ci ilin oktyabrında bolşeviklərin zorakı yolla hakimiyyəti ələ keçirməsi müsavatçıları öz əvvəlki fikirlərindən daşındırdı. Əgər müsavatçılar oktyabr ayına qədər Rusiyada qurulmuş Müvəqqəti hökuməti bolşeviklərə qarşı tutduğu mövqeyinə görə tənqid edirdisə, noyabrdan sonra müsavatçılar yeni mövqedən çıxış etməyə başladılar. Müəllif daha sonra yazırdı: "Müsavat"ın əvvəlcə Bakı Sovetinə bəslədiyi dost münasibəti belə bir ümiddən irəli gəlirdi ki, bolşeviklər hakimiyyətə gələndən sonra öz vədlərinə əməl edəcək və Rusiya müsəlmanlarının həsrətində olduqları öz müqəddəratını təyin etmə hüququna hörmət edəcək və onu tanıyacaqdır. Bolşeviklərlə "Müsavat" arasında əməkdaşlıq o dərəcədə güclənmişdi ki, onların əleyhdarları bu ittifaqa, ancaq həsəd apara bilərdilər" [8, 68]. Buradaca qeyd etmək lazımdır ki, müəllif öz fikrini əsaslandırmaq üçün erməni tarixçisi İşxanyana istinad edir. Halbuki daşnak partiyasının ideoloqlarından biri olan İşxanyan bütün yaradıcılığı boyu türk-müsəlman dünyasına böhtanlar yağdırmaqla məşğul olmuşdur. Müəllif daha sonra İşxanyanın fikrinə əsaslanaraq yazır: "Müsavatçılar bolşeviklərlə birlikdə İctimai Təhlükəsizlik Komitəsinin və Müəssislər Məclisinin buraxıl-masına, Brest-Litovsk sülh müqaviləsinin bağlanmasına səs verdiyi halda, Rusiya hüdudlarında fəaliyyət göstərən digər partiyalar bolşeviklərin bu təkliflərini rədd etmişdilər" [8, 68].

Müəllif etiraf edir ki, əsərin yazılmasında əsasən, rusdilli mənbələrdən və həm də ABŞ-da ünsiyyətdə olduğu tarixçilərin əsərlərindən istifadə etmişdir. Müəllif müsavatçılarla bolşeviklər arasında əməkdaşlığı müvəqqəti hesab edərək yazır: "Müsavatla bolşeviklərin əməkdaşlığı sırf taktiki xarakter daşıdığı halda, onlar arasında düşmənçilik dərin və real idi və bir az sonra iki partiyanın (bolşevik və "Müsavat") Qafqaz Azərbaycanında siyasi hakimiyyət uğrundakı mübarizəsi onları antoqonist düşmənlərə çevirdi. Bolşeviklər, "Bütün hakimiyyət Sovetlərə" şüarını irəli sürəndə "Müsavat" lideri M.Ə.Rəsulzadə bildirirdi ki, Müsavat partiyası prinsip etibarı ilə bütün hakimiyyətin Sovetlərə verilməsinə etiraz etmir, ancaq Bakı Soveti demokratik əsaslarla seçilmədiyindən və eyni zamanda, kəndlilər burada təmsil olunmadığından Müsavat partiyası hakimiyyətin sözügedən Sovetə verilməsi ilə razılaşmır və bu səbəbdən Icraiyyə Komitəsinə daxil olmaqdan imtina edir" [8, 68].

Daha sonra müəllif yazırdı ki, "Bolşeviklər və müsavatçılar başa dü-şürdülər ki, gec-tez onlar arasında ölüm-dirim mübarizəsi başlayacaq və hər ikisi öz qələbəsini təmin etmək üçün tədbirlər görürdü" [8, 68]. Bakıda güclənmək, az sonra bütün qəzalarda Sovet hakimiyyətini qurmaq üçün Bakı Soveti qüvvələri qarşısında duran mühüm vəzifələrdən biri silahlı ordu birləşmələri təşkil etmək və dağıdılmış ordu hissələrini bərpa etmək üçün birinci dünya müharibəsi cəbhələrindən qayıdan başıpozuq rus əsgərlərini bir yerə yığmaqdan ibarət idi. Digər tərəfdən Bakı Soveti rəhbərliyi etibarsız saydıqları azərbaycanlı fəhlələri silahlandırmaqdan ehtiyat edirdilər. O biri tərəfdən də azərbaycanlılar ermənilərin silahlandırılmasına meyilli olan Sovet rəhbərliyinə öz etirazını bildirirdilər. 1905-1906-cı illərdə Bakıda baş verən qırğının acı nəticələri hələ aradan qaldırılmamış və unudulmamışdı. Ona görə də Bakı Soveti rəhbərliyi silahlı qüvvələrin təşkilinə xüsusi diqqət yetirirdi. Müəllif bununla bağlı yazır: "Bakı daimi milli iğtişaş qorxusu ilə yaşayırdı. Şaumyan başda olmaqla qüvvələr Qafqaz cəbhəsindəki ordunun bölünməsi ilə Azərbaycanda rusların kökünün kəsilməsi ilə nəticələnəcəyini fikirləşirdilər. Silahlı qüvvələrin yaradılması Soveti qayğılandıran birinci məsələ idi. Sovetlər Qırmızı qvardiyanı yaradarkən güclü müqavimətlə qarşılaşdılar, ancaq buna baxmayaraq, öz planlarını həyata keçirtdilər [8, 68]. Müəllif fikrini əsaslandırmaq üçün S.Şaumyana istinad edərək yazır: "Ordunun yaradılması haqqında əmr vermək, onu yaratmaqdan asan idi. Sovetin qüvvələri Müsavatın və Daşnaksütyunun qüvvələri ilə müqayisədə çox az idi. Daşnaklar 1917-ci ilin axırlarında Qafqaz cəbhəsindən qayıdan minlərlə rus əsgərlərindən aldığı böyük miqdarda silahlarla çox yaxşı təchiz olunmuşdu. Bundan başqa daşnaklar Rusiya ordusunda xidmət edərkən və Osmanlıda həyata keçirtdikləri partizan əməliyyatlarında hərbi təcrübə qazanmışdılar. Azərbaycanlılar təxminən ermənilər kimi silahlansalar da, ermənilərlə müqayisə ediləcək təşkilata və təcrübəyə malik deyildilər" [8, 68]. Doğrudur, müəllifin "Daşnaksütyun" qüvvələri ilə bağlı fikirlərinə dövrün digər tarixçilərinin əsərlərində də rast gəlmək mümkündür. Amma maraqlısı budur ki, Osmanlı ərazisində böyük təcrübə toplayan və yerli əhalinin qırılmasında ad çıxaran daşnakların hərəkətlərinin ön plana çəkilməsi böyük əhəmiyyət kəsb edir. Belə ki, erməni qüvvələrinin Osmanlı ərazisində törətdikləri milli qırğınları inkar etmək üçün bolşevik tarixçiləri də uzun müddət səy göstərmişdilər. Bakıda və ətraf qəzalarda müsəlman əhalisinə qarşı soyqırımın təşkilatçısı Stepan Şaumyan və oğlu Suren etiraf edirdilər. Məhz buna görə də vəziyyətin çətinliyini anlayan S.Şaumyan I.V.Stalinə göndərdiyi məktubunda Qafqazdakı Qırmızı qoşunların ehtiyacını ödəmək üçün 10 milyon rublun ayrılmasını xahiş etmişdi.

Müəllifin Bakı və Bakı ətrafında baş verən hadisələrlə bağlı əsər boyu irəli sürdüyü iki cəhət diqqəti cəlb edir: Birincisi, bolşeviklərlə "Müsavat" arasında mübarizədə yerli xalqın daha çox kimi müdafiə etməsi etiraf edilir. Ancaq bununla yanaşı müəllif real bir faktı təsdiq etmək istəmir ki, Müsavat partiyası milli məfkurəli bir partiya idi və yerli xalqın mənafeyini müdafiə edən bir siyasi təşkilat kimi çıxış edirdi. Bakıda fəaliyyət göstərən partiyaların əksəriyyəti Bakıya müsəlman şəhəri kimi baxmır və ya bu şəhəri Azərbaycan şəhəri kimi qəbul etmirdilər. İkincisi, hakimiyyət uğrunda mübarizədə müəllif

hər üç partiyaya (müsavat, daşnak, bolşevik) eyni münasibəti bildirir. Şaumyanın bolşevik və daşnak partiyaları arasında yaratmış olduğu əlaqələri açmaqda xəsislik edir. Əksinə, müəllif yazır: "Müsavat" gücləndikcə, onun Sovetlə münasibətləri pisləşirdi. 1917-ci ilin aprelində çağırılan Transqafqaziya müsəlmanlarının qurultayı zamanı qəbul edilən sənədlər bu iki partiya arasında münasibətləri gərginləşdirdi. Yanvarda bolşeviklər "Müsavat"ı dağıtmaq məqsədi güdən addımlar atmağa başladılar" [8, 69]. Bolşeviklər "Müsavata" hücüm etməyin ən asan yollarından birini tətbiq etdilər. Yəni onu milli iğti-şaşlara təhrik etmək və əksinqilabi mövqe tutmaqda suçladılar. Bu cür taktika bolşeviklərə arzuolunan nəticələri verə bilərdi. Ancaq bolşeviklər ehtiyatı əldən vermir, erməniləri müdafiə etdiklərini ört-basdır edə bilirdilər. Sovetdə olan çoxsaylı ermənilər və ruslar başa düşürdülər ki, onların antimüsəlman siyasəti Azərbaycan əhalisinin "Müsavat" ətrafında daha sıx birləşməsinə gətirib çıxaracaqdır. Ermənipərəst görünməmək üçün bolşeviklər bu mətbuat orqanlarında həm "Müsavat"a, həm də "Daşnaksütyun"a hücum edirdilər. 30-cu illərin bolşevik tarixçilərindən olan Y. Ratqauzer yazırdı: "Bakıda iki böyük düşmən düşərgəsi üz-üzə dayanmışdı. Bunlar Müsavat və Daşnaksütyun partiyalarıdır. Şəhərin demokratik qüvvələri bu iki patiyanı zərərsizləşdirməsə, onda əksinqilabi təşkilatlar fəhlə sinfini silahlandıraraq onları bir-birinə qarşı qoyacaq və özlərinin çürük milli binalarını fəhlə hərəkatının xarabalıqları üzərində qurmağa çalışacaqlar. Toqquşma qaçılmazdır" [9, 128]. F.Kazımzadə yazırd; "Ilk nəzərdən "Müsavat"a və "Daşnaksütyun"a hücum eyni xarakter daşıyır. Əslində isə, bu aldadıcı təbliğat idi. Sovetin bütün fikri "Müsavat"ı məhv etməyə yönəlmişdi. Sovet bu iki güclü rəqibə eyni zamanda qalib gələ bilməzdi. Sovet azərbaycanlılarla ermənilər arasında milli münaqişəni qızışdırmaq və bir xalqdan digərinə qarşı istifadə etmək qərarına gəlmişdi" [8, 69]. Doğrudur, müəllifin bir çox mülahizələrini qəbul etmək olmur. Ona görə ki, müəllif bu fikirlərin bir çoxunu sovet tarixçilərinin əsərlərinə istinadən irəli sürür. Digər tərəfdən, müəllif "Daşnaksütyun" ilə "Müsavat" arasında hakimiyyət uğrunda mübarizədə fərqi görmür və ya görmək istəmir. "Müsavat" öz torpağında hakimiyyət uğrunda mübarizə apardığı halda, "Daşnaksütyun" "böyük Ermənistan" yaratmaq uğrunda qanlı müharibə aparır və qonşu torpaqlarının bu əraziyə qatılmasına çalışırdı. F.Kazımzadə yazır: "Sovet və "Müsavat" arasında kulminasiya nöqtəsinə çatan mübarizə mart hadisələri ilə başa çatdı. Bu hadisələrdə Daşnaksütyunun rolu, Transqafqaziyanın sonrakı tarixi üçün mühüm əhəmiyyət kəsb edir və buna görə də bəzi hadisələri detalları ilə araşdırmağa ehtiyac vardır" [8, 69].

F.Kazımzadənin bəhs etdiyimiz əsəri haqqında fikrimizi yekunlaşdırarkən bəzi məqamlara diqqət yetirək. Əvvəla, müəllifin bu əsəri xarici tarixşünaslıqda Qafqaz tarixi ilə bağlı işıq üzü görən ilk əsərlərdən biridir. Ikincisi, vətən tarixşünaslığında Bakı Xalq Komissarları Sovetinin tarixi parlaq səhifələrdən biri kimi təsvir olunsa da, müəllif bir çox tarixçilərin əsərlərinə münasibət bildirməklə Bakı Sovetinin tarixi ilə bağlı əsl həqiqəti üzə çıxarmağa cəhd göstərmişdir. Üçüncüsü, müəllif bir çox tarixi həqiqətləri üzə çıxarmaqla, əslində, vətən tarixçilərinin tədqiqatlarını sual altında qoymuşdur: 1918-ci ilin martında Bakı şəhərində vətəndaş müharibəsi, yoxsa mart soyqırımı baş vermişdir? Ədalət naminə qeyd etmək lazımdır ki, həyatında Azərbaycanı görməyən, yalnız soyadına görə bizə yaxın olan F.Kazımzadənin hadisəyə "mart qırğını", ömrü boyu Azərbaycanda yaşayan və bu xalqın övladı adını daşıyan yüzlərlə tarixçinin isə "vətəndaş müharibəsi" ifadələrini tariximizə gətirməsi kimin bizə daha yaxın və real tarixə sadiq olduğunu əyani göstərir.

## ƏDƏBİYYAT


*1. Abbasov Ş. 26 Komissar. Bakı: Azərnəşr, 1937, 24 s.*

*2. İsgəndərov A.C. Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarix-şünaslığı 1918-1920. Bakı: Adiloğlu 2006, 391 s.*

*3. İsgəndərov A.C. Azərbaycan həqiqətləri 1917-1920. Bakı: Elm və təhsil. 2012, 226 s*

*4. İsgəndərov A.C. 1918-ci ildə Şamaxı qəzsında həyata kecirilən soyqırımı. Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutu Elmi Əsərlər. "Azərbaycan və Şərqi Anadoluda türk-müsəlman əhaliyə qarşı soyqırımları (1914-1920)" mövzusuna həsr olunmuş III beynəlxalq elmi konfransın materialları. Xüsusi buraxılış. 2015, 56,57, 58, 621s.*

*5. Əzizyan A. 26 Bakı komissarının xatirəsi/Azərbaycan qadını jurnalı.1938, № 8, s. 7-9 (latın əlifbası ilə).*

*6. Qazıyev M. Kommunizm uğrunda mübriz döyüşçülər/Təbliğatçı jurnalı, 1939, № 2, s. 5-13*

*7. Henry Barby. Le debacle russe: les extravagances Bolcheviques et l'epopee Armenienne. Paris: A. Michel, 1921, 261 p.*

*8. Kazemzadeh F. The Struggle for Transcaucasia (1917-1921). New York: Phi-losophical Library, 1951, 354 p.*

*9. Ратгаузер Я.А. Революция и гражданская война в Баку. Ч.1: 1917-1918 гг. Баку: Красный Восток, 1927, 222 с.*



***Açar sözlər:*** *Anti-azərbaycan siyasəti, Bakı Kommunası, milli istiqlal, xarici tarixşünaslıq.*

***Ключевые слова:*** *Анти-азербайджанская политика, Бакинская Коммуна, национальная независимость, зарубежной историографии.*

***Keywords:*** *Anti-azerbaijani politics, the Baku Commune, national Independence, foreign historiography.*


## РЕЗЮМЕ


Анализ зарубежной историографии показывает, что искаженные в отечественной историографии факты о Бакинских Народных Комиссарах нашли свое подлинное отражение в зарубежной историографии. В то время как отечественные историки руководствуясь большевистской концепцией политику Бакинских Народных Комиссаров описывали как беспорочную и правую, зарубежные историки, лидеры и идеологи Азербайджанской Демократической Республики, а также зарубежные авторы, которые стали свидетелями и даже участниками мартовских репрессий, объективно описывают эти события.


## SUMMARY


An analysis of foreign historiography shows that many distorted moments about the history of The Baku Council of People's Commissars in the native historiography found their real reflection in the foreign historiography.

The native historians helding Bolshevik concept as the main described the policy of The Baku Council of People's Commissars impeccably and fairly although the liders and ideologians of the Azerbaijan Democratic Republic, or foreign authors who were witness and participante of the the genocide of March the relation to the problem as expected was objective.

ictimai - siyasi, elmi - populyar jurnal



# Tarix

## ŞİMALİ AZƏRBAYCANIN ZƏNGƏZUR BÖLGƏSİNİN ERMƏNİSTANA BİRLƏŞDİRİLMƏSİ BÖYÜK DÖVLƏTLƏRİN VƏ QONŞU ÖLKƏLƏRİN QAFQAZ SİYASƏTİNDƏ

HACI ABDULLA
Azərbaycan Milli Elmlər Akademiyasının
Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutu




1917-ci il 28 fevral burjua – demokratik inqilabı nəticəsində Rusiya imperiyasında çarizmin, Romanovlar sülaləsinin süqutu, I Dünya müharibəsində Rusiya və Almaniyanın ağır məğlubiyyətindən sonra Cənubi Qafqazda real söz, ixtiyar sahibi ingilislər oldu.

Əsasən, ingilis, fransız, italyanlardan ibarət koalisiya qüvvələrinin hərbçi və diplomatlarının təlimatı ilə hazırlanıb qarşıya qoyulan əsas məqsəd Rusiyanı Qafqazdan çıxarıb yenicə müstəqilliklərini elan etmiş 3 respublikanı Antantanın nüfuz dairəsinə daxil etmək, Bakı neftinə sahiblənmək idi. Xristian təəssübkeşliyinə söykənən böyük güclərin Osmanlı torpaqlarında ermənilərə verdikləri boşa çıxan vədi - müstəqil Ermənistan dövləti yaratmaq planlarını Cənubi Qafqazda reallaşdırmaq da əsas məqsədlərdən biri idi.

I Dünya müharibəsində məğlub olan Osmanlı dövləti 1918-ci il oktyabrın 30-da İngiltərə ilə Mudros sazişi imzaladı. Müttəfiqlərin razılığına əsasən, bu zaman İranın Ənzəli limanında olan ingilis hərbi qüvvələrinin komandanı, general Tomsona Bakını tutmaq əmri verildi. Öncə ingilis generalının tələbi ilə Osmanlı və Azərbaycan hərbi qüvvələri Bakını tərk etdilər. 1918-ci il noyabrın 17-də ingilis hərbi qüvvələri Bakıya daxil oldu. Tomsonun başçılıq etdiyi ingilis general-qubernatorluğu yarandı. Bakı şəhəri və onun neft mədənləri ingilislərin nəzarətinə keçdi. İlk əmri Azərbaycan bayrağının endirilməsi barədə oldu. Bakını rus şəhəri hesab edən Tomson burada işğal rejimi yaratdı, polis, liman, neft sənayesi, maliyyə idarələri, mətbuat üzərində nəzarət qoydu.

Böyük Britaniyanın Hərbi naziri Çörçill 1919-cu il martın 6-da Qafqazla bağlı bir konfransda demişdi: "Heç şübhə yoxdur ki, Rusiyanın gələcək hökuməti bu regiona (Qafqaza-H.N) yenidən qayıdacaqdır, indiki fasilə məqamında baş verənlər əsas problem deyil, lakin Britaniya qoşunları o ərazilərdə nə qədər çox qalacaqsa, bizim caynağımız bir o qədər dərinə işləyəcəkdir."

1917-ci ildə Rusiyada oktyabr inqilabından sonra, bolşeviklərə qarşı "14 dövlətin yürüşü" planının müəllifinin bu uzaqgörənliyini, ingilis diplomatiyasının gücünü, anlamaq üçün bp şirkətinin Azərbaycana-Xəzər regionuna gəlişi və burdakı fəaliyyəti, mənfəətlərini yada salmaq kifayətdir.

Ermənilər Osmanlı dövlətinin I Dünya müharibəsində məğlubiyyətini və Antantanın qələbəsini toy-bayram kimi qarşılamışdılar. Mudros barışığının (1918-ci il 30 oktyabr) onların ərazi iddialarının gerçəkləşməsində mühüm rol oynayacağını güman etmişdilər. Həmin barışığa əsasən, türk qoşunları Qafqazdan çıxmalı və 1914-cü il Rusiya-Türkiyə sərhədlərinə çəkilməli idi. 1918-ci ildə Türk qoşunlarının Azərbaycanı tərk etməsi yenidən Andranikin əl-qolunu açmışdı. "Daşnaklar Zaqafqaziyaya Ermənistandan girməyə başlayan Amerikanın agentləri idilər. "Böyük Ermənistan" ideyası bütün Qafqazı tutmaq üçün ABŞ-ın işini asanlaşdırmalı idi...". (14)

Müstəqilliyini yeni elan etmiş Azərbaycan yenidən ciddi təhlükə qarşısında qaldı. Özünün milli hərbi hissələri olmayan Azərbaycan hökumətinin ingilis qoşunlarına hərbi müqavimət göstərmək imkanı yox idi. Yaranmış vəziyyətlə bağlı M.Ə.Rəsulzadə yazırdı: "Türk ordusu çəkilmiş, Azərbaycan hərbi hissələri isə yox idi… Fərzən qüvvə olsa belə, Almaniyanın, Türkiyənin təslim olduğu bir qüvvəyə qarşı Azərbaycanın hərb açması təbii ki, ağla belə gəlmirdi. Ona görə də məsələ yalnız diplomatik vasitələrlə həll ediləcəkdi". (15)

Qafqazdakı ABŞ, Böyük Britaniya, Fransadan ibarət müttəfiqlər missiyasının başçısı general Tomsonla danışıqlar aparan N.Usübbəyov, Ə.Ağayev və M.Rəfiyevdən ibarət nümayəndə heyətinin səylərindən nəticə əldə edilməmişdi. F.Xoyski ilə general Tomsonun görüşü də çox mübahisəli və sərt olmuşdu.

O, Azərbaycan Cümhuriyyətini tanımadığını, rusların torpağına gəldiyini söylədi. Fətəli xan isə Azərbaycan xalqının qərarı və istəyi ilə Azərbaycan Cümhuriyyətinin və istiqlalının elan edildiyini və bunun bütün dünya dövlətlərinə bildirdiyini söyləyir. Sözlərinə davamla: "Siz böyük bir millət və böyük bir imperiyasınız. Eyni zamanda mədəni bir millətsiniz. Bizim istiqlaliyyətimizi tanımalısınız" - deyir. General Tomson da: "Bu söylədikləriniz siyasi şeylərdir və iki dövlət arasında cərəyan edər. Halbuki, mən bir əsgərəm" cavabını verir. Fətəli xan da: "Madam ki, siz əsgərsiniz, mən də istiqlaliyyətini elan etmiş Azərbaycan Cümhuriyyətinin baş naziriyəm. Biz sizi buraya dəvət etmədik. Sizdən ölkəmizi tərk etməyi tələb edirəm" deyir. Bu cavab qarşısında general Tomson tərcüməçiyə dönərək, "Baş nazir həzrətlərinə söyləyin ki, hər hansı bir hərbi qüvvəni çıxarmaq üçün hərbi qüvvəyə sahib olmaq gərək. Bildiyimə görə qurduğunuz Cümhuriyyətin ordusu hələ qurulmamışdır" deyir. Fətəli xan tərcüməçiyə: "General həzrətlərinə söyləyin ki, o yalnız hərbi birliyə malikdir. Ya xalq qüvvələrin nə olduğunu bilmir və ya hər xalqı Hindistan xalqı zənn edir. Biz Azərbaycan türkləri istiqlaliyyətimizi elan etməmişdən öncə 100 minə qədər rus əsgərini xalq qüvvələrimizin gücü ilə süpürüb sərhədlərimizdən kənara atdıq. Əgər inad edərlərsə, bir ovuc ingilis əsgərini dənizə tökmək qəhrəman xalqımızın gücü ilə bir neçə saatlıq məsələdir. Ancaq biz nə onlardan pislik görmək, nə də onlara pislik etmək istəyirik" - cavabını verir (5). AXC Hökumətinin tərkibi də general Tomsonla məsləhətləşmədən sonra elan edilir (12).

Vəziyyətin ağırlığı Azərbaycan hökumətini istiqlal fikrindən daşındırmağa vadar edə bilmədi. Beş aylıq fasilədən sonra 1918-ci il noyabrın 16-da Azərbaycan Milli Şurası yenidən öz işinə başladı. Noyabrın 19-da Milli Şura Azərbaycan parlamentinin yaradılması haqqında qanun qəbul etdi. Qanunda göstərilirdi ki, yaranmış vəziyyətdə Azərbaycanın müəssisələr məclisini çağırmaq mümkün olmadığından Milli Şura ümumdövlət qanunverici orqana — Azərbaycan parlamentinə çevrildi.

Azərbaycan parlamentinin açılışına hazırlıq işləri zamanı general Tomsona aydın oldu ki, Azərbaycan hökuməti Bakıda xalq arasında dayağı olan yeganə real siyasi qüvvədir. Məhz bu dövrdən ingilis komandanlığının Azərbaycan hökuməti ilə yaxınlaşması başlandı. 1918-ci ilin dekabr ayının 26-da F. Xoyskinin başçılıq etdiyi hökumət təşkil olunduqdan sonra V.M.Tomson Azərbaycan hökumətini tanıdığını bildirdi (12).

V.M.Tomsonun bəyanatına görə, bütün Azərbaycan ərazisinin hüdudlarında F.Xoyskinin sədrliyi ilə yaradılmış Azərbaycan koalisiyon hökuməti yeganə qanuni hakimiyyətdir və müttəfiq ölkələrin hərbi qüvvələrinin komandanlığı bu hökumətə hərtərəfli yardım göstərəcəkdir.

İngilislərin bu himayədarlığı Azərbaycana ucuz başa gəlmədi. 1918-ci ili dekabrından 1919-cu ilin aprelinə qədər ingilislər Bakı - Batum kəməri vasitəsilə haqqı ödənilmədən Azərbaycandan 8405471 manat dəyərində neft və neft məhsulları apara bilmişdilər. Nəzərə alaq ki, bir o qədər də nefti Bakı Kommunası dövründə əvəzsiz olaraq Rusiya aparmışdı (14).

28 aprel 1920-ci il bolşevik Rusiyasının Qafqaza qayıdışına qədər bölgədə cərəyan edən bütün proseslərdə ingilislər əsas ssenari müəllifi, rejissor və baş rolun ifaçısı olmaqla bərabər, Azərbaycandan qoparılıb Ermənistana veriləcək torpaqların sərhədlərini də ilk dəfə ingilislər cızmışdılar. General Tomsonun Ermənistan hökumətinin rəhbərləri Xatisov və Tiqranyanla dialoqları da çox mətləblərdən xəbər verir. O, 1919-cu il martın 28-də İrəvanda Ermənistan hökumətinin iclasında çıxışında demişdi: "...Zəngəzur Erməni Milli Şurası tərəfindən idarə ediləcək...Dağlıq Qarabağın idarə edilməsi üçün Ermənistan təcili öz nümayəndələrini verməlidir... Erməni qoşunları Qars və Naxçıvanı, Şərur Dərələyəz-Sürməlini tuta bilər... Azərbaycan ordusu indi durduğu yerdən-Ağdam və Xankəndindən bu tərəfə keçməyəcək... Azərbaycan hökumətinin martın 19-da keçirilən iclasında qərar qəbul edilmişdir ki, Daxili İşlər Nazirliyi 1300 nəfərlik piyada və 500 nəfərlik erməni süvari dəstəsinin Şuşa, Xankəndi, Əsgərandan keçib Ermənistana getməsi üçün hərtərəfli səy göstərəcək. Mayor Monk Mezon mənə məlumat vermişdir ki, Azərbaycan hərbi hissələri general Mehmandarovun rəhbərliyi ilə onların sağ-salamat keçməsi üçün bütün tədbirləri görmüşdür... Azərbaycan Dağlıq Qarabağ və Zəngəzurun mübahisəli ərazi kimi Paris sülh konfransında həll olunacağını gözləyəcəkdir" (9).

Tomson Ermənistan hökumətinin rəhbərlərinə 5 milyon ədəd patron və pul da göndəriləcəyini də vəd etmiş, vədini də yerinə yetirmişdir. ABŞ prezidenti V.Vilsonun ermənilərə mərhəm münasibəti də hadisələrdə mühüm rol oynayırdı. "Daşnak ordusu Amerika çörəyi yeyirdi. ABŞ Ermənistana 50 min, İngiltərə 40 min, Fransa 30 min əsgər üçün geyim, ərzaq, hərbi sursat, 10 milyon patron vermişdi" (13).

Bu iclasdan 4 gün sonra - aprelin 2-də Gorusda Zəngəzur ermənilərinin qurultayı keçirilir və qərar qəbul edilir: "Azərbaycanın Ermənistanın bir hissəsi olan Zəngəzuru tutmaq cəhdlərinə qarşı silahla cavab verilsin".

Qurultayın qərarı ilə Yepiskop Vahan və Erməni Milli Şurasının üzvü Bahadurov Bakıya Müttəfiq Dövlətlərin Qafqazdakı baş təmsilçisi general Tomsonun yanına gəlir və Qarabağ ermənilərinin bu tələblərini ona yetirirlər: Qarabağın dərhal Ermənistana birləşdirilməsi və ya Qarabağın Paris sülh konfransına qədər Ermənistana birləşdirilməsi; Qarabağda yerli erməni idarəçiliyinin təşkil edilməsi və Qarabağda ingilis general-qubernatorluğunun yaradılması...

Tarixi ədalət naminə demək lazımdır ki, AXC hökumətində ingilis siyasətinə qarşı ən prinsipial, ardıcıl mübarizə aparan siyasətçi AXC-nin ilk hərbi naziri və Qarabağın general-qubernatoru Xosrov bəy Sultanov olmuşdur (6). O, ingilislərin bütün fəaliyyətlərinin ermənilərin xeyrinə olduğunu, ingilis siyasətinin Zəngəzur və Qarabağı Azərbaycandan qoparmağa yönəldiyini faktlarla, sübutlarla davamlı olaraq AXC Parlamenti və Hökumətinə bildirirdi.

Zəngəzur qəzası ingilislərin ermənilərə verdiyi top, pulemyotlarla, silah-sursatla tamamilə məhv edilməklə bərabər, vuruşmalarda iştirak edən, sayı on minə çatan nizami erməni ordusunun döyüş meydanında qalmış ölüləri arasında bir necə ingilis əsgərinin meyidinin olduğu da bildirilir.

Zəngəzuru qan içində boğan generallar Andronik, Dro və Njdenin də "ingilis casusu" olduğu, onlardan təlimat aldığı, ruslara qarşı da ingilislərin tapşırığı ilə savaşdığına dair çoxsaylı faktlar məlumdur (10).

Zəngəzurda erməni qoşun birləşmələrinin saysız-hesabsız qətliamları barədə AXC Hökumətinin Gəncə, Bakıdan Tiflisdə lövbər salmış Amerika, İngiltərə, Fransa, İtaliyanın Qafqazdakı hərbi və diplomatik missiya başçıları olan general Uodropa, polkovnik Reyo, polkovnik Nonakura, polkovnik Qabbaya ard-arda xahiş, notaları da, nəticəsiz qalan dişsiz bəyanatları da bunun sübutudur (1).

1919-cu il 23 noyabrda Tiflisdə Azərbaycan və Ermənistanın hökumət başçılarının Müttəfiqlərin ali komissarı - Birləşmiş Ştatlar

Ordusunun Baş qərargahının polkovniki Ceyms Reyin iştirakı ilə atəşi dayandırmaq barədə sazişinin mürəkkəbi qurumamış qaniçən erməni generalı Njdenin hücumları ağlasığmaz dəhşətlərlə, tükürpədən vəhşiliklərlə Zəngəzurun aşağı hissəsini də bütünlüklə qana bələdi. Azərbaycan xarici işlər naziri F.X.Xoyskinin Ermənistan XİN-ə göndərdiyi 10 dekabr 1919-cu il tarixli teleqramında göstərilirdi ki, Oxçu rayonunun kəndlərinin silah tutmağı bacaran kişiləri sülh yaratmaq bəhanəsi ilə karvansaraya dəvət edilmiş, onların hamısı əvvəlcədən yerləşdirilmiş dinamitlərlə partladılaraq öldürülmüşdür. Qocalar, uşaqlar və qadınlar isə məsciddə doğranmışdılar (Azərbaycan xalqına qarşı 1918-ci il soyqırımı. Sənədlər toplusu. 3 cilddə, II cild, I kitab). 1920-ci il yanvarın 3-də ermənilər Qərçivan kəndində yaşayan azərbaycanlılara qarşı növbəti vəhşilik törətdilər. Cəlladlar kəndin bütün əhalisini bir yerə yığaraq, uşaq və qadınlara belə rəhm etmədən qılıncdan keçirmişdilər (2).

İngilis jurnalisti Skotland-Liddell 1920-ci ilin qanlı yanvar günlərində Zəngəzura gəlib törədilən qırğınları şəxsən görüb yanvarın 30-da Tiflisdə bölgəyə səfərində gördüklərini "Müsəlmanlarla müharibə, ermənilər yenidən hücum edirlər" adlı məqaləsində vicdanlı obyektivliklə qələmə almışdır. İngilis jurnalisti yazırdı ki, "...hər iki hökumət tərəfindən Tiflisdə noyabrın 23-də müqavilə imzalanmışdı və bütün mübahisəli məsələlər böyük dövlətlər tərəfindən həll ediləndək hər iki tərəfin sülh şəraitində yaşayacağına ümid yaranmışdı. Lakin müqavilənin imzalanmasının ardınca ermənilər dərhal Azərbaycan ordusunun geri çəkilməsindən istifadə edərək Zəngəzurda qırxadək müsəlman kəndini darmadağın etdilər. ... doqquz müsəlman kəndini də Şuşa yolu üstündə darmadağın etmiş, əhalinin böyük əksəriyyətini isə vəhşicəsinə öldürmüşlər...Azərbaycan Hökuməti bununla bağlı etirazını bildirsə də, Ermənistan Hökuməti bu faktları rədd edən cavab aldı...Ermənistan ona görə bədbəxtdir ki, "Daşnaksütyun" partiyası orada qüvvədədir. Bu uzun illər erməniləri müsəlmanlara qarşı hücum etməyə sövq edən inqilabçı terror təşkilatıdır. Ermənilər bacarıqlı müntəzəm təbliğat vasitəsilə layiq olmadıqları həddə rəğbət qazanırlar. Ermənistan həmişə dava-dalaş axtarır və ona nail olanda təbliğat məqsədilə deyirlər ki, amandı qoymayın qırdılar bizi. Daşnak üçün öldürülmüş erməni daha əzizdir. Bundan istifadə edərək, ermənin ölüsü qalxıb haray – həşir təpir ki, ayə mən özüm ölməmişəm, məni müsəlmanlar öldürüblər...Londonda, Fransa, Birləşmiş Ştatlarda erməni büroları mövcuddur, onların ən sevimli metodu "xristian" sözündən istifadə etməkdir. İndi Zəngəzura hücum edən ermənilər özlərinin müvəqqəti uğurlarına şübhə etmirlər. Lakin gün gələcək ki, bütün müsəlmanlar bir nəfər kimi zülmkarlara qarşı qalxacaq və həmin gün gələndə heç nə erməni xalqını xilas edə bilməyəcəkdir" (11).

1920-ci ilin əvvəllərində daxili və xarici hərbi-siyasi durumu çox ağır olan və günü-gündən pisləşən AXC-nin Baş naziri 4 fevral 1920-ci il tarixdə Ermənistanın Baş naziri Xatisova ünvanladığı teleqramda yazırdı ki, "Zəngəzur müsəlmanlarının tamamən yox edilməməsi üçün" Azərbaycan Ordusundan "bir miqdar əsgəri qüvvə o bölgəyə göndərilmişdir və bu, 23 noyabr 1919-cu il anlaşmasına zidd deyildir" (3).

N.Nərimanov başda olmaqla Azərbaycan bolşeviklərinə Zəngəzurdan ağır miras buraxılmışdı, mövcud vəziyyət Zəngəzurun böyük bir hissəsinin Azərbaycandan qoparılmasına, Qarabağda erməni muxtariyyətinin yaradılmasına, əsrin sonlarında Azərbaycanın həmin faciələri bir daha yenidən daha ağır şəkildə yaşamasına təməl zəmin hazırladı.

ADR-in rəsmi elan edilməsinə və yaşamasına baxmayaraq, Rusiya Azərbaycanı öz mülkiyyəti hesab edir, Azərbaycan xalqının milli müqəddəratını təyin etmək hüququnu tanımaq istəmir, müxtəlif tələblər irəli sürür, təzyiqlər göstərirdi. Qatı millətçi daşnak Anastas Mikoyan bəyan etmişdi ki, Azərbaycanın müstəqilliyi haqqında söz ola bilməz (8).

1920-ci ilin yanvar ayının 11-də Paris sülh konfransında böyük dövlətlər Azərbaycanı de-fakto tanıdıqdan sonra V.İ.Lenin 1920-ci ilin mart ayının 17-də Qafqaz cəbhəsi hərbi inqilab şurasına göstəriş vermişdi ki, Bakını ələ keçirmək bizə son dərəcə zəruridir. Bütün səyinizi buna verin.

Azərbaycanın işğalını əsaslandırmaq məqsədi ilə Rusiya bu ölkəyə qarşı bir sıra təxribat xarakterli iddialar irəli sürdü. 1920-ci ilin yanvar ayının 18-də xarici işlər naziri Q.V.Çiçerin Azərbaycanı Denikinə yardım göstərməkdə ittiham etdi. Azərbaycanın Xarici işlər naziri F. Xoyski cavab notasında bu ittihamı böhtan adlandırmış və elan etmişdi ki, Azərbaycan neytral ölkədir, heç kimin daxili işinə qarışmır, Denikinlə heç bir əlaqəsi yoxdur. Nazir bəyan etmişdir ki, o, Rusiyanın hələ də Azərbaycanının müstəqilliyini tanımadığına təəssüflənir.

Rusiya Azərbaycanın Denikinə mənfi münasibətini bilirdi. O vaxt Azərbaycanın müstəqilliyi üçün Denikin Rusiya qədər təhlükəli idi. Hər iki tərəf Azərbaycanı işğal etmək, onun neftinə sahib olmaq iddiasında idi. Lakin Rusiyanın planı daha məkrli və daha təhlükəli idi. Rusiya hər vasitə ilə çalışırdı ki, Azərbaycanı Denikinlə üz-üzə qoysun, Denikini Azərbaycanı işğal etməyə təhrik etsin, vuruşan tərəflər zəiflədikdə Azərbaycanı zəbt etsin.

Rusiyanın Azərbaycana qarşı təcavüzkar siyasətini müzakirə edən milli hökumət şimal sərhədlərini möhkəmləndirmək barədə tədbirlər görməyə başladı, Gürcüstanla 1919-cu ilin iyun ayının 27-də bağladığı hərbi müdafiə müqaviləsinə əsasən Azərbaycan bu ölkə ilə əlaqələri daha da gücləndirdi. ADR hökuməti Rusiyanın məkrli planlarına münasibətdə cəsarətli mövqe tutdu, ona qarşı fəal diplomatik müqavimət göstərmək mövqeyini seçdi, ABŞ-ın, Fransanın, İngiltərənin dəstəyinə bel bağladı.

O dövrdə yaranmış gərgin beynəlxalq vəziyyət şəraitində böyük dövlətlər Azərbaycana gərəkli dəstək göstərə bilmədilər. Bunu aydın görən Rusiya ekspansionizm və böyük dövlətçilik şovinizm siyasətini daha gücləndirir, tarixən rusların öz ərazilərini genişləndirmək planını həyata keçirməyə çalışırdı. Q.K.Orconikidze Lenindən aldığı tapşırığa əsasən Qafqaz cəbhəsi komandanı M.N.Tuxaçevski, hərbi inqilab şurasının üzvü S.M.Kirov, ordu komandanı M.K.Levandovski ilə birlikdə Bakının zəbt edilməsi planını işləyib hazırladı, Bakının tutulması haqqında aprel ayının 21-də XI Qızıl Orduya ciddi sərəncam verdi (7).

M.Ə.Rəsulzadə yazmışdı: "27 aprel faciəsi ilə Azərbaycan ikinci dəfə olaraq rus ordusunun yeni Sisiyanovu olan Orconikidzenin idarəsi altına girirdi. Nəticə hər iki halda eyni idi. Nikolay Rusiyası ilə Lenin Rusiyası arasındakı fərq bundadır ki, o zaman cahangirlik siyasəti başçısının adı Nikolay, indi cahangirlik siyasəti başçısının adı isə Lenindir. O zamankı zəncirlərin rəngi qara, indiki zəncirlərin rəngi isə qırmızıdır" (16).

Rusiyanın təzyiqi altında bu əzəli Azərbaycan torpağının Ermənistana verilməsi istiqamətində atılmış məkrli addımlar 4505 kvadratkilometrlik bir ərazinin həmişəlik itirilməsi ilə nəticələndi.

Vaxtilə Zəngəzurdan qovulmuş 50 mindən çox azərbaycanlı qaçqının yalnız 5 min nəfəri öz vətəninə dönməyə nail olmuşdu. 1917-ci ildə Zəngəzur qəzasında 123085 nəfər təşkil edən



azərbaycanlıların 1926-cı il siyahıyaalınma göstəricilərinə görə sayı heç 5 minə belə çatmamışdı. 1918-ci il mayın 29-da 9 min kvadrat kilometrlik Azərbaycan torpağında yaradılmış Ermənistan dövləti sonradan digər ərazilərin işğalına başladı: 1920-ci ilin dekabrından başlayaraq 10 il ərzində Moskvanın birbaşa köməyi ilə Zəngəzur qəzasından 405.000 desyatin (4414,5 km2), Qazax qəzasından 535096 desyatin (5832,82 km2) , Naxçıvan MSSR-dən 657 km2, Cəbrayıl qəzasından Nüvədi, Eynəzir və Tuğut kəndlərini əhatə edən Azərbaycan torpaqları Ermənistan ərazisinə qatıldı. Sovet rejiminin sonrakı illərində də Ermənistan ərazisi Azərbaycan torpaqları hesabına daha da genişləndirildi və 29,743 km2-ə çatdırıldı (4).

1988-ci ildən başlayaraq Moskva və Qərbin bir çox dövlətlərinin fəal siyasi, mənəvi, hərbi dəstəyi ilə Ermənistan Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətini, vilayətdən kənarda əlavə 7 rayonu, dövlət sərhədləri boyunca yerləşən bir çox ərazilərini işğal etdi. Mülki əhalinin kütləvi qətliamları, talan, qarətləri ilə müşayiət olunan bu proses əvvəlcə Ermənistan SSR-də yaşayan azərbaycanlı əhalinin zor gücünə deportasiyasından başlandı, ilk qaçqın dalğası yenə də 1987-ci il fevral ayının sonu-martın əvvəllərində Zəngəzurdan başlamışdı.

1992-93-cü illərdə 7.892 kv.km ərazini əhatə edən tarixi Zəngəzur bölgəsinin və Dağlıq Qarabağın ətraf bölgələrlə birlikdə işğalına Rusiya ilə yanaşı, ABŞ, Böyük Britaniya, Fransa da dəstək vermişdir və ikili standartları, xristian təəssübkeşliyini dövlət siyasətinə çevirmiş bu böyük güclər BMT qətnamələrinə də əhəmiyyət vermədən Ermənistanın 24 ildən bəri davam edən Azərbaycan torpaqlarını işğalı faktının aradan qaldırılmasında prinsipsizlik göstərməkdədir.

## ƏDƏBİYYAT


1. *ARDA, f.894, s.4, iş 19, v.129*
2. *ARDA, f.970, s.1, iş 113.*
3. *Azərbaycan xalqına qarşı 1918- ci il soyqırımı. Sənədlər toplusu. 3 cilddə, II cild, I kitab. Gəncə quberniyasında soyqırımı. 1917-1920-ci illər, Bakı, Tarix İnstitutunun nəşri, 2011*
4. *Kamran İSMAYILOV. Azərbaycan qəzeti, Zəngəzur bölgəsində azərbaycanlıların soyqırımı, 03 Aprel 2015*
5. *Nağı Keykurin "Nağı Şeyxzamanlının xatirələri və istiqlaliyyət fədailəri". Bakı 2007, s.67-68*
6. *Nəbibəyli Z. Sultan bəy və Xosrov bəy qardaşları, Nurlar, Bakı 2011, s.66-67*
7. *Nərimanoğlu H. Azərbaycanın Zəngəzur mahalının Ermənistana verilməsi prosesi 27-09-2015, http://karabakhmedia.az/*
8. *Nərimanoğlu H, Ermənilərin Zəngəzur və Qarabağda törətdikləri qırğınlar Osmanlı-Türkiyə arxivlərində. QHT nəşriyyatı 2014, səh.65-66*
9. *Nərimanoğlu H . Erməni xisləti, Azərbaycan qəzeti, 31 mart 2012*
10. *Nərimanoğlu H. Zəngəzur (tarixi oçerk) www.zengezur.com, 12.09.2014*
11. *Paşayev A. İngilis jurnalisti Skotland Liddell erməni məkri haqqında. // Xalq qəzeti, - 2010, 12 mart, - № 56, s. 6.*
12. *Solmaz RÜSTƏMOVA-TOHİDİ, Azərbaycan qəzeti, Azərbaycan Parlamenti necə yarandı, 07 Dekabr 2013*
13. *SSRİ-də vətəndaş müharibəsi tarixi, 1922, c-3, səh 333*
14. *Şərq xalqları jurnalı . 1926.N.1, səh-49*
15. *http://www.uludil.gen.az/adr/021.php*
16. *http://www.resulzade.org /1059.php*

# AZƏRBAYCANDA DEMOQRAFİK VƏZİYYƏT NƏZƏRƏ ALINMAQLA İDXALIN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN QANUNVERİCİLİK BAZASININ GÜCLƏNDİRİLMƏSİ VƏ PRİORİTET İSTİQAMƏTLƏRİ

RASİM ABBASOV
Əmək və Sosial Problemlər üzrə ETTM



Müasir dövrdə ölkəmizdə sosial-iqtisadi inkişafın yeni mərhələləri və yeni meyarları formalaşmaqdadır. Dünya iqtisadi proseslərinin transformasiyası və ciddi təsirlərə məruz qaldığı bir şəraitdə demoqrafik vəziyyətin sabit saxlanılması və bununla bağlı problemlərin dərindən öyrənilərək tənzimlənməsi dövlətin qarşısında duran strateji vəzifələr kimi xarakterizə olunurlar. Bununla əlaqədar olaraq ölkəmizdə demoqrafik vəziyyətin idxalın dövlət tənzimlənməsinə təsirinin təkmilləşdirilməsinin təmin edilməsi vacib məsələlərdəndir. Professor A.Şəkərəliyev qeyd edir ki, Azərbaycanda qeyri-neft sektorunun inkişafı potensialının tam reallaşmasına yönəlmiş tədbirlərin kompleks şəkildə həyata keçirilməsi, idxalı əvəzetmə inkişaf strategiyalarının effektiv sintezinə imkan verən müvafiq iqtisadi mexanizmlərin işlənməsi və realizasiyası əsasında mümükündür[1]. Ölkəmizin qeyri-neft sektorunun inkişafı baxımından idxal əvəzedici sahələrin təşkili mühüm əhəmiyyət kəsb edir. Bu potensialdan zəif istifadə edilməsi bir çox sənaye məhsullarının, xüsusilə yüngül sənaye məhsullarının kütləvi idxalını məcburi etmişdir. Məsələnin mahiyyəti təkcə yüngül sənaye mallarının təminatı sahəsində idxaldan asılılıqdan getmir, bu həm də mühüm sosial-iqtisadi problemdir. Belə ki, ölkə əhalisinin yüngül sənaye mallarına olan tələbatının əksər hissəsinin daxildə istehsalının təşkili və bununla əlaqədar olaraq çoxlu sayda istehsal müəssisələrinin və şəbəkəsinin yaradılması, yeni iş yerlərinin təşkilinə real imkanların əldə edilməsi, iqtisadi cəhətdən fəal əhalinin potensialından səmərəli istifadə olunması, işsizlik səviyyəsinin aşağı salınması, insan resurslarının realizə edilməsi, onların bacarıq və intellektini nümayiş etdirmələrinə müvafiq şəraitin yaradılması, gənc ailələrin formalaşmasına maddi dəstəyin gücləndirilməsi və mənəvi mühitin təşkili, yeniyetmələrin sağlam ruhda böyüməsi üçün əlavə tədbirlərin görülməsinə resursların yaranması və s. mümkün olardı. Demoqrafik proseslər cəmiyyətə və milli iqtisadiyyatın inkişafına əsaslı təsir göstərmək imkanına malikdir. Bu halda həmin proseslərin tənzimlənməsi obyektiv zərurət kimi çıxış edir. Məsələn, tədqiqatçı V.Quliyev qeyd edir ki, ölkə əhalisinin gəlirlərinin diferensiallaşmasının yumşaldılması, yoxsulluğun azaldılması, sosial sferada islahatların hüquqi təminatı, yoxsulluğun azaldılmasının təkmilləşdirilməsi, bunlarla bağlı dövlət proqramlarının həyata keçirilməsi zamanı sosial qeyri-bərabərliyin azaldılması sahəsində daha əsaslandırılmış, planlaşdırma-idarəetmə qərarlarının qəbul etməsi və hüquqi tənzimlənmənin təkmilləşdirilməsi təmin edilməlidir[2]. Əhalinin narahatçılığına səbəb olan problemlərin içərisində sosial qeyri-bərabərliklə bağlı məsələlər daha genişdir və bütün bunlar demoqrafik proseslərin gərginləşməsinə gətirib çıxarır. Buna görə də ölkədə demoqrafik vəziyyətin sabitləşdirilməsi məqsədilə iqtisadiyyat sahələrinin və cəmiyyətin davamlı, həm də tarazlı inkişafı təmin olunmalıdır. Tədqiqatçı Azərbaycanın E. Emir-İlyasova dünya iqtisadiyyatına inteqrasiya şəraitində Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələrinin səmərəliliyini araşdırarkən qeyd etmişdir ki, dövlətin iqtisadi siyasətində ayrı-ayrı qeyri-neft sektoru sahələrinin inkişafı sürətləndirilməli, onların ixrac potensialı artırılmalı və idxaləvəzedici iqtisadiyyat sahələrinin genişləndirilməsi stimullaşdırılmalı, bununla bağlı məsələlər qanunvericilik aktları ilə daha əhatəli baxılmalı, valyuta və gömrük tənzimlənməsi, həmçinin idxal mallarının ölkənin və ayrı-ayrılıqda milli istehsalçıların maraqlarına uyğun olaraq lisenziyalaşdırılması, tarif siyasəti vasitəsilə idxalın tənzimlənməsi həyata keçirilməlidir[3]. İdxalın tənzimlənməsi vasitəsilə ölkədəki proseslərə bu və ya digər formada təsir göstərmək imkanı yaradıla bilər və demoqrafik vəziyyətlə bağlı ortaya çıxan məsələlərdə xarici iqtisadi amillər də az əhəmiyyət kəsb etmir. Bunlara diqqət yetirən tədqiqatçı F.Qənbərov qeyd edir ki, qloballaşma şəraitində idxal-ixrac əməliyyatlarının prosedur qaydaları sadələşdirilməli, şəfaflıq təmin edilməli, bunlarla əlaqədər planlaşdırılmayan xərclər azaldılmalı və sonda malların qiymətinin aşağı düşməsi təmin olunmalı, müxtəlif əhali təbəqələrinin, o cümlədən nisbətən kasıb əhali təbəqələrinin maraqları qorunmalı, arzuolunmaz demoqrafik problemlərə gətirib çıxaran halların qarşısı alınmalıdır. İdxal rüsumlarının azaldılması yolu ilə milli bazarda rəqabətqabiliyyətlilik artırılmalı, yerli istehlakçılar daha ucuz və keyfiyyətsiz mallar imkanı qazanılmalıdır, əhalinin tələbatı dolğun ödənilməlidir və bu istiqamətlərdə idxaləvəzedici fəaliyyət sahələri təşkil olunmalıdır[4,s.34]. Bu məsələlər eyni zamanda işçi qüvvələrinin məhsuldar yerləşdirilməsi, əmək

bazarının və demoqrafik vəziyyətin tənzimlənməsi, məşğulluğun gücləndirilməsi üçündə vacib hesab olunur. Bu baxımdan əmək resurslarından və əmək ehtiyatlarından daha səmərəli istifadənin təşkili, bunlarla bağlı ölkədəki demoqrafik vəziyyətdən doğan reallıqların obyektiv qiymətləndirilməsi, qanunvericilik aktlarının təkmilləşdirilməsi əhəmiyyətli məsələlər kimi diqqət çəkir[5;6].

Qeyd edək ki, Azərbaycan Respublikasında xarici ticarətin daha da liberallaşdırılması haqqında Azərbaycan Respublikasının Prezidentinin 24 iyun 1997-ci il tarixli Fərmanı qüvvəyə minmişdir[7]. Bu fərmanla ölkəmizdə xarici iqtisadi əlaqələrin, xüsusilə ticarət əlaqələrinin liberallaşdırılması, bu işlərin genişləndirilməsi, bu sahədə bazar iqtisadiyyatı tələblərinə cavab verən müasir qaydaların müəyyən edilməsi məqsədilə idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları təsdiq edilmişdir[8]. Bununla da ölkəmizdə idxalın daha səmərəli təşkili üçün qanunvericilik bazası gücləndirilmişdir və bu qanuna əsasən milli iqtisadiyyatın ayrı-ayrı sahələrinin, xüsusilə qeyri-neft sektoru sahələrinin, o cümlədən kənd təsərrüfatı və aqrar sənaye müəssisələrinin inkişafının gücləndirilməsi üçün əlavə mexanizmlər və iqtisadi alətlər formalaşdırılmış, regionlarda əhalinin iqtisadi fəallığının artırılması, sosial-iqtisadi problemlərin həll edilməsi, demoqrafik vəziyyətə mənfi təsir edən ayrı-ayrı sosial-iqtisadi amillərin öyrənilməsi, nəzərə alınması, onlara adekvat tədbirlərin görülməsi işləri genişləndirilmişdir. İdxal əməliyyatlarının daha effektiv təşkili regionlarda fermer təsərrüfatlarının və aqrosənaye təyinatlı müəssisələr şəbəkəsinin yaradılmasını stimullaşdırmış və kənd rayonlarında əhalinin məskunlaşması, əhalinin təkrar istehsalı proseslərinə müsbət təsir göstərmişdir. Ölkə Prezidentinin 2 avqust 2006-cı il tarixli Sərəncamı ilə “Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına üzv olması prosesi ilə əlaqədar qanunvericiliyin Ümumdünya Ticarət Təşkilatının tələblərinə uyğunlaşdırılması üzrə Tədbirlər Planı təsdiq edilmişdir[9]. Qeyd edək ki, hazırda bu tədbirlərin əksəriyyəti reallaşdırılmış və ölkəmizin Ümumdünya Ticarət Təşkilatına üzv qəbul edilməsi üçün maneələr əsasən aradan qaldırılmışdır. Sonradan bu sahədə aparılmış tədbirlərin daha da gücləndirilməsini təmin etmək üçün ölkə Prezidentinin 14 may 2010-cu il tarixli fərmanı ilə ölkəmizdə idxal əməliyyatlarının tənzimlənməsi qaydalarının təkmilləşdirilməsi məqsədilə əlavə tədbirlər müəyyənləşdirilmişdir[10]. Bu qaydaların təkmilləşdirilməsi prosesləri intensivləşdikcə, ölkəmizdə idxal siyasətinin müasir dövrün tələblərinə, həmçinin ölkədaxili demoqrafik proseslər və iqtisadi amillərin təsirinə adekvat tənzimləməsi zərurəti yaranır. Bu hallar əsas götürülməklə, 2013-cü il 13 iyun tarixli “Gömrük tarifi haqqında Azərbaycan Respublikasının Qanunu” qüvvəyə minmişdir [11]. Bu qanunla ölkəmizdə gömrük tarifinin formalaşması və tətbiqi, həmçinin




ölkəmizin gömrük sərhədindən keçirilən mallardan gömrük rüsumlarının tutulması qaydaları tənzimlənir. Bu kimi tədbirlərin həyata keçirilməsi və ölkəmizin sosial-iqtisadi siyasəti, milli maraqları və digər amillər nəzərə alınmaqla müəyyənləşdirilən tarif-gömrük mexanizmləri, idxalın tənzimləmə alətləri bu sahədə zəruri addımları atmağa və tələb olunan işləri reallaşdırmağa imkan verə bilər.

Qeyd edək ki, “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasında iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi, qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi, səmərəli dövlət tənzimlənməsinə və yetkin bazar münasibətlərinə əsaslanan iqtisadi modelin formalaşmasına, insan kapitalının inkişafı və səmərəli sosial müdafiə sisteminin qurulmasına, əhalinin sağlamlığı və səhiyyə sahəsində qarşıda duran başlıca vəzifələrə, müasir təhsil sisteminin formalaşdırılmasına, gender bərabərliyinin təmin olunması və ailənin inkişafına, gənclərin potensialının və idmanın inkişafının təmin edilməsinə ciddi önəm verilmişdir[12]. Azərbaycanın ərzaq təhlükəsizliyi, regionların inkişafı, məşğulluq və yoxsulluğun ixtisarı nöqteyi- nəzərindən əhəmiyyət kəsb edən aqrar sektorun inkişafı dövlətin diqqət mərkəzindədir. Dövlət tərəfindən verilən güzəştli kreditlər, subsidiyalar, meliorasiya və irriqasiya işləri və regional infrastrukturun təkmilləşdirilməsi kənd təsərrüfatının inkişafını sürətləndirmişdir. Azərbaycan dövlətinin apardığı diversifikasiya siyasətinin əsas istiqamətlərindən biri də, ölkə daxilində regional balansın yaranması, və coğrafi tarazlığın qorunmasıdır[13]. Bununla belə, regionlarda qeyri- neft ixracı məhsullarının istehsalı şəbəkəsinin genişləndirilməsi və nəticədə idxalın həcminin azaldılması hesabına əhalinin maddi rifahının yaxşılaşdırılası və demoqrafik vəziyyətin balanslaşdırılması daha çox mümükün olardı. Bu qeyd edilənləri əsas götürərək Azərbaycan Respublikasında demoqrafik vəziyyətin qanunvericilik bazasının gücləndirilməsi və idxalın dövlət tənzimlənməsinə təsirinin təkmilləşdirilməsi yollarını ümumiləşdirmək mümkündür:

-idxalın strukturunun təkmilləşdirilməsi, demoqrafik proseslərin təsirindən formalaşan amillər baxılmaqla idxal siyasətinin yenilənməsi və bunlarla bağlı qanunvericilik bazasının gücləndirilməsi həyata keçirilməlidir;

